AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

# MƏİŞƏT ZORAKILIĞINDAN ZƏRƏR ÇƏKMİŞ ŞƏXSLƏRİN MÜDAFİƏSİ SAHƏSİNDƏ MƏHKƏMƏ TƏCRÜBƏSİNİN TƏHLİLİ

**Azərbaycan Respublikası Prezidentinin 2307nömrəli,**

**2020-ci il 27noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş**

**“Azərbaycan Respublikasında məişət zorakılığı ilə**

**mübarizəyə dair 2020–2023–cü illər üçün”**

**Milli Fəalliyyət Planının 12.7.3-cü bəndinə əsasən hazırlanmışdır.**

**BAKI - 2023**

# Mündəricat

**İxtisarların siyahısı**......3
**Qısa icmal**......4
**Giriş**......5
1. **Məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi sahəsində əsas prinsip və standartlar**......7
1.1. **Beynəlxalq prinsip və standartlar**......7
1.2. **Milli qanunvericilik**......9
2. **Məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi sahəsində məhkəmə təcrübəsinin mövcud vəziyyəti**......12
2.1. **Məhkəməyəqədər icraat sahəsində mövcud vəziyyət**......12
2.2. **Məhkəmə icraatı sahəsində mövcud vəziyyət**......25
2.3 **Məhkəmə qərarlarının icrası praktikası**......34
3. **Məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi sahəsində məhkəmə təcrübəsinin təkmilləşdirilməsi istiqamətləri.**......37
3.1. **Məhkəməyəqədər icraatla bağlı təkliflər**......37
3.2. **Məhkəmə icraatı ilə bağlı təkliflər**......38
3.3. **Məhkəmə qərarlarının icrası ilə bağlı təkliflər**......40

**İstinadlar**......41

**Əlavələr**......43

## İxtisarların siyahısı

**BMT –** Birləşmiş Millətlər Təşkilatı
**Aİ –** Avropa İttifaqı
**AŞ –** Avropa Şurası
**AŞPA –** Avropa Şurası Parlament Assambleyası
**BMTİP –** BMT İnkişaf Proqramı
**AIHK -** Avropa İnsan Hüquqları Konvensiyası
**AİHM –** Avropa İnan Hüquqları Məhkəməsi
**AQUPDK –** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
**CEDAW -** Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Konvensiya
**EIGE –** Avropa Gender Bərabərliyi İnstitutu
**UN Women -** BMT-nin Qadınlar üzrə Agentliyi
**DSK –** Dövlət Statistika Komitəsi
**MFP –** Milli Fəaliyyət Planı
**CM –** Cinayət Məcəlləsi
**CPM –** Cinayət Prosessual Məcəlləsi
**MPM –** Mülki Prosessual Məcəlləsi
**İXM –** İnzibati Xətalar Məcəlləsi

# QISA İCMAL

Bu təhlilin aparılmasında əsas məqsəd məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi ilə bağlı məhkəmə təcrübəsini qiymətləndirmək, bu sahədə mövcud problemləri müəyyənləşdirmək, səmərəli məhkəmə müdafiəsinin təmin edilməsinə yönəlik təklifləri özündə əks etdirən tövsiyələr hazırlmaqdır.

Təhlil zamanı beynəlxalq və milli qanunvericiliyin gender bərabərliyinin təmin edilməsi və məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi ilə bağlı əsas müddəalarına, Avropa İnsan Hüquqları Məhkəməsinin məişət zorakılığı ilə bağlı işlər üzrə presedentlərinə, yerli icra hakimiyyətlərinin, məhkəmələrin, hüquq mühafizə və icra orqanlarının məişət zorakılığı ilə bağlı işlər üzrə təcrübəsinə, vəkillər, hüquqşünaslar, hüquq mühafizə orqanlarının nümayəndələri və hakimlərlə aparılmış dərinləşmiş müsahibələrin nəticələrinə, Dövlət Statistika Komitəsinin məlumatlarına istinad olunub.

Sənəddə məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi sahəsində məhkəmə təcrübəsinin təkmilləşdirilməsi istiqamətində təkliflər verilib

# GİRİŞ.

Məişət zorakılığı bütün dünyada müxtəlif sosial təbəqələrdən olan milyonlarla insana, xüsusilə qadınlara təsir edən universal bir hadisədir. O, qadınlara qarşı yönəlmiş zorakılığın ən geniş yayılmış forması olmaqla ayrı-seçkilik yaradan sosial normaları, stereotipləri, cəzasızlığı və gender bərabərsizliyini əks etdirir. Məişət zorakılığı əksəriyyəti qadınlardan ibarət olan qurbanların əsas hüquq və azadlıqlardan istifadə etməsinə, onların layiqli həyat sürməsinə mane olur. Məişət zorakılığı inkişaf problemidir və sağlamlıq və müalicə xərclərinin artması, ölüm, intihar, depressiya, məhsuldarlığın azalması, gəlirin itirilməsi, təhsil almaq və ya iş tapmaq qabiliyyətinin aşağı düşməsi, psixoloji sarsıntılar və zədələr, məhkəmə və həbsxana xərcləri, iqtisadi təhlükəsizlik və sui-istifadə, borc, evsizlik kimi arzuolunmaz nəticələrə gətirib çıxarır.[1]

Məişət zorakılığı təkcə qurbanlar üçün deyil, zorakılığı törədənlər üçün də məhrumiyyətlər yaradır və ondan eyni zamanda uşaqlar, ailə və bütövlükdə cəmiyyət ziyan çəkir. Bu səbəbdən də məişət zorakılığının qarşısının alınması, onunla mübarizə beynəlxalq ictimaiyyətin diqqət yetirdiyi əsas məsələlərdən biridir. İndiyədək qəbul edilmiş beynəlxalq sənədlərdə, eləcə də ayrı-ayrı ölkələrin milli qanunvericiliyində məişət zorakılığının qarşısının alınmasına, onunla effektiv mübarizəyə yönəlik normalar öz əksini tapmışdır. Bu normalar içərisində məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsinin, onların ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsini təsbit edən normalar xüsusi yer tutur.

İnsan hüquqlarına dair beynəlxalq hüquq normalarına əsasən, ədalət mühakiməsinə çıxış anlayışı dövlətlərin üzərinə hər bir fərdin hüquqlarının pozulduğu müəyyən edildiyi hallarda hüquqi müdafiəyə nail olmaq üçün məhkəməyə müraciət etmək hüququnu təmin etmək öhdəliyi qoyur. Bu hüquq fərdlərə, o cümlədən məişət zorakılığından zərər çəkmiş şəxslərə həm də digər hüquqlarını həyata keçirməkdə və pozulmuş hüquqlarını bərpa etməkdə kömək edir. Ədalət mühakiməsinə çatım bir sıra əsas insan hüquqlarını, məsələn, AİHK-ın 6-cı maddəsində və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində nəzərdə tutulmuş ədalətli məhkəmə araşdırması hüququnu, habelə AİHK-ın 13-cü maddəsində və Aİ Xartiyasının 47-ci maddəsində nəzərdə tutulmuş səmərəli hüquqi müdafiə vasitələri hüququnu əhatə edir.[2]

Ədalət mühakiməsinə çıxış digər fərdlərlə yanaşı məişət zorakılığından zərər çəkmiş şəxslərə də imkan verir ki, hüquqlarının pozulmasına qarşı özlərini müdafiə etsinlər, mülki hüquq pozuntularının aradan qaldırılmasına, pozuntuya yol vermiş şəxslərin məsuliyyətə cəlb olunmasına nail olsunlar və cinayət prosesində özlərini müdafiə etsinlər. Bu, qanunun aliliyinin mühüm elementidir və mülki, cinayət və inzibati hüquqa bütünlüklə şamil olunur. Ədalət mühakiməsinə çıxış bir proses olmaqla yanaşı, həm də bir hədəfdir və digər hüquqlardan bəhrələnmək istəyən şəxslər üçün mühüm əhəmiyyət daşıyır. Bir sözlə, ədalət mühakiməsinə səmərəli çıxış insan hüquqlarının universal müdafiəsi sistemində təsbit edilmiş əsas hüquqlardan biridir.

BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə komitəsi ədalət mühakiməsinə çıxış

---

[1] Bəzi araşdırmalar göstərir ki, DV ABŞ-da hər il 460 milyard ABŞ dollarına, beynəlxalq miqyasda isə 4,3 trilyon dollara başa gəlir.
https://www.washingtonpost.com/opinions/the-cost-of-domestic-violence-is-astonishing/2018/02/22/f8c9a88a-0cf5-11e88b0d-891602206fb7_story.html?noredirect=on&utm_term=.00059cae58fd;

[2] Ədalət mühakiməsinə çatım üzrə Avropa hüququna dair məlumat kitabı. Fundamental hüquqlar üzrə Avropa İttifaqı Agentliyi (FRA) və Avropa Şurası, 2016 Ədalət mühakiməsinə çatım üzrə Avropa hüququna dair məlumat kitabı. Fundamental hüquqlar üzrə Avropa İttifaqı Agentliyi (FRA) və Avropa Şurası, 2016

imkanları üçün bir-biri ilə əlaqəli altı məsələni qeyd etmişdir ki, bunlar da gender tələblərinə müvafiq ədalət mühakiməsi sisteminin əsasları hesab olunur. Bunlara daxildir: məhkəmə qaydasında müdafiə imkanı; mümkünlük (müvafiq məhkəmə sisteminin mövcudluğu) çıxış imkanı (əlçatımlıq); hesabatlılıq və zərər çəkmiş şəxslər üçün hüquqi müdafiə vasitələri.[3]

Azərbaycan da gender bərabərliyinin, onun reallaşdırılmasının əsas vasitələrindən biri olan ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsinə yönəlik normaları nəzərdə tutan əsas beynəlxalq sənədləri imzalayıb və milli qanunvericiliyin həmin sənədlərdə öz əksini tapmış prinsip və standartlara uyğunlaşdırılması istiqamətində bir sıra addımlar atıb. Qanunvericiliyin təkmilləşdirilməsi ilə yanaşı, məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi sahəsində məhkəmə təcrübəsi də mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, səmərəli müdafiə sisteminin formalaşdırılması "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın əsas istiqamətlərindən biridir.

Məişət zorakılığından zərər çəkmiş şəxslərin səmərəli müdafiəsi sisteminin formalaşdırılması üçün ilk növbədə bu sistemin hərtərəfli qiymətləndirilməsinə, xüsusilə mövcud məhkəmə təcrübəsinin təhlilinə ehtiyac var. Mövcud təcrübənin təhlil edilməsi bu sahədəki hüquqi boşluqları və praktiki maneələri müəyyən etməyə imkan verə bilər. Bu sənəd də belə bir təhlilin nəticələrini və həmin nəticələrə əsaslanmaqla məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi ilə bağlı məhkəmə təcrübəsinin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələri özündə əks etdirir.

Araşdırma zamanı həm beynəlxalq, həm də milli qanunvericiliyin təhlili aparılıb. Təhlil zamanı milli qanunvericiliyin müddəalarının beynəlxalq prinsip və standartlara uyğunluğu konteksti əsas götürülüb.

Araşdırma zamanı Avropa İnsan Hüquqları Məhkəməsinin məişət zorakılığı ilə bağlı işlər üzrə presedentləri də nəzərdən keçirilib və uyğun xarici təcrübəyə istinad olunub.

İndiyədək gender məsələləri və qadınların ədalət mühakiməsinə əlçatanlığı ilə bağlı bir sıra araşdırmaların aparıldığı və sənədlərin hazırlandığı nəzərə alınıb və həmin sənədlərə istinad olunub.[4]

Tədqiqat mövzusu üçün vacib olan statistik məlumatlar (Bax: Əlavə 1.) məhdud olduğundan məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi sahəsində mövcud vəziyyətin düzgün qiymətləndirilməsi üçün bu sahədə çalışan vəkillər, polis və prokurorluq əməkdaşları, hakimlər və müstəqil hüquqşünaslarla dərinləşmiş müsahibələr aparılıb və mülki, inzibati və cinayət işləri üzrə qəbul edilmiş bir neçə məhkəmə aktı (qətnamə, qərar, hökm) təhlil edilib.

[3] Dr Şazia Çoudri. Qadınların ədalət mühakiməsinə çıxişi praktik hüquqşünaslar üçün bələdçi. 16809c8283 (coe.int)

4"Məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəməyə çixiş imkanları: mövcud vəziyyət və onun təkmilləşdirilməsi istiqamətləri" (Bakı, 2021), «Qadınların ədalət mühakiməsinə çıxış imkanlarının təmin edilməsi haqqında hakimlər və prokurorlar üçün təlim vəsaiti» (Müəlliflər: E. Duban və İ Radağiç) və həmin vəsait əsasında tərtib edilmiş "Qadınların ədalət mühakiməsinə çıxişi praktik hüquqşünaslar üçün bələdçi" (Müəllif: Dr Şazia Çoudri) .

# 1. Məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi sahəsində əsas prinsip və standartlar

## 1.1.Beynəlxalq prinsip və standartlar

Məişət zorakılığından zərər çəkmiş şəxslərin səmərəli müdafiəsi onların məhkəməyə bərabər çıxış imkanlarının hansı səviyyədə təmin edilməsindən asılıdır. Məişət zorakılığının qurbanları əsasən qadınlar olduğundan bir çox beynəlxalq sənədlərdə qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsindən bəhs edilir. Həmin sənədlərdə məişət zorakılığından zərər çəkmiş şəxslərin, o cümlədən qadınların ədalət mühakiməsinə çıxışı ilə bağlı əsas prinsip və standartlar və onların əsasını təşkil edən müddəalar təsbit edilib.

BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyası (CEDAW) gender bərabərliyinin təmin edilməsi, qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması və zorakılığın qarşısının alınması kimi mühüm mühüm müddəaların təsbit olunduğu əsas sənəddir. [5] Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın 2-ci maddəsinə əsasən üzv dövlətlərin əsas öhdəlikləri barədə 28 saylı ümumi tövsiyəsinin 16-cı paraqrafında deyilir ki, üzv dövlətlər qadınların qeyri-ayrıseçkilik hüququna hörmət etmək, onu qorumaq və həyata keçirmək, həmçinin qadınların öz mövqelərini yaxşılaşdıraraq kişilərlə hüquqvə faktiki və ya substantiv bərabərliyi həyata keçirmək üçün onların inkişaf və tərəqqisini təmin etmək öhdəliyi daşıyır.[6]

Avropa Şurasının 2018-2023-cü illər üçün gender bərabərliyi strategiyasının altı prioritet istiqamətlərindən biri qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsidir. Qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanları ilə əlaqədar gender bərabərliyi standartları Avropa Şurasının dörd əsas sazişinə əsaslanır:

1. Avropa İnsan Hüquqları Konvensiyası (AİHK) və AİHK-nın 12 saylı Protokolu.

2. Avropa Sosial Xartiyası

3. İnsan alverinə qarşı mübarizə haqqında Konvensiya

4. Qadınlara qarşı zorakılığın qarşısının alınması və onlarla mübarizə haqqında Konvensiya (İstanbul Konvensiyası)

AİHK Avropa Şurasının insan hüquqlarına dair əsas sənədidir. Avropa İnsan Hüquqları Konvensiyası (AİHK) gender baxımdan neytral olsa da, Avropa İnsan Hüquqları Məhkəməsi qadınlara qarşı zorakılıq da daxil olmaqla qadın hüquqları ilə bağlı ədalət mühakiməsinin əsasını təşkil edir. Konvensiya həmçinin, qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarına dair bir neçə əsas prinsipi müəyyən edir. Konvensiyanın 12 saylı Protokolu isə Konvensiyanın 14-cü maddəsində nəzərdə tutulmuş məhdudiyyətləri aradan qaldıraraq cins, irq, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı seçkiliyi qadağan edir.

Avropa Sosial Xartiyası iqtisadi və sosial hüquqlar sahəsində AİHK-nın analoqudur. 1996-cı ildə düzəliş

[5] OHCHR | Convention on the Elimination of All Forms of Discrimination against Women

[6]"Məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəməyə çixiş imkanları: mövcud vəziyyət və onun təkmilləşdirilməsi istiqamətləri". Bakı, 2021.

edilmiş Xartiyada hər hansı bir səbəbə görə, o cümlədən, cinsi ayrı-seçkiliyə yol verilmədən insanların mənzil, sağlamlıq, təhsil, məşğulluq, hüquqi və sosial müdafiəsinə və hərəkətinə dair hüquqlarının təmin olunmasına zəmanət verir. Avropa Sosial Hüquqlar Komitəsi (ASHK) xəbərdarlıq sistemi və kollektiv şikayətlər proseduru vasitəsilə üzv dövlətlərin Nizamnaməyə uyğunluğunun monitorinqini aparır.

İnsan alverinə qarşı mübarizə haqqında Konvensiya cinsi, əmək və digər istismar məqsədləri üçün qadın, kişi və uşaq alverinin qarşısının alınmasına, eləcə də zərər çəkmiş şəxslərin müdafiəsinə və insan alverçilərinin cinayət təqibinə dair hərtərəfli məsələləri əhatə edir. Burada ayrı-seçkiliyin qadağan edilməsi haqqında müddəa və iştirakçı dövlətlər qarşısına Konvensiyanın həyata keçirilməsinə dair tədbirlərin hazırlanmasında, həyata keçirilməsində və qiymətləndirilməsində gender bərabərliyinin təşviq edilməsi və hərtərəfli gender yanaşmasının təmin edilməsi öhdəliyi yer alır (Maddə 3). Konvensiyanın müddəalarının dövlətlər tərəfindən praktikada necə tətbiq edilməsi müstəqil monitorinq mexanizmi vasitəsilə qiymətləndirilir. Bu monitorinq mexanizmi iki mərhələdən ibarətdir: insan alverinə qarşı mübarizə aparan müstəqil Ekspertlər Qrupu (GRETA) və Tərəflər Komitəsi.

Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində standartları və dövlətlərin məcburi öhdəliklərini müəyyən edən ən mühüm sənədlərdən biri Avropa Şurasının 2011-ci il mayın 11-də qəbul etdiyi "Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında" Konvensiyadır (İstanbul Konvensiyası). İnsan hüquqları, gender bərabərliyi və cinayət qanunvericiliyi məsələlərindən ətraflı və hərtərəfli şəkildə bəhs edən İstanbul Konvensiyası qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması üçün çoxtərəfli prinsipləri əks etdirən vahid sənəddir. İstanbul Konvensiyasında iştirakçı dövlətlər tərəfindən qadınlara qarşı zorakılığın və məişət zorakılığının təsirli şəkildə qarşısını almaq üçün tələb olunan minimum standartlar nəzərdə tutulur. Bu sənəddə dövlətlərdən zorakılıqla bağlı dörd istiqamətdə tədbirlərin görülməsi tələb olunur: önləyici tədbirlər (prevention), qurbanları qoruma (protection), cəzalandırma (prosecution) və zorakılığın qarşısının alınması barədə siyasət müəyyən etmə (policy making). Bu 4 aspekt qısaca "4P yanaşması" adlandırılır.[7]

İstanbul Konvensiyası" Avropa Şurasının üzvü olan 34 dövlət tərəfindən ratifikasiya edilib. Digər 11 üzv dövlət bu Konvensiyanı imzalasa da, ratifikasiya etməyib. Avropa Şurasına üzv olan Azərbaycan və Rusiya Federasiyası Konvensiyanı nə imzalayıb, nə də ratifikasiya ediblər. Türkiyə isə Konvensiyanı imzalasa da, sonradan ondan imtina edib.

Konvensiyanın həyata keçirilməsini qiymətləndirmək üçün İstanbul Konvensiyasında iki pilləli monitorinq mexanizmi var: Qadınlara qarşı zorakılıq və məişət zorakılığına qarşı mübarizə üzrə müstəqil ekspertlər qrupu (GREVİO) və Tərəflər Komitəsi. [8]

BMT-nin CEDAW Komitəsi tərəfindən Azərbaycan hökumətinin 5-ci dövri məruzəsi ilə bağlı (2015-2018) ölkəmizə qadınların hüquqlarının təşviqi məqsədi ilə bir neçə mühüm addımların atılması, o cümlədən İstanbul Konvensiyasına qoşulması tövsiyə olunmuşdur.[9]

Məişət zorakılığından zərər çəkmiş şəxslərin səmərəli müdafiəsi sistemində Avropa İnsan Hüquqları Məhkəməsi mühüm yer tutur. Avropa Konvensiyasında məişət zorakılığına konkret istinad olmasa da, Avropa İnsan Hüquqları Məhkəməsi fiziki şəxslər tərəfindən törədilmiş zorakılıq formalarını Konvensiya ilə qorunan

[7] Fakt Yoxla

[8] Dr Şazia Çoudri. Qadınların ədalət mühakiməsinə çıxişıı praktik hüquqşünaslar üçün bələdçi. 16809c8283 (coe.int)

[9] Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Mətbuat üçün açıqlama (scfwca.gov.az)

xüsusi hüquqların pozuntusu kimi tanımaqla qadınların ədalət mühakiməsinə çıxış imkanlarını əhəmiyyətli dərəcədə artırmışdır. Avropa Məhkəməsinin presedent hüququ ədalət mühakiməsinə çıxış imkanlarının təmin edilməsində qadınların maneələrlə üzləşdiyini əks etdirmiş və xüsusi olaraq, qadınlara qarşı zorakılıq halları ilə bağlı işlərdə Məhkəməyə standartları formalaşdırmaq imkanı yaratmışdır.

Avropa məhkəməsi məişət zorakılığı ilə bağlı işlərdə Konvensiyada təsbit olunmuş yaşamaq, işgəncə və qeyri-insani və ya alçaldıcı rəftarın qadağan edilməsi, ədalətli məhkəmə araşdırması, şəxsi və ailə həyatına hörmət, ayrı-seçkiliyin qadağan edilməsi kimi fundamental hüquqların pozuntusunu tanımışdır.[10]

Avropa məhkəməsinin qərarlarının təhlili göstərir ki, Konvensiyanın yaşamaq hüququnu tənzimləyən 2-ci, işgəncə və qeyri-insani və ya alçaldıcı rəftarı qadağan edən 3-cü, ədalətli məhkəmə araşdırması hüququnu təsbit edən 6-cı, şəxsi və ailə həyatına hörmət hüququnu tənzimləyən 8-ci, səmərəli hüquqi müdafiə vasitələrindən istifadə ilə bağlı 13-cü, ayrı-seçkiliyi qadağan edən 14-cü, ər və arvadın bərabər hüquqlarını tənzimləyən 7 saylı protokolun 5-ci, ayrı-seçkiliyə ümumi qadağanı nəzərdə tutan 12 saylı protokolun 1-ci maddələri məişət zorakılığı halları nəticəsində daha çox pozulur.[11] Avropa Məhkəməsi qərar qəbul etdiyi işlərin (Bax: Əlavə 2.) nəticələrinə və məişət zorakılığı qurbanlarının təcrübəsinə əsasən hesab edir ki, məişət zorakılığı hallarının operativ araşdırılması, təkrarlanma risklərinin qiymətləndirilməsi və zorakılığın genişlənməsinin qarşısının alınması dövlətin pozitiv öhdəliklərindən biridir.

## 1.2. Milli qanunvericilik

Azərbaycan Respublikasının Konstitusiyası məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsinin fundamental hüquqi əsaslarını təsbit edir. Konstitusiyaya əsasən, hamı qanun və məhkəmə qarşısında bərabərdir və kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. Dövlət cinsindən və digər mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını cinsi və digər mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. Heç kəsə cinsi və digər mənsubiyyətinə görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz. Hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir (maddə 25). Konstitusiya ilə hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın. Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır (maddə 60). Hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır. Qanunla nəzər-

---

[10] Kontrovà v. Slovakia (2007); Branko Tomašić and Others v. Croatia (2009); Opuz v. Turkey (2009); A v. Croatia (2010); Haiduová v. Slovakia (2010); Kalucza v. Hungary (2012); Eremia and Others v. the Republic of Moldova (2013) ; Mudric v. the Republic of Moldova (2013) ; B. v. the Republic of Moldova (2013); N.A. v. the Republic of Moldova (2013); Valiulienè v. Lithuania (2013); T.M. and C.M. v. the Republic of Moldova (2014); Durmaz v. Turkey (2014); Rumor v. Italy (2014); Civek v. Turkey (2016); Halime Kiliç v. Turkey (2016); M.G v. Turkey (2016); Talpis v. Italy (2017); Balsan v. Romania (2017). TrainingManualAccessJustice_EN.pdf (ohchr.org)

[11] Kontrovà v. Slovakia (2007); Branko Tomašić and Others v. Croatia (2009); Opuz v. Turkey (2009); A v. Croatia (2010); Haiduová v. Slovakia (2010); Kalucza v. Hungary (2012); Eremia and Others v. the Republic of Moldova (2013) ; Mudric v. the Republic of Moldova (2013) ; B. v. the Republic of Moldova (2013); N.A. v. the Republic of Moldova (2013); Valiulienè v. Lithuania (2013); T.M. and C.M. v. the Republic of Moldova (2014); Durmaz v. Turkey (2014); Rumor v. Italy (2014); Civek v. Turkey (2016); Halime Kiliç v. Turkey (2016); M.G v. Turkey (2016); Talpis v. Italy (2017); Balsan v. Romania (2017). TrainingManualAccessJustice_EN.pdf (ohchr.org)

də tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir (Maddə 61).[12]

Məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsinə hüquqi təminat yaradan digər qanunvericilik aktı "Gender (kişi və qadınların) bərabərliynin təminatları haqqında" qanundur.[13] Qanunda "cinsi mənsubiyyətə görə ayrı-seçkilik" anlayışı "seksual qısnama, cinsi əlamətə görə hüquqların bərabər həyata keçirilməsini məhdudlaşdıran və ya inkar edən istənilən fərq, istisna və ya üstünlük" kimi müəyyən edilir.

"Məişət zorakılığının qarşısının alınması haqqında" 22 iyun 2010-cu il tarixli qanun gender bərabərliyinin təmin edilməsi, qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması, məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət mühakiməsinə səmərəli çıxış imkanlarının təmin edilməsi ilə bağlı mühüm müddəaları özündə əks etdirir. [14] Qanun yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir.

Ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsi baxımından bərabərlik prinsipinin müəyyənedici rolu var. Bu prinsip digər qanunvericilik aktlarında – Cinayət Məcəlləsində (maddə 6)[15] , İnzibati Xətalar Məcəlləsində (maddə 7)[16] , Ailə Məcəlləsində (maddə 2) [17], Cinayət Prosessual Məcəlləsində (maddə 11)[18] və digər qanunvericilik aktlarında da təsbit olunub.

Qeyd olunan qanunvericilik aktları məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəmələrə çıxış imkanları üçün əsas hüquqi bazanı təşkil edir. Lakin dövlətin bu istiqamətdə iradəsini, onun məişət zorakılığı sahəsində mövcud problemlərin həllinə yönəlik siyasətini əks etdirən əsas sənəd beynəlxalq konvensiyalardan irəli gələn prinsip və standartların da nəzərə alındığı "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"dır.[19]

Fəaliyyət Planında məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi məsələsi xüsusi yer tutur. Planın 7-ci bəndi "Məişət zorakılığından zərər çəkmiş şəxslərin səmərəli müdafiəsi sisteminin formalaşdırılması" adlanır. Bu istiqamət üzrə həyata keçirilməsi planlaşdırılan tədbirlər içərisində məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəməyə çıxış imkanlarının təkmilləşdirilməsi ön planda durur.

Məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəmə müdafiəsinin əsasını təşkil edən qeyd etdiyimiz maddi hüquq normaların tətbiqi zəruri prosessual normaların mövcudluğunu tələb edir. Prosessual qanunve-

---

[12] Azərbaycan Respublikasının Konstitusiyası. Maddə 25, 60, 61.
00 Azərbaycan Respublikasının Konstitusiyası (e-qanun.az)

[13] http://e-qanun.az/framework/12424

[14] http://e-qanun.az/framework/20131

[15] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (e-qanun.az)

[16] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (e-qanun.az)

[17] Azərbaycan Respublikasının Ailə Məcəlləsi (e-qanun.az)

[18] Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi (e-qanun.az)

[19]https://static.president.az/media/W1siZiIsIjIwMjAvMTEvMjcvNmM3YmI0ajUzMF9NX0xMX0ZfQUxfWVlfVF9QTEFOSS5wZGYiXV0?sha=5bfc481fe85dbbe7

ricilik də bərabərlik və ayrıseçkiliyə yol verilməməsi kimi mühüm prinsipləri təsbit etməklə zorakılıq qurbanlarının hüquqlarının təmin edilməsinin hüquqi mexanizmi kimi mühüm funksiyanı yerinə yetirir.

Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində zərər çəkmiş şəxslərin məhkəmə müdafiəsinə təminat verən cinayət prosesinin hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında həyata keçirilməsi, cinayət prosesini həyata keçirən orqanların cinayət prosesində iştirak edən şəxslərdən hər hansı birinə cinsi və digər mənsubiyyətinə görə üstünlük verməməsi (maddə 11), cinayətin əlamətləri olan əməldən zərər çəkmiş şəxsin cinayət təqibinin başlanılmasını tələb etməyə, onun həyata keçirilməsində zərər çəkmiş şəxs qismində iştirak etməyə, habelə vurulmuş mənəvi, fiziki və maddi ziyana görə kompensasiya almağa hüququ olması (maddə 12), cinayət təqibi gedişində insanın şərəf və ləyaqətini alçaldan, təhqir edən, habelə cinayət prosesində iştirak edən şəxslərin həyatı və səhhəti üçün təhlükə törədə biləcək qərarların qəbul edilməsi və ya hərəkətlərə yol verilməsinin qadağan olunması (maddə 13), cinayət təqibi gedişində heç kəsin şəxsi (özünün və ailəsinin) həyatın sirrinin, yazışma, telefon danışıqları, poçt-teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatların və başqa məlumatların sirrinin saxlanılması hüququnun məhdudlaşdırılmasına yol verilməməsi (maddə 16), cinayət təqibi gedişində təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmənin zərər çəkmiş şəxslərin keyfiyyətli hüquqi yardım almaq hüququnu təmin etmək üçün tədbirlər görməli olması (maddə 19) və s. kimi mühüm prinsipləri nəzərdə tutan normalar öz əksini tapmışdır.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsində də məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəmə müdafiəsinə təminat verən mühüm normalar təsbit edilmişdir. Bunların sırasında bütün şəxslərin özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malik olması (maddə 4), mülki işlər və kommersiya mübahisələri üzrə ədalət mühakiməsinin hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi əsasında həyata keçirilməsi, məhkəmənin cinsindən və başqa mənsubiyyətindən asılı olmayaraq işdə iştirak edən bütün şəxslərə eyni cür yanaşması (maddə 8), ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilməsi (maddə 9), məhkəmə baxışında iştirak edən şəxsin şəxsi və ailə həyatının intim məsələlərinin qorunması məqsədi ilə məhkəmə baxışını qapalı keçirməyi tələb edə bilməsi (maddə 10), işdə iştirak edən şəxslərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, onların maraqlarının təmsil olunması və prosessual hüquqlarının həyata keçirilməsi üçün pulsuz (dövlət hesabına) peşəkar hüquqi yardım almaq hüququna malik olması (maddə 14.5) və s. kimi prinsiplərin və prosessual yanaşmaların əks olunduğu normaları xüsusi qeyd etmək olar.

Bənzər yanaşmalar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi üçün də xarakterikdir. Məcəllədə izibati xəta törətmiş şəxslərin cinsi mənsubiyyətindən və digər hallardan asılı olmayaraq qanun qarşısında bərabər olmaları (maddə 7), inzibati xəta törətmiş şəxs haqqında tətbiq edilən tənbehin ədalətli olması, yəni inzibati xətaların xarakterinə, onun törədilməsi hallarına və inzibati xətanı törətməkdə təqsirli bilinənin şəxsiyyətinə uyğun olması (maddə 9), inzibati xəta haqqında iş üzrə məlumatların yalnız icraatında inzibati xəta haqqında iş olan hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin), belə məlumatlar zərər çəkmiş şəxsin şəxsi maraqlarına toxunduqda isə, habelə zərər çəkmiş şəxsin icazəsi ilə və onların mümkün hesab etdiyi həcmdə elan oluna bilməsi (maddə 51) və s. prinsiplər təsbit olunmuşdur.

Göründüyü kimi, milli qanunvericilikdə məişət zorakılığından zərərçəkmiş şəxslərin müdafiəsinə təminat verən həm maddi, həm də prosessual hüquq normaları mövcuddur. Hüquqi bazanın təkmilləşdirilməsi zərurətini vurğulamaqla yanaşı, mövcud hüquq normalarının düzgün tətbiqinin məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsinin təmin edilməsində daha mühüm əhəmiyyət kəsb etdiyini qeyd etmək lazımdır. Növbəti hissədə hüquq tətbiqetmə praktikasında buna necə əməl edildiyi barədə daha ətraflı bəhs ediləcək

# 2. Məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi sahəsində məhkəmə təcrübəsinin mövcud vəziyyəti

## 2.1. Məhkəməyəqədər icraat sahəsində mövcud vəziyyət

**Qısamüddətli mühafizə orderi.** Mövcud qanunvericlik yerli icra hakimiyyəti orqanlarına məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi ilə bağlı geniş səlahiyyət verir. Lakin mövcud təcrübənin təhlili onu göstərir ki, bu qurumların məişət zorakılığı ilə mübarizə, xüsusilə də məişət zorakılığından zərər çəkmiş şəxsə qarşı zorakılığa son qoyulması və onun növbəti zorakılıq hadisələrindən müdafiəsi məqsədilə tətbiq edilən mühafizə orderlərinin verilməsi sahəsindəki fəaliyyətində kifayət qədər ciddi problemlər var.

Məişət zorakılığından zərər çəkmiş şəxslərin yerli icra hakimiyyəti orqanları tərəfindən müdafiəsi ilə bağlı problem ilk növbədə qanunvericilikdən qaynaqlanır. Belə ki, “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunun 6.2-ci maddəsi dövlət və yerli özünüidarə orqanlarının vəzifəli şəxslərinin, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların, qəyyumluq və himayə orqanlarının, təhsil və tibb müəssisələrinin, yardım mərkəzlərinin üzərinə xidməti vəzifələrinin həyata keçirilməsi zamanı məişət zorakılığının törədilməsi barədə aldığı şikayətləri yerli icra hakimiyyəti orqanlarına təqdim etmək vəzifəsi qoyur.[20] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 fevral tarixli 46 nömrəli qərarı ilə təsdiq edilmiş “Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası”nın 1.2-ci bəndinə əsasən, məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, həmin şikayətə məişət zorakılığından zərər çəkmiş şəxsin yaşadığı (olduğu) yerin icra hakimiyyəti orqanı tərəfindən baxılır. [21] Nazirlər Kabineti tərəfindən təsdiq olunan yuxarıda qeyd etdiyimiz Qaydanın 1.6-cı bəndidə deyilir ki, məişət zorakılığı ilə bağlı daxil olmuş şikayətdə törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat olduqda, həmin şikayət aidiyyəti üzrə cinayət təqibini həyata keçirən orqana göndərilir.

Göründüyü kimi, məişət zorakılığı ilə bağlı ilkin araşdırma aparmaq səlahiyyətinə malik qurumlardan biri yerli icra hakimiyyətidir və qanun bu quruma məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətlərinin olub-olmamasını müəyyənləşdirmək səlahiyyəti verir. Halbuki belə bir səlahiyyətə təhqiqat və istintaq orqanları malik ola bilər. Bu mənada “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunun 7.0.8-ci maddəsi daha anlaşılandır. Həmin maddə ilə məişət zorakılığı ilə bağlı şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada baxıldıqda, cinayət təqibi ilə yanaşı görülməli tədbirlərdən biri kimi “məişət zorakılığı ilə bağlı şikayətin araşdırılması nəticəsində cinayət işinin başlanması üçün əsaslar müəyyən olunmadığı halda həmin şikayəti aidiyyəti üzrə müvafiq icra hakimiyyəti orqanına göndərmək” nəzərdə tutulur.

Qanunvericiliyin qeyd etdiyimiz yanaşması təcrübədə ona gətirib çıxarır ki, bir sıra ciddi məişət zorakılığı halları adi ailə münaqişəsi səviyyəsində nəzərdən keçirilir, zorakılıqdan zərər çəkmiş şəxslərin müdafiəsi və onların təkrar zorakılıq qurbanına çevrilməsinin qarşısının alınması istiqamətində zəruri addımlar atılmır. “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunun 6.3-cü maddəsinin məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayətin yalnız zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olduqda araşdırıla bilməsi tələbi zorakılıq qurbanlarının müdafiəsi imkanlarını bir qədər də çətinləşdirir. Məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi sahəsində ixtisaslaşan vəkillərin və ekspertlərin rəyləri, eləcə də zorakılıq qurbanlarına verilən qısamüddətli mühafizə orderlərinin ölkə üzrə statistikası da bunu deməyə əsas verir (Bax: Əlavə 3).

Araşdırmalar göstərir ki, yerli icra hakimiyyətləri bir çox hallarda qısamüddətli mühafizə orderlərinin

[20] https://e-qanun.az/framework/20131

[21] https://e-qanun.az/framework/23241

verilməsi üçün müəyyən olunmuş müddətlərə əməl etmirlər. Halbuki “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunun 11.2-ci maddəsinə əsasən, müvafiq icra hakimiyyəti orqanı müraciət edilən vaxtdan 24 saat keçənədək zorakılığı törədən şəxsə xəbərdarlıq edir və dərhal zərər çəkmiş şəxsə 30 gün müddətinədək qısamüddətli mühafizə orderi verir. Qanunvericiliyin bu tələbinə əməl edilməməsi məişət zorakılığından zərər çəkmiş şəxsin təkrar, daha ağır fiziki, psixoloji, cinsi zorakılığa məruz qalmasına gətirib çıxarır. Dərinləşmiş müsahibəyə cəlb olunmuş vəkillərin əksəriyyəti mühafizə orderlərinin verilməsi müddətləri ilə bağlı qanunvericiliyin tələblərinə əməl olunmadığını bildiriblər.

Mühafizə orderləri qanunla müəyyən edilmiş müddətdə verilmir. Məsələn, mənim icraatımda olmuş bir işdən nümunə gətirə bilərəm. Qaynı tərəfindən zorakılığa məruz qalan qıza (şərti adı G.V.) mühafizə orderinin verilməsi ilə bağlı 2020-ci ilin dekabr ayında müraciət etdik. Xeyli müddət keçməsinə baxmayaraq mühafizə orderi verilmədi. DİN-ə müraciət etdikdən sonra nəhayət 2022-ci ilin əvvəlində G.V.-yə mühafizə orderi verildi.

**Rövşanə Rəhimli,**
**Vəkil**

“Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunun qəbulundan 11 ildən artıq müddət keçib. Mühafizə orderləri ilə bağlı vəziyyət hələ də acınacaqlıdır. Qısamüddətli mühafizə orderləri 24 saata verilməli olduğu halda aylarla verilmir. Məhkəmələr 3 günlük müddətə əməl edirlər. Lakin uzunmüddətli order almaq üçün əvvəlcə qısamüddətli almalısan. İcra hakimiyyətləri isə bununla bağlı məsuliyyətlərinin ciddiliyinə varmırlar. Bir də ona görə vəziyyət pisdir ki, mühafizə orderinin nəzərdə tutduğu tədbirlər yetərsizdir. Məsələn, uzaqlaşdırma tələbi yoxdur, orderdə əsasən zorakılıq törədən şəxsin hansısa hərəkətləri etməməsi ilə bağlı tədbirlər nəzərdə tutulur.

**Sevinc Əliyeva,**
**Vəkil**

Mövcud təcrübənin təhlili onu göstərir ki, verilən bütün mühafizə orderlərinin məzmunu eynidir və əsasən ümumi ifadələrdən ibarətdir. Halbuki işin konkret hallarından (məsələn, zərərçəkmiş şəxslə zorakılıq törədənin qohumluq münasibətindən), zorakılığın növü və xarakterindən və onu törədən şəxsin şəxsiyyətini səciyyələndirən xüsusiyyətlərdən asılı olaraq zorakılıq törədən şəxsə qadağan edilən hərəkətlərin dairəsi fərqlənə bilər.

Təcrübədə tətbiq olunan qısamüddətli mühafizə orderindən götürülmüş qadağan edilən hərəkətlərin dairəsi

QISA MÜDDƏTLİ MÜHAFİZƏ ORDERİNDƏN ÇIXARIŞ

“Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən, məişət zorakılığını törətmiş N.A.Ə oğluna məişət zorakılığına məruz qalmış N.Z.Ş. qızına qarşı aşağıdakı hərəkətlərin edilməsi

QADAĞAN EDİLİR:

1. Məişət zəminində fiziki zorakılıq – zor tətbiq etməklə məişət zorakılığına məquz qalmış şəxsin təhlükəsizliyinin pozulması, döyülməsi, sağlamlığına zərər vurulması, işgəncə verilməsi, azdlıq hüququnun məhdudlaşdırılması.

2. Məişət zəminində psixi zorakılıq qəsdən məişət zorakılığına məruz qalmış şəxsə psixi təzyiq göstərilməsi və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlər.

ahinə seksual xarakterli hərəkətlərə məcbur edilməsi.

4. Məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi – məişət zorskılığına məruz qalmış şəxsin mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlər.

Təhlil çərçivəsində müsahibəyə cəlb edilmiş ekspertlər mühafizə orderlərinin yerli icra hakimiyyətləri tərəfindən verilməsi praktikasının özünü doğrultmadığını, bu səlahiyyətin onlardan alınaraq hüquq mühafizə orqanlarına verilməsinin daha məqsədəuyğun olduğunu bildiriblər.

**Təhqiqat və istintaq**. Məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi sahəsində mühüm rola malik təsisatlardan biri təhqiqat və istintaq orqanlarıdır. Məhz həmin qurumlar tərəfindən əmələ ilkin hüquqi qiymət verilir. Təhqiqat və istintaq orqanları məişət zorakılığı barədə məlumat aldıqda və ya məişət zorakılığını bilavasitə aşkar etdikdə cinayətin izlərinin qorunması və götürülməsi üçün tədbirlər görməli, həmçinin öz səlahiyyətləri daxilində dərhal təhqiqat və ya istintaq aparmalıdırlar. Araşdırma nəticəsində cinayətin baş verməsi təsdiq olunarsa, dövlət ittihamçısı təqsirləndirilən şəxsi məhkəmə qarşısında ifşa və ona layiqli cəza tələb etməli, zəruri hallarda isə şəxsin barəsində digər (tibbi və ya tərbiyəvi xarakterli) məcburi tədbirlərin tətbiq edilməsini tələb etməlidir.

Məişət zorakılığı hallarını araşdırarkən təhqiqat və istintaq orqanları məişət zorakılığı cinayətlərinin spesifikliyini nəzərə almalı və həssas yanaşma nümayiş etdirməlidirlər. Mövcud təcrübənin təhlili göstərir ki, bu zərurət təhqiqat və istintaq orqanları tərəfindən bir çox hallarda düzgün qiymətləndirilmir. Bunu şərtləndirən bir sıra səbəblər mövcuddur.

Təhqiqat və istintaq orqanlarında çalışan **qadın təhqiqatçıların və müstəntiqlərin sayı azdır.** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyindən verilən məlumata görə, hazırda daxili işlər orqanlarında 3714 qadın xidmət edir. Onlardan 4-ü müstəntiq, 5-i təhqiqatçı vəzifəsində işləyir. Şəhər, rayon polis orqanlarında rəis və rəis müavini vəzifəsini tutan qadın əməkdaş yoxdur. [22] Bu amil bir tərəfdən məişət zorakılığına məruz qalmış qadınların zorakılıqdan şikayət etmələri üçün əlverişli mühitin yaranmasını əngəlləyir, digər tərəfdən məişət zorakılığı ilə bağlı şikayətlərin araşdırılması zamanı xüsusi həssas yanaşmanın tətbiqi imkanlarını çətinləşdirir.

Mövcud təcrübənin təhlili göstərir ki, məişət zorakılığının, xüsusilə cinsi zorakılığın qurbanları onlara qarşı baş vermiş cinsi zorakılıq hallarının kişi təhqiqatçı və müstəntiqlərlə müzakirə etməkdən, zorakılığın mühüm detalları barədə ətraflı məlumat verməkdən çəkinirlər. Təhqiqat və istintaq orqanları əməkdaşları üçün gender aspektini nəzərdə tutan vacib yanaşma ondan ibarətdir ki, onlar zərər çəkmiş şəxslə görüş zamanı onun həyəcan və narahatlıqlarının nədən ibarət olduğunu bilsinlər və zərər çəkmiş şəxsin təkrar qurbana çevrilməsinə yol verməsinlər. Əgər zərərçəkmiş şəxsin həyəcan və narahatlıqları hərtərəfli araşdırma aparmaq imkanlarını məhdudlaşdıracaq səviyyədədirsə, o zaman təhqiqat və ya istintaq aparan şəxsin qadın əməkdaşla

[22] Məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəməyə çıxış imkanları: mövcud vəziyyət və onun təkmilləşdirilməsi imkanları. AQUPDK, Bakı, 2021

əvəzlənməsi üçün zəruri addımlar atılmalıdır.

Təhqiqatçı və müstəntiqlərin kişilərdən ibarət olması zorakılıq qurbanlarında narahatlıq yaradır. Bir sıra hallarda zorakılıq qurbanları baş verənlər barədə danışmaqdan çəkinir və öz fikirlərini çatdıra bilmirlər. Daha yaxşı olardı ki, polis orqanlarında da təhqiqatçı və müstəntiq vəzifəsinə seçim cinsi ayrıseçkilik olmadan müsabiqə əsasında aparılsın. Belə olan halda qadın təhqiqatçıların və müstəntiqlərin sayını artırmaq mümkündür.

**Fariz Namazlı,**
**Vəkil**

Bizdə qadının polisə və məhkəməyə getməsinə yaxşı baxılmır. Üstəlik, təhqiqat və istintaq aparan şəxsin kişi olması qadınları bir qədər də çəkindirir. Mən DİN-in saytında elana rast gəldim. Elanda yazılmışdı ki, vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə yalnız kişilər qəbul edilir (https://mia.gov.az/az/vacancies/view/3). Digər bir elanda isə yazılmışdı ki, kiçik heyətə (operatorlar) qadınlar qəbul edilir (https://mia.gov.az/az/vacancies/view/2). Müsabiqə əsasında işə qəbulla bağlı elanda da eyni məhdudiyyətə rast gəlmək olar. Belə ki, polis sahə rəisi vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə şərtlərində də göstərilir ki, müsabiqədə kişi cinsli vətəndaşlar iştirak edə bilərlər (https://mia.gov.az/az/vacancies/view/6). Bu səbəbdən də təhqiqatçı və müstəntiqlərin böyük əksəriyyəti, sahə müvəkkillərinin isə hamısı kişilərdən ibarətdir. Bu isə məişət zorakılığı ilə bağlı işlərdə həssas yanaşmanın tətbiqini çətinləşdirir.

.

**Vəfa Rüstəm,**
**Hüquqşünas**

İbtidai araşdırmanı həyata keçirən şəxslərin kişilərdən ibarət olması məişət zorakılığı qurbanlarını prosesdə sərbəst iştirak etməkdən çəkindirir. Hətta onlar vəkillərinin qadın olmasına üstünlük verirlər. Belə olanda özlərini daha rahat hiss edirlər. Hüquqlarını müdafiə etdiyim qadınlar istintaq orqanına gedəndə ilk verdikləri suallardan biri izahat verəcəkləri şəxsin kişi və ya qadın olması ilə bağlı olur. Zorakılığa məruz qalmış şəxslər istintaq orqanına vəkilsiz getdikdə stereotipli davranışla rastlaşırlar deyə, növbəti dəfə qadın vəkillə birgə getməyə çalışırlar. Bu səbəbdən də ixtisaslaşmış qadın təhqiqatçı və müstəntiqlərin sayı artırılmalıdır.

**Rövşanə Rəhimli,**
**Vəkil**

Məişət zorakılığı ilə bağlı işlər üzrə zərər çəkmiş şəxslərin hüquqlarının səmərəli müdafiəsi **təhqiqat və istintaq aparan əməkdaşların hazırlıq səviyyəsindən** də asılıdır. Təhqiqatçılar, müstəntiqlər, prokurorlar insan hüquqlarının standartları, gender bərabərliyi, uyğun beynəlxalq konvensiyaların və milli qanunvericiliyin tələbləri barədə ətraflı məlumatlı olmalı, məişət zorakılığı cinayətlərinin digər cinayətlərdən nə ilə fərqləndiyini, zorakılıq qurbanlarının spesifik ehtiyaclarının nədən ibarət olmasını bilməlidirlər.

Mövcud təcrübənin təhlili göstərir ki, cinayət təqibini həyata keçirən şəxslər bir sıra hallarda məişət zorakılığı cinayətlərinə nəinki məişət zəminində baş verən adi cinayət kimi yanaşır, hətta bəzi hallarda baş vermiş zorakılığı "ailədaxili münaqişə" kimi qiymətləndirərək zorakılıq qurbanlarını zorakılığın səbəbkarı kimi qınamaqdan belə çəkinmirlər.

Məişət zorakılığı ilə bağlı işlər üzrə təhqiqat və istintaq təcrübəli əməkdaşlara həvalə edilir. Bu sahədə təhqiqat və istintaq aparan əməkdaşların hazırlıq səviyyəsi yüksəkdir. Onlar insan hüquqlarının standartlarına riayət edirlər. İş üzrə tam və hərtərəfli istintaqın aparılması məqsədilə istintaqa prosessual nəzarəti həyata keçirən prokuror polislə konstruktiv şəkildə iş aparır və sübutetmə üçün düzgün araşdırma üsullarından istifadə barədə polisə təlimat verir

Belə ki, konstruktiv şəkildə olan əməkdaşlıq iş üzrə bütün halların araşdırılmasına kömək edir.

**Azərbaycan Respublikası Baş Prokurorluğunun mövqeyi**

Təhqiqat və istintaq orqanlarının heç də bütün əməkdaşlarının məişət zorakılığı ilə bağlı işlər üzrə hazırlıq səviyyəsi yetərli deyil. Mənim icraatımda olan bir işdən nümunə gətirmək istəyirəm. Gənc qız mütəmadi olaraq yaxın qohumu tərəfindən cinsi zorakılığa məruz qalırdı. Baş verənlərdən anası da məlumatlı idi. Qız intihara cəhd etmişdi. Təhqiqat orqanının əməkdaşı intihara cəhdin əsl səbəblərini araşdırmaq əvəzinə, gənc qızın intihara cəhdini imtahanqabağı stres keçirməsi ilə izah etmişdi. Bizim prokurorluğa müraciətimizdən sonra işə daha həssas yanaşıldı və ekspert rəyi ilə zorlama faktı öz təsdiqini tapdı və təqsirli şəxs həbs olundu.

**Rövşanə Rəhimli,**
**Vəkil**

Məişət zorakılığı ilə bağlı işlər üzrə təhqiqat və istintaq aparanların hamısı Polis Akademiyasını bitirmiş və ali təhsilli hüquqşünaslardır. Onlar prokurorluq orqanlarına bilavasitə tabedirlər və təbii ki, işi (toplanmış materialları) aidiyyatı prokurora, rayon prokuroruna məruzə edirlər. Bundan sonra, əgər kifayət qədər əsaslar varsa prokurorun razılığı əsasında cinayət işi qaldırılır və digər prosessual hərəkətlər həyata keçirilir. Bunun üçün heç bir əsas yoxdursa, cinayət işinin başlanmaının rədd olunması haqqında qərar qəbul edilir.

**Daxili İşlər Nazirliyinin mövqeyi**

Təhqiqatçılar və müstəntiqlər əsasən tərəfləri barışdırmağa üstünlük verirlər. Bir sıra hallarda zorakılığın gələcəkdə təkrarlanma riski nəzərə alınmır. Bu da onunla bağlıdır ki, məişət zorakılığı ilə bağlı işlərə sıradan işlər kimi baxılır, bu işlərin spesifikliyi nəzərə alınmır. Bəzi hallarda baş vermiş hadisəyə “ailənin daxili məsələsi” kimi baxılır və zorakılığa məruz qalmış şəxslər ailədaxili münaqişəni böyütməkdə günahlandırılaraq barışığaa təşviq edilir. Təhqiqatçıların və müstəntiqlərin, eləcə də prokurorların məişət zorakılığı işləri üzrə xüsusi hazırlığının olmasına ehtiyac var.

**Fariz Namazlı**
**Vəkil**

Daxili İşlər Nazirliyinin “Törədilmiş və ya hazırlanan cinayətlər və hadisələr barədə məlumatların qəbulu, qeydiyyatı və baxılması qaydaları haqqında Təlimatın təsdiq olunması barədə” 03 noyabr 2011-ci il tarixli Qərarı var. Həmin qərarla təsdiq edilmiş təlimatın 3.1-ci bəndinə əsasən, cinayətlər barədə məlumatlar növbətçi hissənin əməkdaşları tərəfindən «Törədilmiş və ya hazırlanan cinayətlər barədə məlumatların qeydiyyatı» kitabında, yəni 1 nömrəli kitabda qeydə alınır. Hadisələr barədə məlumatlar isə «Hadisələr barədə rabitə və digər texniki vasitələrlə daxil olan məlumatların qeydiyyatı» kitabında, yəni 2 nömrəli kitabda qeydə alınır. Məişət zorakılığı ilə bağlı müraciətlər, bir qayda olaraq, 2 nömrəli kitaba daxil edilir. Bu, məişət zorakılığı ilə bağlı müraciətlərin 1-ci kitabda qeyd olunan məlumatlarla müqayisədə daha ləng araşdırılmasına səbəb olur.

Zorakılıq halları illərlə davam etsə də, baş vermiş son zorakılıq halı qeydə alınır və araşdırılır. Məsələn,

zorakılığa məruz qalan bir qadın döyülmə nəticəsində uşağımı itirdiyini desə də, ona bildirilmişdi ki, bu hadisə əvvəllər baş verib, o məsələlərə qayıtmayaq, indi son hadisə araşdırılır. Bu onu göstərir ki, məişət zorakılığına dair işlər üzrə təhqiqat aparan şəxslərin hazırlıq səviyyəsi yetərli deyil.

**Vəfa Rüstəm**
**Hüquqşünas**

Məişət zorakılığı ilə bağlı işlər üzrə təhqiqat və istintaqın gedişində polis və prokurorluq arasında sıx əməkdaşlığın olması vacibdir. Prokurorluq ibtidai istintaqa prosessual nəzarəti həyata keçirən zaman təhqiqat və istintaq orqanları tərəfindən bütün mümkün **sübutların toplanmasının** təmin edilməsinə çalışmalıdır. Prokurorlar ona da xüsusi diqqət yetirməlidirlər ki, polis əməkdaşlarının mülahizələri, mifləri və gender stereotipləri araşdırmaya və sübutların toplanmasına təsir etməsin.[23] Sübutlar cinayət-prosessual qanunvericiliyinin tələblərinə əməl edilməklə insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları məhdudlaşdırılmadan və ya məhkəmənin qərarı əsasında məhdudlaşdırmaqla əldə olunmalı, hadisənin cinayət hadisəsi olub-olmamasını, törədilmiş əməldə cinayətin əlamətlərinin olub-olmamasını, bu əməlin təqsirləndirilən şəxs tərəfindən törədilib-törədilməməsini, onun təqsirli olub-olmamasını, habelə ittihamın düzgün həll edilməsi üçün əhəmiyyət kəsb edən digər halları müəyyən etmək üçün kifayət etməlidir.

Mövcud təcrübənin təhlili göstərir ki, sübut toplama ilə bağlı qanunvericiliyin tələblərinə ümumən əməl olunur, lakin bir çox hallarda məişət zorakılığı cinayətlərinin spesifikliyi nəzərə alınmır və nəticədə çox ciddi prosessual pozuntulara da rast gəlinir.

Digər cinayətlərdə olduğu kimi məişət zorakılığı cinayətlərində də sübutların toplanması tam qanunauyğun həyata keçirilir, ekspertiza təyin olunur və ekspertizadan (ekspertiza DİN-ə tabe deyil, ƏN-nin tabeliyində olan qurumdur) rəsmi cavab alınır və nəticəsinə (həmin xəsarətlər hansı dövrə aiddir, hansı şəkildə yetirilib və s.) uyğun sübutlar toplanılır. Eyni zamanda şahid ifadələri və s. əsasında əmələ yekun qiymət verilir.

**Daxili İşlər Nazirliyinin mövqeyi**

Bir sıra hallarda sübut toplama prosesinin qanunauyğunluğuna əməl olunmur. Bu qənaətim üçün təcrübədən misal gətirə bilərəm. Qadın deyir ki, ərim məni döyüb. Qadını ekspertizaya göndərirlər və bununla kifayətlənirlər. Evə baxış keçirilmir, qonşuları dindirilmir, sahə müvəkkilindən məlumat toplanmır, komendant dindirilmir və s. Polis ancaq bunları edir: qadından izahat alır və onu ekspertyizaya göndərir. Polis üçün əsas ekspertizanın rəyidir. Ekspertiza rəyi gələnə qədər qadın yenidən evdə ərin, qaynananın və digərlərinin təzyiqinə məruz qalır və şikayətini geri götürür.

**Zibeydə Sadıqova,**
**Vəkil**

Təhqiqat və istintaq orqanları daha çox ekspertiza rəyinə əsaslanırlar. Alternativ ekspertizanın olmaması (xüsusi ittiham qaydasında işlər istisna olmaqla) tərəfləri qeyri-bərabər vəziyyətə qoyur. Ekspertiza rəyi

[23] Примеры неправомерного влияния стереотипов на ведущих расследование по делу о насилии в отношении женщин служащих правоохранительных органов приводятся в описании дел Исату Джаллоу против Болгарии, сообщение № 32/2011, документ ООН: CEDAW/C/52/D/32/2011 (2012), пункт 8.6 (КЛДОЖ); Гонсалес и др. против Мексики (дело «Хлопковое поле»), решение суда от 16 ноября 2009 года (предварительные возражения, рассмотрение существа дела, компенсация и расходы), пункты 400—401 (Межамериканский суд по правам человека).

ilə yanaşı, digər sübutlar da toplanmalıdır ki, əmələ düzgün hüquqi qiymət verilsin. Yəni sübutlar elə bir həcmdə toplanmalıdır ki, onlar baş vermiş məişət zorakılığı hadisəsi ilə bağlı mötəbər və yekun nəticəyə gəlməyə imkan versin. Bir sıra hallarda bu vacib tələb nəzərə alınmır.

**Fariz Namazlı,**
**Vəkil**

Məişət zorakılığı ilə bağlı işlər üzrə istintaq və subut toplama prosesinin qanunauyğunluğu təmin olunur, bu sahədə qanunvericiliyin tələbləri diqqətdə saxlanılır, qanunvericiliyə edilən dəyişikliklər öyrənilir. Sübut toplama prosesində əsas problem şahidlərin azlığı, zərərçəkmiş şəxsin istintaqın sonrakı gedişində ifadəsini dəyişməsidir.

**Azərbaycan Respublikası Baş**
**Prokurorluğunun mövqeyi**

Sübut toplamada problemlər var. Məsələn, iştirak etdiyim bir işdən nümunə gətirim. Qaynı tərəfindən zorakılığa məruz qalmış qadın xəsarətlə bağlı tibbi ekspertizaya göndərilməmişdi. Qadına demişdilər ki, ekspertiza pulludur. Sonradan ekspertizaya gec göndərildiyindən xəsarətlər müəyyənləşdirilməmişdi. Biz DİN-ə müraciət edəndən sonra zorakılıq qurbanına mühafizə orderi verildi. Order üçün 2020-ci ilin dekabrında müraciət etdik, ikinci dəfə müraciət etdikdən sonra 2022-ci ilin əvvəllərində verildi. Şəxs inzibati qaydada həbs olundu. Qadın 13 il idi ki davamlı şikayət edirdi. Biz müdaxilə edəndən, nazirə müraciət edəndən sonra tədbir görüldü.

Başqa bir misal: prokurorluqda seksual zorakılığa məruz qalmış azyaşlı dindirilirdi, bizi buraxmadılar, psixoloq cəlb olunmamışdı, yalnız anası və vəkili yanındı idi.

**Vəfa Rüstəm,**
**Hüquqşünas**

Cinsi zorakılıqla bağlı işlərdə sübutetmə ilə bağlı problemlər var. Məsələn, cinsi zorakılıqla bağlı işlərə xas bir problemli qeyd edim. Bu tip işlərdə zor tətbiq edilməsi və ya fiziki mübarizənin olması kimi sübut formaları əsas götürülür. Bunlar cinsi zorakılıq həqiqətən də razılaşdırılmamış olduqda qadının müqavimət göstərəcəyi kimi yanlış fikri əks etdirir. Halbuki cinsi zorakılıq yalnız fiziki güc tətbiq etmə ilə deyil, psixoloji təzyiq vasitəsilə də həyata keçirilə bilər.

**Rövşanə Rəhimli,**
**Vəkil**

Sübutetmədə bəzi problemlər var. Məsələn, zərərçəkmişin vaxtında gedib şikayət etməməsi ilə bağlı sübutların yetərli olmamaması halı yaranır. Mənim çıxdığım bir işdə qız qonşu tərəfindən zorlanmışdı, amma qız utanıb deməmişdi. Sonradan zorakılıq davam etmişdi, qonşusu qızın cinsiyyət orqanına kənar əşya ilə müdaxilə etmişdi, orada qanaxma baş vermişdi. Bundan sonra hadisənin üstü açıldı, cinayət işi başlandı. Birinci dəfə zorlamaya görə də iş başlanmışdı, amma sonradan zorlamanı çıxardılar ki, bəs üstündən xeyli vaxt keçdiyindən, vaxtında şikayət etmədiyindən bakirəliyin götürülməsi, zorlamanın olması, yəni zorla olub-olmaması sübut edilmir. Halbuki absurddur. Qızın yaş fərqi, onun psixoloji durumu diqqətə alınaraq araşdırılmalı idi ki, o, sevdiyi oğlan olmadığı halda necə könüllü gedib, çünki zorakılıq edən atası yaşda bir kişi olub. Əvvəl cinayət işi qaldırılanda zorlama maddəsi də var idi. Sonra onu çıxardılar və on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə (maddə 152) ilə tövsif etdilər ki, zorlama sübut olunmur.

**Sevinc Əliyeva,**
**Vəkil**

Mövcud təcrübənin təhlili çərçivəsində məişət zorakılığı işləri üzrə proseslərdə iştirak edən vəkillərlə müsahibələrdən çıxan əsas nəticələrdən biri ondan ibarətdir ki, ibtidai araşdırmanı həyata keçirən təhqiqatçı və müstəntiqlərin bir çoxu **gender stereotiplərindən** çəkinə bilmirlər. Təhqiqatçı və müstəntiqlərin bir çoxu məişət zorakılığı ilə bağlı işlərin digər zorakılıq hadisələrindən nə ilə fərqləndiyini, məişət zorakılığının xarakteri, onun zərər çəkmiş şəxslərə, onların övladlarına və ailələrinə olan təsirlərini bilmirlər.

Məişət zorakılığı ilə bağlı işlər üzrə təhqiqat və istintaq orqanları gender stereotiplərindən çəkinə bilirlər. Zorakılıq halı barədə məlumatların gec verilməsi zərər çəkmiş şəxsin iddiasının həqiqiliyini şübhə altına almamaqla birlikdə, məlumatın gec verilməsinin səbəbləri araşdırma predmetini təşkil edir. Zərər çəkmiş şəxsin əvvəlki cinsi davranışından asılı olmayaraq hər bir müraciətə fərdi yanaşma tətbiq edilməklə, faktın əsaslılığı bütün hallarda yoxlanılır.

**Azərbaycan Respublikası Baş**
**Prokurorluğunun mövqeyi**

Məişət zorakılığı işlərində zərərçəkmiş şəxslərə tutulan iradlardan biri onların zorakılıq halı barədə gec müraciət etməsi ilə bağlıdır. Belə stereotip yanaşma cinsi zorakılıqla bağlı işlərdə özünü daha qabarıq göstərir. Zərərçəkmişin gec müraciət etməsi onun izahatının həqiqiliyini şübhə altına qoyur. Zərər çəkmiş şəxsin əvvəlki cinsi davranışına əsaslanan etibarlılıq problemi var. Bu problem qadınların ismətli, əxlaqlı olduğu təqdirdə ona daha çox inanmaq kimi stereotipi özündə əks etdirir. Birgə çalışdığım sosial işçilərdən birinin şahidi olduğu hadisədə polis zorakılığa məruz qalmış qadının şikayətinə cavab olaraq ona inanmdığını bildirmişdir.

Bəzi hallarda müdafiə tərəfi də stereotiplərdən çəkinə bilmir. Məsələn, prokurorluqda istintaqı aparılan bir iş üzrə müdafiə tərəfi zərər çəkmiş şəxsin lesbiyan olmasını sübut olaraq təqdim etməyə çalışırdı.

**Vəfa Rüstəm,**
**Hüquqşünas**w

Məişət zorakılığı işlərində təhqiqatçı və müstəntiqlərin stereotipli yanaşmalarına çox rast gəlinir. Tərəfləri barışığa sövq edən zaman "ailədaxili münaqişəni şişirtməmək", "ailə və uşaqlar naminə dözümlü olmaq", "hər kiçik məsələdən ötrü şikayət etmənin düzgün olmaması" və s. kimi tövsiyə xarakterli arqumentlərin irəli sürülməsi stereotiplərə əsaslanan yanaşmanı əks etdirir.

Bir sıra hallarda müdafiə tərəfini təmsil edən vəkillər də stereotiplərə əsaslanan yanaşma nümayiş etdirirlər. Məsələn, S.Q.-nin işində təqsirləndirilən şəxsin vəkili zərər çəkmiş şəxsin cinsi zorakılığa məruz qalmasını belə bir arqumentlə şübhə altına almağa çalışıb: əgər S.Q. avqustun 25-də cinsi zorakılığa məruz qalmışdısa o, sentyabrın 9-da keçirilən etiraz aksiyasında necə iştirak edə bilərdi?

**Zibeydə Sadıqova,**
**Vəkil**

Təhqiqatçılar və müstəntiqlər stereotiplərdən tam azad ola bilməyiblər. "Sən qadınsan, qadın dözməlidir" ifadəsindən daha çox, "ailə qadının üzrərində qurulur" və "qadın ailəni qorumalıdır", "qadın ailəyə, uşaqlara görə daha dözümlü olmalıdır, ailə dağılmasın deyə hüquq mühafizə orqanlarına müraciət etməməlidir, edibsə geri götürməlidir" kimi stereotipləri görmüşəm. O stereotiplərdən başqa, bir də görürsən ki, məişət zorakılığını daha az əhəmiyyətli zorakılıq hesab edirlər, nəticədə zorakılıq davam edir və hətta ölümlə nəticələnir. Mən polislərə təlim keçirdim, bir polisdən "yaxşı at özünə qamçı vurdurmaz" ifadəsini eşitdim.

**Sevinc Əliyeva,**
**Vəkil**

Vətəndaş müraciət edir ki, mən altı ay bundan əvvəl döyülmüşəm. Onun döyülməsini sübuta yetirmək üçün ekspertiza təyin olunur. Aydındır ki, altı aydan sonra onda xəsarətin heç bir dərəcəsi aşkar olunmayacaq. Ona görə də onun döyülməsini sübuta yetirib istintaqa cəlb etmək mümkün olmayacaq. Amma bütün hallarda münaqişə mövcuddursa, onunla bağlı istintaq çərçivəsində deyil, artıq sahə müvəkkilləri çərçivəsində profilaktiki tədbirlər həyata keçiriləcək. Müddət ötdüyünə görə onun sübuta yetirilməsi mümkün deyil. Barəsində şikayət olunan şəxsə qarşı şikayətçini vurmusan, əzmisən, qırmısan ittihamını irəli sürmək, onu cinayət məsuliyyətinə cəlb etmək mümkün olmayacaq, çünki qırıq və sınıq olmayacaq, hər hansı iz qalmayacaq. Amma digər zorakılıq halları ilə, məsələn, hədə-qorxu ilə bağlı araşdırmalar, təbii ki, aparılır, yəni vizual müşahidəsinə ehtiyac olmayan zorakılıq halları ilə bağlı araşdırmalar həyata keçirilir.

Zorakılığa məruz qalmış şəxsin necə həyat tərzi (məsələn, yüngül həyat tərzi) keçirməsinin də heç bir fərqi yoxdur. Polis bölmələrinə gecə klublarından da şikayət daxil olur, müraciət edənin şəxsiyyəti bizim üçün önəmli deyil. Əgər cinayət faktı varsa, şikayətçinin şəxsiyyətindən asılı olmayaraq, dərhal araşdırılması təmin olunur.

**Daxili İşlər Nazirliyinin mövqeyi**

Təhqiqatçı və müstəntiqlər məişət zorakılığının spesifikası, onun digər cinayətlərdən necə fərqləndiyi barədə ümumən məlumatsızdırlar, lakin məişət zorakılığı ilə bağlı təlimlərdən keçənlər məlumatlıdırlar və onlar məişət zorakılığının mənfi təsirlərini qiymətləndirməyi bacarırlar.

**Rövşanə Rəhimli,**
**Vəkil**

Məişət zorakılığı ilə bağlı işlər üzrə cinayət araşdırmasının bütün mərhələlərində **zərər çəkmiş şəxslərin hüquqlarının qorunması, ləyaqətinə hörmət edilməsi və onların növbəti dəfə qurbana çevrilmək vəziyyətindən mühafizə olunması** vacibdir. İstanbul Konvensiyası zərər çəkmiş şəxslərin, eyni zamanda şahidlərin hüquqlarını, maraqlarını və xüsusi ehtiyaclarını istintaqın bütün mərhələlərində müdafiə etməyin vacibliyini aydın şəkildə qeyd edir (Maddə 56). Mövcud vəziyyətin təhlili onu deməyə əsas verir ki, bu mühüm tələbə bir sıra hallarda riayət olunmur.

Məişət zorakılığı cinayətlərinin spesifikliyi tələb edir ki, istintaq araşdırması və sübut toplama mərhələlərində iş üzrə düzgün və ədalətli qərar üçün təhlükə yarada biləcək hər hansı gecikməyə yol verilməsin. Bu baxımdan məişət zorakılığı ilə bağlı işlərdə sürətləndirilmiş prosesdən istifadə mühüm əhəmiyyət kəsb edir. Azərbaycan qanunvericiliyində məişət zorakılığı cinayətləri ayrıca nəzərdə tutulmadığından “sürətləndirilmiş proses” və ya “sürətli təqib”anlayışı da yoxdur.

Məişət zorakılığı ilə bağlı işlər üzrə istintaq araşdırması və sübut toplama mərhələlərində iş üzrə qərar üçün təhlükə yarada biləcək hər hansı gecikməyə yol verilmir. Belə ki, gecikmə hallarına yol verilməsi sübutetmədə problemlər yaradır.

Məişət zorakılığı ilə bağlı işlər üzrə cinayət araşdırmasının bütün mərhələlərində zərərçəkmiş şəxslərin/şahidlərin hüquqlarını və ləyaqətini qorumaq və onların növbəti dəfə qurbana çevrilmək vəziyyətindən mühafizəsini təmin etmək üçün zəruri tədbirlər, o cümlədən onların hüquqları və mövcud xidmətlər haqqında məlumatların verilməsi, zorakılığa məruz qalmaları barədə vaxtında məlumat vermələri və bu zaman təh-

lükəsizlikləri təmin olunur.

**Azərbaycan Respublikası Baş Prokurorluğunun mövqeyi**

Məişət zorakılığından zərər çəkmiş şəxsin hüquqlarının cinayət araşdırmasının bütün mərhələlərdə istisnasız olaraq qorunduğunu demək mümkün deyil. Məsələn, qaynı tərəfindən zorakılığa məruz qalan qadının işi üzrə təcrübədən bir nümunə bunu deməyə əsas verir. Həmin işdə zərər çəkmiş qadın maşında ona qarşı zorakılıq törədən qaynı ilə birgə aparılmışdı və qadın yolboyu qaynının təhqir və təhdidlərinə məruz qalmışdı.

**Vəfa Rüstəm,**
**Hüquqşünas**

Məişət zorakılığından zərər çəkmiş şəxs ilə təqsirləndirilən şəxs arasında təmasın qarşısının alınması istiqamətində heç də bütün hallarda zəruri addımlar atılmır. Zərər çəkmiş şəxslə zorakılıq törədən şəxs ayrı-ayrılıqda dindirilsələr də onların dindirilmə üçün eyni vaxt aralığında çağırılması hallarına rast gəlirik. Əslində belə bir təhlükə mövcuddursa, zərər çəkmiş şəxslərə təqsirləndirilən şəxsin potensial təhlükəsi haqqında məlumat verilməli, onların təkrar qurbana çevrilməsi riski nəzərə alınmalıdır.

**Zibeydə Sadıqova,**
**Vəkil**

Əgər təhqiqat və istintaq dövründə zərər çəkmiş şəxsə gələcəkdə hər hansı təhlükənin, xoşagəlməz halların baş verməsi ehtimalı müşahidə olunarsa, yerli icra hakimiyyətinə mühafizə orderi ilə bağlı vəsatət verilir və vətəndaşa bu yönümdə hüquqları izah olunur. Əgər, məsələn, evə getdiyi təqdirdə real hər hansı təhlükə ehtimalı mövcuddursa, zərər çəkmiş şəxsin qadın sığınacaqlarına yerləşdirilməsi də təmin olunur.

**Daxili İşlər Nazirliyinin mövqeyi**

Müsahibəyə cəlb olunmuş ekspertlər mövcud təcrübəyə istinad edərək bildirirlər ki, məişət zorakılığından zərər çəkmiş və ya zorakılığın şahidi olmuş **uşağın dindirilməsi** zamanı qanunvericiliklə müəyyən edilmiş formal tələblərə əməl olunur. Lakin zorakılığın şahidi olan uşaqların əsas narahatlıqlarının və ehtiyaclarının müəyyənləşdirilməsi, onların zorakılığın hər hansı formasına məruz qalıb-qalmamasının dəqiqləşdirilməsinə yönəlik xüsusi yanaşma tətbiq edilmir.

Təhqiqat və istintaq orqanları uşaqların təcavüzkar tərəfindən birbaşa fiziki zərərə məruz qalmadıqlarını, zərər çəkmiş olmadıqlarını və ya gələcəkdə zorakılığa məruz qalmayacaqlarını müəyyənləşdirmək üçün bütün zəruri addımları atmalıdırlar. Azərbaycan Respublikası Baş Prokurorluğundan verilən məlumata görə, **azyaşlılara** münasibətdə onların hüquqlarının qorunmasına yönəlik bir sıra tədbirlər görülür. Baş Prokurorluğun məlumatına əsasən, ibtidai istintaq orqanları tərəfindən istintaq dövründə və ya cinayət xarakterli məlumat əsasında aparılan araşdırma zamanı azyaşlıların həyat və sağlamlığı üçün təhlükə yarandığı hallarda bu barədə tədbir görülməsi üçün müvafiq materiallar Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinə göndərilir. Qeyd edilən məlumatlar əsasında aparılmış araşdırmalar üzrə 2021-ci il ərzində idarə tərəfindən valideynlik vəzifələrini yerinə yetirməyən, tüfeyli həyat tərzi keçirən, həmçinin zərərli vərdişləri ilə əlaqədar himayələrində olan azyaşlı uşaqlarının həyatlarını təhlükəyə atan valideynlərə qarşı valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı iddialar qaldırılmışdır. Ümumilikdə 19 uşağın 15 valideyni barəsində 12 mülki iddia qaldırılmışdır. Qeyd edilən iddialar müxtəlif qurumların müraciətləri əsasında idarədə aparılmış araşdırmaya əsasən qaldırılmışdır. Belə ki, qeyd edilən mülki iddialar müxtəlif rayonların icra hakimiyyətlərindən

daxil olmuş 6 müraciət, azyaşlıların hüquqlarının müdafiəsini həyata keçirən qeyri-hökumət təşkilatlarından daxil olmuş 3 müraciət və rayon prokurorluqlarında istintaq olunan cinayət işləri üzrə idarəyə göndərilmiş 3 iş üzrə məlumat əsasında qaldırılmışdır. 3 iş üzrə iddiaya səbəb valideynlərin azyaşlı uşaqlarına qarşı törətdikləri cinayət xarakterli zorakılıq hərəkətləri olmuşdur, bir sıra hallarda onların barəsində istintaq orqanlarının vəsatəti əsasında həbs qətimkan tədbiri seçilmişdir. Əsasən qeyd edilən mülki iddiaların qaldırılma səbəbini valideynlərin tüfeyli həyat tərzi keçirməsi nəticəsində azyaşlıların həyatının təhlükə altına düşməsi təşkil etmişdir. Ümumilikdə 8 iş üzrə mülki iddia valideynlərin tüfeyli həyat tərzi keçirməsii səbəbindən qaldırılmışdır. 1 iş üzrə 4 uşağın valideyni barəsində iddianın qaldırılmasının səbəbi isə ağır həyat şəraiti ilə əlaqədar uşaqların antisanitariya şəraitində yaşaması olmuşdur

Mövcud təcrübənin təhlili göstərir ki, Baş Prokurorluq tərəfindən görülən tədbirlər əhəmiyyətli olsa da **məişət zorakılığına məruz qalmış uşaqlarla** bağlı bütün halları əhatə etmir. Məişət zorakılığının qarşısının alınmasına məsul olan bütün qurumlardan zorakılıq qurbanı və ya zorakılığın şahidi olmuş uşaqların müəyyən olunması və onların müdafiəsi üçün daha həssas yanaşma tələb olunur. Bu məqsədlə multidissiplinar yanaşmanın tətbiqi vacibdir, çünki yalnız hərtərəfli yanaşma uşağın zəruri ehtiyaclarını müəyyənləşdirməyə, onun məruz qaldığı mənfi təsirləri aradan qaldırmağa imkan yarada bilər.

Məişət zorakılığı ilə bağlı işlərdə zərər çəkmiş şəxslərlə həssas iş aparılması xüsusi əhəmiyyət kəsb edir. İbtidai araşdırmanı həyata keçirən əməkdaşlar zərər çəkmiş şəxsi hadisə barəsində lazımsız və təkrarlanan sorğu-sualdan qorumaq məqsədilə zərər çəkmiş şəxsin istintaq materialalrında aydın və hərtərəfli ifadəsinin olduğunu təmin etməlidirlər. Mövcud təcrübənin təhlili göstərir ki, təhqiqatçı və müstəntiqlər heç də bütün hallarda məişət zorakılığından zərər çəkmiş şəxslərə münasibətdə həssas yanaşma nümayiş etdirmirlər.

Cinayət prosessual qanunvericiliyin tələbinə görə, ibtidai araşdırmanın aparılması zamanı müstəntiq cinayətin törədilməsinə imkan yaradan halları (səbəb və şəraiti) müəyyən etməli və onların aradan qaldırılması üçün tədbirlər görülməsi barədə təqdimat göndərməlidir. Təcrübədə belə təqdimatlara çox nadir hallarda rast gəlinir.

Digər işlərdə olduğu kimi, məişət zorakılığı işlərində də zərər çəkmiş şəxsin hərtərəfli ifadəsi alınır, o, diqqətlə dinlənilir. Zərər çəkmiş şəxs hər hansı fikrini özü sərbəst izah edə bilmədikdə, hansısa bir nüansı yaddan çıxadıqda, prosessual hərəkəti həyata keçirən şəxs, yəni müstəntiq və ya təhqiqatçı əlavə suallar qoyub dindirməni həyata keçirir.

**Daxili İşlər Nazirliyinin mövqeyi**

Məişət zorakılığı ilə bağlı işlərdə zərər çəkmiş şəxslərlə həssas iş aparılmır. Məsələn, S.Q.-nin işində o, iki il ərzində azı 20 dəfə ifadə verib. İfadələrin hamısı eyni olsa da, ona dəfələrlə eyni, intim məsələlərlə bağlı suallar verilib. Bu hal digər işlərdə də müşahidə olunur.

Müstəntiqin cinayətin törədilməsinə imkan yaradan halları (səbəb və şəraiti) müəyyən etməsi və onların aradan qaldırılması üçün tədbirlər görülməsi barədə təqdimat verməsinə təcrübədə bir dəfə rast gəlmişəm. H.R.-nin işində belə bir hal olub. Müstəntiq yerli icra nümayəndəliyinə təqdimat göndərmişdi ki, ailəyə basqıların qarşısını almaq üçün camaatla profilaktik söhbət aparsın.

**Zibeydə Sadıqova,**
**Vəkil**

CPM-in 221-ci maddəsinə əsasən, ibtidai araşdırmanın aparılması zamanı müstəntiq cinayətin törədilməsinə imkan yaradan halları (səbəb və şəraiti) müəyyən etməlidir. Bu halları müəyyən etdikdə müstəntiq zərurət olduqda müvafiq hüquqi və ya vəzifəli şəxsin ünvanına cinayətin törədilməsinə şərait yaradan

halların aradan qaldırılması üçün tədbirlər görülməsi barədə təqdimat göndərir. Cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması üçün tədbirlər görülməsi haqqında müstəntiqin təqdimatına baxılması məcburidir, nəticəsi barədə bir ay müddətində müstəntiqə yazılı məlumat verilməlidir. Təcrübədə də nəinki məişət zorakılığı, bütün cinayət işləri üzrə qanunun bu müddəasının tələblərigözlənilir.

**Azərbaycan Respublikası Baş Prokurorluğunun mövqeyi**

Mən təhqiqatçı və müstəntiqlər tərəfindən məişət zorakılığından zərər çəkmiş şəxslərə münasibətdə açıq-aydın kobudluq, ələ salma, bezdirmə və bu kimi hallara rast gəlməmişəm, amma həssas yanaşma da yoxdur.

**Sevinc Əliyeva,**
**Vəkil**

Təhqiqatçı və müstəntiqlərin heç də hamısı məişət zorakılığından zərər çəkmiş şəxslərə həssas yanşmırlar. Bir sıra hallarda zorakılıq qurbanlarının spesifik ehtiyaclarının öyrənilməsinə, onların əsas narahatlıqlarının nədən ibarət olmasının aşkara çıxarılmasına və buna uyğun prosessual addımların atılmasına lazımi təşəbbüs göstərilmir.

**Rövşanə Rəhimli,**
**Vəkil**

Məişət zorakılığı ilə bağlı işlər üzrə risk **qiymətləndirilməsinin aparılması,** ibtidai araşdırmanı aparan şəxslərin (təhqiqatçılar, müstəntiqlər, prokurorların) zorakılığa məruz qalmış şəxslərlə onların və digər ailə üzvlərinin təhlükəsizliyinə dair planları müzakirə etməsi vacib əhəmiyyət daşıyır. Mövcud təcrübənin təhlili göstərir ki, risk qiymətləndirilməsi aparılmır. Qiymətləndirmənin aparılması ona görə əhəmiyyətlidir ki, onun nəticələrindən asılı olaraq məişət zorakılığından zərər çəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan tədbirləri planlaşdırmaq mümkün olsun. İstintaq orqanları zərər çəkmiş şəxsin/şahidin mühafizə orderi üçün müraciət etmək fikrini soruşmalı və proses boyunca onun təhlükəsizliyini təmin etmək üçün ata biləcəyi addımları nəzərdən keçirirməlidir.

Eyni zamanda risk qiymətləndirməsinin nəticələrindən asılı olaraq, polis və prokurorluq işçiləri zərər çəkmiş şəxsləri mövcud sosial xidmətlərə və yardımçı təşkilatlara istiqamətləndirməlidirlər. Bunun üçün polis və prokurorluq işçiləri ilk növbədə özləri müvafiq xidmətlər və təşkilatlar barədə məlumatlı olmalıdırlar. Mövcud təcrübənin təhlili isə onu deməyə əsas verir ki, onlar zorakılıq qurbanlarını əksər hallarda qadın sığınacaqlarına yönəldirlər, digər xidmətlər barədə isə ya məlumatsızdırlar, ya da həmin xidmətlərin əhəmiyyətini düzgün qiymətləndirmirlər.

Məişət zorakılığı ilə bağlı işlər üzrə ibtidai araşdırmanı aparan şəxslər (təhqiqatçılar, müstəntiqlər) zorakılığa məruz qalmış şəxslərlə onların və digər ailə üzvlərinin təhlükəsizliyinə dair planlar haqqında müzakirələr aparırlar. Təbii ki, zorakılığa məruz qalmış şəxslər təlimatlandırılır, onlara əlaqə nömrələri verilir və izah olunur ki, məsələn, əgər elə bir təhlükə ehtimalı görsəniz, dərhal bizə məlumat verin və ya hər hansı bağlı otağa keçin, qapını bağlayın, 102 xidmətinə zəng edin. Bu sahədə digər təlimatlandırılmalar da aparılır.

**Daxili İşlər Nazirliyinin mövqeyi**

Təhqiqat və istintaq orqanları tərəfindən məişət zorakılığı ilə bağlı işlər üzrə hər hansı risk qiymətləndirilməsi aparılmır. Zərər çəkmiş şəxslərlə nəinki təhlükəsizlik tədbirləri barədə müzakirələr aparılmır, əksər hallarda zərər çəkmiş şəxslərin mühafizə orderi üçün müraciət etmək barədə fikri belə soruşulmur.

**Zibeydə Sadıqova,**
**Vəkil**

Məişət zorakılığı ilə bağlı işlər üzrə ibtidai araşdırmanı aparan şəxslər (təhqiqatçılar, müstəntiqlər, prokurorlar) zorakılığa məruz qalmış şəxslərlə onların və digər ailə üzvlərinin təhlükəsizliyinə dair planlar haqqında müzakirələr aparırlar, çünki yalnız bu halda zərərçəkmiş şəxslər iş üzrə obyektiv ifadələr verirlər, bununla da iş üzrə tam, hərtərəfli və obyektiv istintaqın aparılması təmin edilir.

Məişət zorakılığı ilə bağlı işlər üzrə zorakılığa məruz qalmış şəxslərlə onların və digər ailə üzvlərinin təhlükəsizliyi ilə bağlı tədbirlər olduğu təqdirdə bu barədə müvafiq qərarların çıxarılması və ya polis orqanlarına məlumatların göndərilməsi yolu ilə profilaktik tədbirlər görülür.

**Azərbaycan Respublikası Baş**
**Prokurorluğunun mövqeyi**

Polis tərəfindən risk qiymətləndirilməsi aparılmır. Zərərçəkmişi “ailə münaqişəsidir” deyib barışdırmağa sövq edirlər. Təcrübə göstərir ki, barışığa təşviq etmə bir sıra hallarda zərərçəkmişin öldürülməsinə qədər ağır nəticələrə səbəb olur. Bu səbəbdən də İstanbul Konvensiyası barışığa təşviqin əleyhinədir.

**Sevinc Əliyeva,**
**Vəkil**

Məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquqlarının müdafiəsində ən vacib məsələlərdən biri onların müraciətləri əsasında qəbul edilmiş qərarların əsaslandırılmış olmasıdır. Bu, istər cinayət işinin başlanmasının rədd olunması, istərsə də cinayət işinə xitam verilməsi barədə qərarlara, eləcə də ibtidai araşdırma prosesində zərər çəkmiş şəxslər tərəfindən verilmiş vəsatətlərlə bağlı qəbul edilmiş qərarlara münasibətdə mühüm əhəmiyyət daşıyır. Mövcud təcrübənin təhlili göstərir ki, bəzi hallarda buna riayət olunsa da, bir sıra hallarda qəbul edilmiş qərarlar kifayət qədər əsaslandırılmır.

Məişət zorakılığı ilə bağlı ibtidai araşdırma zamanı qəbul edilmiş qərarların əsaslandırılmasında problemlər var. Bəzi hallarda ya əsaslandırma yoxdur, ya da əsaslandırma yetərli deyil. Bu qənaətin təsdiqi kimi S.Ə.-nin işinə nəzər salaq.

S.Ə. aralarındakı nikah pozulduqdan sonra keçmiş əri tərəfindən zorakılığa (döyülür, zorlanır və s.) məruz qalır. S.Ə. dəfələrlə polisə şikayət edir, lakin şikayəti araşdırılmır. Sonra əri polisə şikayət edərək bildirir ki, S.Ə.-nin şikayətini araşdıran polislə S.X. arasında sevgi münasibətləri ucbatından ailəsi dağılıb. Bu şikayət yüksək səviyyədə nəzarətə götürülür və S.Ə. dəfələrlə çağırılır və onun şəxsi məlumatları alınır. Qısa müddətdən sonra S.Ə.-nin ərinə məktub göndərlir və məktubda qeyd olunur ki, şikayətiniz öz təsdiqini tapdı. Həmin məktub S.X.-nin keçmiş əri tərəfindən onun (S.Ə.-nin) qohumlarına, rayon icra hakimiyyətinə göndərir. Nəticə isə ondan ibarət olur ki, S.Ə. təkrar qurbana çevrilmək təhlükəsi ilə üzləşir.

**Zibeydə Sadıqova,**
**Vəkil**

Məişət zorakılığı ilə bağlı işlər üzrə qərarlar bir çox hallarda əsaslandırılmır. Mühafizə orderlərinin verilməsindən imtina ilə bağlı qərarlara da bunu şamil etmək olar. Bu həm də onun nəticəsidir ki, məişət zorakılığına münasibət stereotiplərə əsaslanır. Mühüm səbəblərdən biri də peşəkarlıqla bağlıdır.

**Fariz Namazlı,**
**Vəkil**

Bu məsələ bir qədər fərdi yanaşma tələb edir. Demək olmaz ki, bütün qərarlar əsaslandırılmış olur, ya əksinə. Təhqiqat və istintaq orqanları tərəfindən qəbul edilən elə qərarlar var ki, yaxşı əsaslandırılmış olur. Bir sıra hallarda isə əsaslandırılmamış qərarlar qəbul edilir. Bu, həm də qərar qəbul edənin hazırlıq səviyyəsindən asılıdır.

**Sevinc Əliyeva,**
**Vəkil**

Mövcud təcrübənin təhlilinin nəticələri göstərir ki, vəkillə təmin olunmuş məişət zorakılığından zərər çəkmiş şəxslərə **cinayət işinin materialları ilə tanış olmaq** üçün şərait yaradılır. Zərər çəkmiş şəxs vəkillə təmsil olunmursa tanışlıq təşəbbüsü müstəntiqdən və ya onun özündən gəlməlidir. Hər bir halda zərər çəkmiş şəxsin cinayət işinin materialları ilə tanış olmasının subyektiv mülahizələrlə qarşısının alınması kimi problemə rast gəlinmir.

Polis və prokurorluq orqanlarının binalarında **müvafiq təhlükəsizlik vasitələrindən istifadə** olunur. Lakin həmin vasitələrin zorakılıq qurbanının təhlükəsizliyini tam təmin edə biləcək səviyyədə istifadə olunduğunu demək çətindir. 2021-ci il sentyabr ayının 30-da polis əməkdaşının ondan şikayət edən öz həyat yoldaşını polis şöbəsində xidməti silahdan açdığı atəşlə qətlə yetirməsi[24] onu göstərir ki, mövcud təhlükəsizlik vasitələrindən yetərincə istifadə olunmur.

## 2.2. Məhkəmə icraatı sahəsində mövcud vəziyyət

Polis və prokurorluq orqanlarında çalışan qadın təhqiqatçı və müstəntiqlərlə müqayisədə hakim qadınların hakimlərin ümumi sayına nisbətdə faiz göstəricisi yüksəkdir. Əgər qadın təhqiqatçı və müstəntiqlər üzrə bu göstərici 1%-dən də aşağıdırsa, qadın hakimlər üzrə 14% təşkil edir. [25] Bu rəqəm müqayisədə çox görünsə də hakimlərin ümumi sayına münasibətdə aşağıdır. Mövcud təcrübənin təhlili göstərir ki, **məhkəmə iclasları zamanı prosesi həyata keçirən şəxslərin (prokuror, hakim, katib) yalnız kişilərdən ibarət olması** bir sıra hallarda məişət zorakılığı qurbanlarında narahatlıq əlamətləri yaradır. Bu, hakimlərin məişət zorakılığı ilə bağlı işlər üzrə hazırlıq səviyyəsinin aşağı olduğu hallarda özünü daha qabarıq göstərir. Hakimlər məhkəmə araşdırmasının bütün mərhələlərində məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquqlarını qorumaq və onların növbəti dəfə qurbana çevrilməsinin qarşısını almaq üçün bütün zəruri tədbirləri görməlidirlər. İxtisaslaşmış məhkəmələrin yaradılması bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

[24] https://report.az/hadise/azerbaycanda-polis-sobede-heyat-yoldasini-xidmeti-silahdan-ates-acaraq-oldurub/

[25] https://meclis.gov.az/documents/Aile-qadin-hesabat-2019.pdf

Məhkəmə prosesini həyata keçirən şəxslərin yalnız kişilərdən ibarət olması məişət zorakılığı qurbanı üçün ciddi narahatlıqlar yaradır. H.B.-nin işi üzrə Bərdə Rayon Məhkəməsində keçirilən prosesdə bunu açıq-aşkar müşahidə etmək mümkün idi. 15 yaşlı H.B. qonşusu olan 28 yaşlı Y.B. ilə könüllü cinsi əlaqədə olmuşdu Cinayət Məcəlləsinin 152.1-ci maddəsi). Bu iş üzrə hakim, prokuror, katib, təqsirləndirilən şəxsin vəkili, məhkəmə nəzarətçisi kişilərdən ibarət idi. Yalnız zərərçəkmiş, onun anası və mən qadın idik. Hakim qıza necə cinsi əlaqədə olması, təbii yolla, yoxsa qeyri-təbii yolla, neçə dəfə və s. suallar verirdi. Mən etiraz edirdim ki, zərərçəkmiş şəxs məhkəmədə iştirak etmək istəmir. Hakim isə tələb edirdi ki, zərərçəkmiş şəxs mütləq iştirak etməlidir. Zərərçəkmiş şəxs çaşaraq hadisənin 2019-cu ildə baş verdiyini dedi, hadisə isə 2020-ci ildə baş vermişdi. Bərdə rayon Məhkəməsi buna əsaslanaraq təqsirləndirilən şəxsə bəraət verdi. 2020-ci ildə olanlara isə heç bir qiymət vermədi.

**Zibeydə Sadıqova,**
**Vəkil**

Hesab etmirəm ki, hakimlərin daha çox kişilərdən ibarət olması məişət zorakılığından zərər çəkmiş şəxslər üçün ciddi problem yaradır. Əsas problem stereotiplərə əsaslanan davranışla bağlıdır. Əgər kişi müstəntiq və ya hakim qanunvericiliyin tələblərinə uyğun davranırsa, öz vəzifələrini məsuliyyətlə icra edirsə, onun kişi və ya qadın olmasının heç bir əhəmiyyəti yoxdur. Bəlkə də hakimin kişi olması əksinə, mental olaraq zorakılıq qurbanı olan qadının özünü daha güclü hiss etməsinə gətirib çıxara bilər. Lakin burda ən vacib məsələ hakimin hazırlıq səviyyəsi, zorakılıq qurbanına həssas yanaşması, məişət zorakılığı ilə bağlı işlərin spesifikliyini nəzərə ala bilməsidir.

**Sevinc Əliyeva,**
**Vəkil**

Hakimin qadın və ya kişi olmasının fərqi yoxdur. Mən hansısa zərərçəkmiş qadının məhkəmə prosesində utanması, nədənsə çəkinməsinə rast gəlməmişəm. Əgər zərərçəkmiş şəxs qadındırsa və o, ibtidai istintaqda iştirak edibsə onun üçün məhkəmədə proses iştirakçılarının kişi və ya qadın olması hər hansı problem yaratmır. Digər tərəfdən, əgər hakimlərin əsaən kişilərdən ibarət olması hansısa narahatlıq yaradırsa, artıq bu problem də həll olunmaqdadır, belə ki, son dövrlər yeni təyin olunan hakimləri xeyli hissəsini qadınlar təşkil edir.

**Hüseyn Səfərov,**
**Yasamal Rayon Məhkəməsinin hakimi**

Məhkəmə proseslərində tərəflərin cinsi ilə bağlı hər hansı məsələ qabardılmır. Şikayətlər daha çox tərəflərin kişi və ya qadın olmasından asılı olmayaraq məhkəmənin qərəzli yanaşması ilə bağlı olur. Doğrudur, hakimlərin kişilərdən ibarət olması məişət zorakılığından zərər çəkmiş şəxslər üçün müəyyən narahatlıqlar yarada bilər. Bu o halda mümkündür ki, hakim məişət zorakılığı ilə bağlı işlərin spesifikliyini düzgün qiymətləndirmir. Həyata keçirilən məhkəmə-hüquq islahatlarının da məqsədlərindən biri həm daha gənc və hazırlıqlı hakimlərin seçilməsi, həm də qadın hakimlərinin sayının artırılmasıdır.

**Elmar Rəhimov,**
**Bakı Apellyasiya Məhkəməsinin**
**Cinayət Kollegiyasının sədri**

Məişət zorakılığı ilə bağlı işlər üzrə **məhkəmə proseslərində sübutların tədqiqi üsullarına** diqqət yetirilməsi zorakılıq qurbanlarının hüquq və mənafelərinin qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Məhkəmələrin zorakılıqdan zərər çəkmiş şəxsin sarsıntısını azalda biləcək, hədsiz müdaxiləyə yol açan təkrar sorğu-sualı istisna edən metodlara üstünlük verməsi daha məqbuldur. Əgər zorakılıqdan zərər çəkmiş şəxs məhkəmədə ifadələrini təkzib edərsə, hakim bunun səbəblərini müəyyən etmək üçün qurbanı ehtiyatla sor-

ğu-sual etməyə cəhd göstərməlidir. Lakin mövcud təcrübənin təhlili göstərir ki, müəyyən istisnalarla hakimlər həmin metodların tətbiqinə xüsusi təşəbbüs göstərmirlər.

Məişət zorakılığı cinayətlərində sübutların tədqiqi ilə bağlı problem bəzən istintaq materiallarından qaynaqlanır. Bəzən işin hallarını yenidən hərtərəfli tədqiq etmək zərurəti yaranır, çünki barəsində cinayət təqibi aparılan şəxslərin də hüquqları qorunmalıdır. Belə olan halda zərərçəkmişin də yenidən dindirilməsi zərurəti yarana bilər. Əgər zərər çəkmiş şəxs fərqli ifadə verərsə hakim bunun səbəblərinin müəyyənləşdirilməsi üçün bütün zəruri addımları atmalıdır.

**Elmar Rəhimov,**
**Bakı Apellyasiya Məhkəməsinin**
**Cinayət Kollegiyasının sədri**

S,Q-nin işində hakim israr edir ki, S.Q. məhkəmədə iştirak etməlidir. S.Q. istintaq dövründə azı 20 dəfə ifadə verib. Hakim isə deyir ki, zalın arxa hissəsində uşaq otağı var və S.Q. gəlib həmin otaqdan da ifadə verə bilər. Mən isə S.Q.-nin skype vasitəsilə də ifadə verə biləcəyini, onun istintaq dövründə verdiyi ifadələrin hamısının eyni olduğunu bildirdim.

**Zibeydə Sadıqova,**
**Vəkil**

İstintaq dövründə videogörüntü ilə ifadə alınır. Bununla yanaşı dəfələrlə dindirilmə halları ilə rastlaşırıq. Bu, ondan irəli gəlir ki, məişət zorakılığı işlərinin spesifikliyi, bu işlər üzrə zərərçəkmişlərin xüsusi ehtiyacları nəzərə alınmır. Baxmayaraq ki, bəzi hallarda məhkəmə zamanı zərərçəkmişin ibtidai istintaq dövründə verdiyi ifadələrin səsləndirilməsi ilə kifayətlənmək mümkündür, məhkəmələr zərərçəkmişin iştirakına üstünlük verirlər. Ona görə də prosesin lap əvvəlindən zərərçəkmişin aydın və hərtərəfli ifadəsinin alınması təmin olunmalıdır.

**Fariz Namazlı,**
**Vəkil**

Məişət zorakılığından zərər çəkmiş şəxslərə **uzunmüddətli mühafizə orderlərinin verilməsi** məhkəmənin səlahiyyətindədir. Mövcud statistik məlumatlar onu göstərir ki, zorakılıq qurbanlarının mühüm müdafiə vasitələrindən biri olan uzunmüddətli mühafizə orderindən istifadə sahəsində ciddi problemlər var. Problemi şərtləndirən bir sıra səbəblər mövcuddur. Bu səbəblər sırasına uzunmüddətli mühafizə orderinin qısamüddətli mühafizə orderi ilə şərtləndirilməsi, məhkəmələrin mühafizə orderi ilə bağlı bilavasitə öz təşəbbüsü ilə qərar qəbul etmək səlahiyyətinin olmaması, uzunmüddətli mühafizə orderləri ilə bağlı müraciətlərin sayının azlığı və s. aid etmək olar.

Uzunmüddətli mühafizə orderlərinin verilməsi ilə bağlı vəziyyət acınacaqlıdır. Bunun əsas səbəblərindən biri uzunmüddətli mühafizə orderlərinin verilməsinin qısamüddətli mühafizə orderi ilə şərtləndirilməsidir. Belə ki, "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun 12.1-ci maddəsinə əsasən, "məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxs verilmiş xəbərdarlığa əməl etmədikdə, zərər çəkmiş şəxs və ya müvafiq icra hakimiyyəti orqanı uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir". Göründüyü kimi, bilavasitə uzunmüddətli mühafizə orderinin verilməsi üçün müraciət etmək imkanları yoxdur.

**Zibeydə Sadıqova**
**Vəkil**

Bütün ölkə üzrə verilən uzunmüddətli mühafizə orderlərinin sayı çox azdır. Bunun əsas səbəb odur ki, ilk növbədə gərək qısamüddətli mühafizə orderi alasan, zorakılıq törədən şəxs onun tələblərinə əməl etməzsə, o zaman uzunmüddətli order üçün müraciət edə bilərsən.

Mən başqa bir vacib məsələyə toxunmaq istərdim. Uzunmüddətli mühafizə orderi məişət zorakılığından zərər çəkmiş şəxsə verilir. Bəs zorakılıq törədənə nə verilir? Zorakılıq törədən şəxsə isə məhdudlaşdırıcı order verilməlidir. Bizim təcrübədə bu, mövcud deyil və qanunda nəzərdə tutulmayıb. Əgər belə təcrübə tətbiq olunarsa mühafizə orderlərinin effektivliyini artırmaq mümkün olar.

**Vəfa Rüstəm,**
**Hüquqşünas**

Uzunmüddətli mühafizə orderlərinin verilməsi təcrübəsindəki mövcud vəziyyət qısamüddətli mühafizə orderləri ilə bağlıdır. Bütün ölkə üzrə götürdükdə, qısamüddətli mühafizə orderlərinin say göstəricisi zorakılıq halları ilə müqayisədə çox aşağıdır. Bu, istər-istəməz uznmüddətli mühafizə orderləri ilə bağlı müraciətlərin sayına da təsir göstərir. Burda yerli icra hakimiyyətlərinin mühafizə orderləri ilə bağlı fəaliyyətsizliyi də öz təsirini göstərir.

**Fariz Namazlı,**
**Vəkil**

İstər uzunmüddətli mühafizə orderlərinin verilməsi, istərsə də digər inzibati, mülki və cinayət işləri üzrə icraat zamanı hakimin obyektivlik, qərəzsizlik və ədsalitlilik kimi prinsiplərə əsaslanması vacibdir. Bunun üçün hakimlərdən məişət zorakılığı ilə bağlı işlərdə xüsusi hazırlıq, ən əsası isə **stereotplərdən uzaq durma** tələb olunur. Mövcud təcrübənin təhlili göstərir ki, xüsusi təlimlərdən keçmiş hakimlər məişət zorakılığı işlərində daha hazırlıqlıdırlar və stereotiplərə əsaslanan yanaşma nümayiş etdirmirlər. Xüsusi hazırlığı olmayan hakimlər isə bəzən açıq-aşkar stereotiplərə əsaslanan mövqedən çıxış edirlər.

Məhkəmələr bütün işlərdə işin hallarının araşdırılmasına münasibətdə vahid yanaşma nümayiş etdirməlidirlər. Hər hansı işin, o cümlədən məişət zorakılığı ilə bağlı işlərin digər cinayətlərə nisbətən az əhəmiyyətli hesab edilməsi yolverilməzdir. Bu, qanunvericiliyin tələbidir. Əgər şikayət və ya mübahisə varsa hərtərəfli, tam və obyektiv araşdırma aparılmalıdır. Məhkəmənin funksiyası elə bundan ibarətdir.

**Elmar Rəhimov,**
**Bakı Apellyasiya Məhkəməsinin**
**Cinayət Kollegiyasının sədri**

Bəzi hakimlər hələ də stereotiplərdən azad olmayıblar. Məsələn, mənim icraatımda olan bir işlə bağlı hakim zərər çəkmiş uşağa irad tuturdu ki, niyə vaxtında şikayət etmirdin, valideynlərinə demirdin.

Bəzən təqsirləndirilən şəxslər və onların müdafiəçiləri də stereotipli davranırlar. Məsələn, S.Q-nin işində təqsirləndirilən şəxs onun feminist hərəkatının üzvü kimi qaldırdığı plakata istinad edirdi. Halbuki İstanbul Konvensiyası dövlətlərdən zorakılıqdan zərər çəkmiş şəxslərin əvvəlki cinsi həyatı və davranışları ilə bağlı dəlillərin yalnız mülki və ya cinayət prosesində “müvafiq və zəruri” olduğu hallarda icazə verilməsi

üçün tədbirlər görməsini birmənalı şəkildə tələb edir (Maddə 54).

**Zibeydə Sadıqova,**
**Vəkil**

Təəssüf ki, hakimlərin bir çoxu gender stereotiplərindən çəkinə bilmirlər. Onlar hesab edirlər ki, məişət zorakılığı ilə müşaiyət olunan hadisələr "ailə və şəxsi məsələlər"dən ibarət adi hallardır və zorakılığa məruz qalmış şəxslər güzəştə getməklə ailənin bütövlüyünü qoruyub saxlamalıdırlar. Bu səbəbdən də zərərçəkmişi barışığa sövq edirlər.

**Rövşanə Rəhimli,**
**Vəkil**

Məhkəmə tərəflər arasındakı mübahisəni həll edərkən və ya hər hansı cinayət işinin məhkəmə istintaqını apararkən tərəflərə bərabər münasibət göstərməlidir. Qadının və ya kişinin daha çox günahkar olduğu barədə əvvəlcədən mühakimə yürütmək olmaz. Bununla yanaşı, baxdığım işlərin əksəriyyətinə istinadən deyə bilərəm ki, bir çox hallarda zərəçəkmiş şəxslər özləri zorakılıq törədən şəxsi zorakılıq göstərməyə təhrik edirlər.

**Hüseyn Səfərov,**
**Yasamal Rayon Məhkəməsinin hakimi**

Məişət zorakılığı ilə bağlı işlər üzrə məhkəmə **mübahisələrinin alternativ həlli yolu** kimi barışığa üstünlük verilir. Bu mənada ən vacib institut mediasiyadır. Ekspertlərin əksəriyyəti nikahın pozulması kimi məsələlərdə məcburi mediasiyanın əleyhinədirlər. Onlar hesab edirlər ki, məcburi mediasiya zorakılıq təhlükəsi ilə üzləşən qadının zorakılıqdan zamanında qorunma imkanlarını azaldır. Digər tərəfdən isə mediasiya vaxt və maliyyə itkisinə səbəb olur. Onsua da tərəflərdən biri nikahın pozulmasına razı deyilsə, məhkəmə onlara barışmaq üçün 3 ay vaxt verə bilər. Təcrübədə də hakimlər hər bir halda barışıq üçün bu müddəti təyin edirlər. Lakin bütün bu müddətlər zorakılığa məruz qalan şəxs üçün növbəti zorakılıq halları ilə qarşılaşmaq riski yaradır.

Digər tərəfdən, əgər barışıq barədə razılıq əldə olunursa, qadının razılığa gəlməsi üçün təzyiqə məruz qalması ehtimalı məhkəmə tərəfindən nəzərə alınmalıdır. Lakin təcrübədə bu məqama xüsusi diqqət yetirilmir.

Nikahın pozulması ilə bağlı işlərdə məcburi mediasiya özünü doğrultmur. Xüsusilə zorakılığın yer aldığı ailələrdə mediasiyanın nikahın pozulması prosesinin tərkib hissəsinə çevrilməsi prosesin uzanmasına, zorakılıq riskinin artmasına gətirib çıxarır. Bundan əlavə, ilkin mediasiya sessiyası üçün əlli manat, məhkəmə üçün isə yüz manat rüsumun nəzərdə tutulması, mediasiya zamanı xüsusi tezləşdirilmiş müddətlərin nəzərdə tutulmaması da problemli məsələlərdəndir.

**Zibeydə Sadıqova,**
**Vəkil**

Qanunvericilik hakimin yalnız daxili inam əsasında qərar qəbul etməsini istisna edir. Qanuna əsasən, məhkəmə tərəflərə, məhkəmə baxışını barışıq sazişi ilə tamamlamağı təklif etməyə borcludur. Mülki işlərdə mediasiya məcburi olsa da, nikahın pozulması zamanı tərəflərin barışması üçün üç ay vaxt verilməsi məcburi deyil. Hakim hər bir halda tərəflərin münasibətlərinin xarakterini qiymətləndirməyi bacarmalıdır.

**Elmar Rəhimov,**

**Bakı Apellyasiya Məhkəməsinin
Cinayət Kollegiyasının sədri**

Məhkəmələrin barışıq üçün təşəbbüs göstərməsi və tətəfləri barışığa sövq etmə hər bir halda özünü doğrultmur. Məhkəmələr tərəflərin münasibətlərinin xarakterindən asılı olaraq barışıq istiqamətində addım atmalıdırlar. Əgər tərəflərdən biri mütəmadi olaraq qarşı tərəfə zor tətbiq edirsə, onun ləyaqətini alçaldan hərəkətlərə yol verirsə, burda hansı barışıq təşəbbüsündən söhbət gedə bilər? Məhkəmə işin hallarını və tərəflər arasındakı münasibətləri qiymətləndirməklə tərəflərə vaxt verə və ya hər hansı vaxt vermədən nikahın pozulması barədə qərar qəbul etmək imkanına malik olmalıdır.

**Fariz Namazlı,
Vəkil**

Məişət zorakılığının yer aldığı işlərdə hakimlərin razılıq prosesini təşviq etməsi məqsədəuyğun deyil. Təcrübə göstərir ki, bir çox hallarda qadınlar təzyiqlərə, xüsusilə də psixoloji təzyiqə məruz qalaraq razılığa gəlirlər. Əgər məişət zorakılığından zərər çəkmiş qadın məhkəmədə ifadələrini təkzib edərsə, hakim onu ehtiyatla sorğu-sual etməli, təkzibetmənin səbəblərini müəyyən etməyə çalışmalıdır.

**Rövşanə Rəhimli,
Vəkil**

Böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə işlərdə əsasən tərəfləri barışdırmağa çalışırıq. Buna qanun da yol verir. Zərərçəkənin fikrində qətiliyin olmaması da öz təsirini göstərir. Əgər zərərçəkən şəxsin mövqeyi qəti olarsa və o, təqsirli şəxsin cəzalandırılmasını tələb edərsə, o zaman məhkəmə də barışığa təkid etmir. Əslində məhkəməyə gələn işlərin böyük əksəriyyətində ibtidai istintaq tərəfləri barışdıra bilər, lakin statistika naminə bunu etmirlər. Müstəntiq zərərçəkmiş şəxsə barışıb-barışmaması ilə bağlı mütləq sual verməli, ona bu hüququnu izah etməlidir. Təəssüf ki, müstəntiqlər işin məhkəməyə getməsində daha maraqlıdırlar.

**Hüseyn Səfərov,
Yasamal Rayon Məhkəməsinin hakimi**

Mən çıxdığım işlərdə razılıq prosesinin təşviq edilməsi hakimin özünün subyektiv xüsusiyyətlərindən asılı olaraq fərqlənib. Elə hakim var ki, zərərçəkmişin hüquqlarının müdafiəsinin zəruriliyini anlayır. Elə hakim də var ki, ya barışığa özü təşviq edir və ya şikayəti geri götürən qadının niyə geri çəkildiyini araşdırmır.

Müdafiə olunmuş, özünü güvəndə hiss edən qadına barışıq təklif etmək olar. Zorakılıq qurbanı olan qadına barışmağı təklif etmək quzunu qurda tapşırmaq kimi bir şeydir.

**Sevinc Əliyeva,
Vəkil**

Məhkəmələr hər bir halda məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquqlarının pozulmasına qarşı cavab tədbirlərinin görülməsini təmin etməlidirlər. Bunun üçün zərər çəkmiş şəxslərə vurulmuş zərərin əvəzinin ödənilməsi, zorakılığın təkrarlanmaması, onlara vurulmuş zərərin əvəzinin ödənilməsi, onlar üçün reabilitasiya (tibbi, psixoloji yardım və digər xidmətlər) tədbirlərinin görülməsi kimi **hüquq müdafiə vasitələrindən** istifadə olunmalıdır.

Məişət zorakılığından zərər çəkmiş şəxslərə vurulmuş zərərin ödənilməsini həmin şəxslərin özü tələb etməlidir. Məhkəmə öz təşəbbüsü ilə bunu təmin etmək imkanında deyil. Təcrübədə bu məsələ üzrə əsas problemlərdən biri vurulmuş mənəvi zərərlə bağlıdır. Məhkəmələr mənəvi zərəri çox cüzi miqdarda təmin

edirlər. Bu isə zərərçəkmişlərin məruz qaldığı mənəvi iztirabları, onların sarsıntılarını olduqca aşağı səviyyədə kompensasiya edə bilir.

**Fariz Namazlı,**
**Vəkil**

Məhkəmələr zorakılıqdan zərər çəkmiş şəxslərin hüquqlarının pozulmasına qarşı cavab tədbirlərinin görülməsi məsələsini ytalnız onların tələbi olduqda nəzərdən keçirirlər. Zərər çəkmiş şəxslər üçün tibbi və psixoloji yardım, eləcə də digər sisoal xidmətlər kimi reabilitasiya tədbirlərinin görülməsi üçün isə hakimlər hər hansı təşəbbüs göstərmirlər.

**Rövşanə Rəhimli,**
**Vəkil**

Məişət zorakılığı ilə bağlı mühafizə orderinin verilməsinə dair işlərdə müalicəyə, hüquqi yardıma çəkilmiş xərci zərər çəkmiş şəxs istəyə bilər. Amma mühafizə orderində onun nəzərdə tutulmasını mən hələ görməmişəm. Şəxs sonradan da ona dəymiş ziyanla bağlı mülki qaydada tələb irəli sürə bilər, amma mənəvi zərərlə bağlı hissənin təmin olunması ümumiyyətlə problemlidir. Mənəvi zərərlə bağlı təmin olunan məbləğlər çox aşağı olur, çünki burda dəymiş zərərin həcmini sübutetmə problemi var.

**Sevinc Əliyeva,**
**Vəkil**

Məişət zorakılığı ilə bağlı işlərdə hakimlərin tələb olunan **cəzanın cinayətin xarakterini ciddi şəkildə əks etdirdiyini** təmin etmələri çox vacibdir, çünki yalnız bu halda təyin edilən cəzanın ədalətli olmasını, ayrı-seçkiliyə yol verməməsini təmin etmək mümkündür. Bu kateqoriyalı işlərdə təqsirləndirilən şəxsi məsuliyyətə cəlb etməklə zərər çəkmiş şəxsləri qorumaq, zorakılığın təkrarlanmasının qarşısını almaq cəzanın əsas məqsədləridir. Mövcud təcrübənin təhlili göstərir ki, məhkəmələr bir sıra hallarda məişət zorakılığı ilə bağlı işlərin spesifikliyini düzgün qiymətləndirmədiyindən onlar tərəfindən təyin edilən cəzalar cinayətin xarakterini nəzərə almır.

Bir çox hallarda məhkəmələr tərəfindən qəbul edilən qərarlar kifayət qədər əsaslandırılmış olmur. Xüsusilə, cəza təyini zamanı məişət zorakılığının özünəməxsusluğu nəzərə alınmır. Məsələn, S. M.-in işində hakim təqsirləndirilən şəxsə 1 il müddətinə azdlığın məhdudlaşdırılması cəzası verdi. 2021-ci ilin iyununda cəza verildi, avqustun 3-də S.M.həmin şəxs tərəfindən öldürüldü.

Bir sıra hallarda məişət zorakılığı ilə bağlı işlər üzrə təyin edilən cəzalar cinayətin xarakterinə və təhlükəlilik dərəcəsinə uyğun olmur. Məsələn, icraatımda olan bir cinayət işi üzrə CM-nin 120.1 və 128-ci maddələri ilə təqsirləndirilən şəxsə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 10 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edildi. Məhkəmə təqsirləndirilən şəxs E.Q.-nin himayəsində azyaşlı uşaqları olduğunu yüngülləşdirici hal kimi nəzərə aldı. Halbuki E.Q. həyat yoldaşını dəfələrlə döymüş və uşaqlar da bu zorakılığın şahidi olmuşlar. Həmçinin E.Q. tərəfindən həyat yoldaşının öldürülməsi azyaşlı uşaqların ciddi mənəvi sarsıntı keçirmələrinə səbəb olmuşdur.

**Zibeydə Sadıqova,**
**Vəkil**

Bildiyimiz kimi, Cinayət Məcəlləsində məişət zorakılığı ilə bağlı nə ayrıca maddə var, nə də o, ağırlaşdırıcı hal hesab edilir. Ona görə cinayətin ağırlığı məsələsində yalnız məcəllədə nəzərdə tutulan hallar nəzərə alınır. Məhkəmə tərəfindən qərar qəbul edilən zaman zorakılığın məişət zorakılığı olduğuna önəm verilmir, əslində qanunvericilikdə buna zəmin də yoxdur.

**Sevinc Əliyeva,**
**Vəkil**

Məhkəmələr cəza təyin edərkən həmin cəzanın həm ədalətli olmasını, həm də cinayətin xarakterini əks etdirməsini təmin etməyə çalışmalıdırlar. Şübhəsiz ki, cəza təyin edilərkən ağırlaşdırıcı və yüngülləşdirici hallar nəzərə alınır. Burda zərər çəkmiş şəxsin mövqeyi də əhəmiyyətlidir. Lakin hər bir halda cəzanın ədalətli olması mühüm əhəmiyyət kəsb edir. Əgər birinci instansiyada təyin edilən cəza ədalətli deyilsə, bu yanlışlığı növbəti instansiyalarda aradan qaldırmaq imkanı var.

**Elmar Rəhimov,**
**Bakı Apellyasiya Məhkəməsinin**
**Cinayət Kollegiyasının sədri**

Cəzanın icrasının təxirə salınması, şərti məhkum etmə, şərti azad etmə haqqında qərarlar gələcəkdə zərərçəkmişə və ya başqalarına qarşı **zorakılıq riski** yarada bilər. Belə qərarların qəbulu risk qiymətləndirilməsinin nəticələrinə əsaslanmalıdır. Ekspertlər hesab edirlər ki, risk qiymətləndirilməsi aparılmadığından qəbul edilən qərarların zorakılıq riski yaratma ehtimalı heç bir halda istisna olunmamalıdır. Yuxarıda təqdim etdiyimiz nümunələr də (məsələn, S.M. ilə bağlı) bunu təsdiq edir. Həbs qətimkan tədbiri ilə bağlı məsələləri nəzərdən keçirən zaman hakimlər zorakılıq törətmiş şəxs tərəfindən zərər çəkmiş şəxsə qarşı həbsxanadan zərər yetirmək üçün edilən təhdidləri, zərər çəkmiş şəxslər və ya onların ailə üzvləri üçün gözlənilən real təhlükə ehtimalını nəzərə almalıdırlar. Bundan əlavə, zərər çəkmiş şəxslərə və onların ailə üzvlərinə qarşı təhlükə mövcud olduğu hallarda hakimlər zorakılıqda ittiham olunan şəxsin və ya məhkumun müvəqqəti və ya həmişəlik azadlığa buraxılması barədə zərər çəkmiş şəxslərin məlumatlandırılmasını təmin etməlidirlər. Mövcud təcrübənin təhlili göstərir ki, belə məlumatlandırma sistemi mövcud deyil.

Mövcud təsrübənin təhlili göstərir ki, yalnız yeni tikilmiş məhkəmə binalarında müvafiq təhlükəsizlik tədbirləri üçün şərait mövcuddur. Köhnə məhkəmə binalarında proses iştirakçılarının, həmçinin binada oaln digər şəxslərin təhlükəsizliyinin təmin edilməsi (məsələn, binaya daxil olan şəxsin silahlı olub-olmaması) üçün heç bir şərait yoxdur.

Məhkəmə prosesləri zamanı bir sıra hallarda məişət zorakılığı törətmiş şəxs **zorakılıqdan zərər çəkmiş şəxsə təsir göstərmək** üçün müxtəlif taktiki üsullardan istifadə etməyə çalışır. Belə üsullara hədə-qorxu ifadə edən iti baxışlar, emosional müraciətlər və s. kimi üsullar aiddir. Hakimlər bu amili mütləq nəzərə almalı və onun qarşısını almaq üçün zəruri addımlar atmalıdırlar (şəxsi məhkəmə zalından çıxarmaq, tərəflərin yerləşdiyi yeri dəyişmək və s.).

Məhkəmələr təqsirləndirilən şəxslər tərəfindən zərər çəkmiş şəxsə təsir göstərmək üçün edilən hərəkətlərə adekvat reaksiya vermirlər. Məsələn, H.R.-in işində təqsirləndirilən şəxs zərərçəkmiş şəxsi və anasını söyürdü. Mən bunu məhkəmənin diqqətinə çatdırsam da, məhkəmə heç bir tədbir görmədi.

**Zibeydə Sadıqova,**
**Vəkil**

Məişət zorakılığından zərər çəkmiş şəxslərin zorakılığı törətmiş şəxslər tərəfindən məhkəmə iclasları zamanı hədələnməsi, təhqir olunması hallarına çox rast gəlirik. Bir sıra hallarda məhkəmələr zərər çəkmiş

şəxsi hədələyən, təhqir edənə irad bildirirlər, lakin bununla da məhdudlaşırlar. Bəzən isə heç irad da bildirilmir. Əslində məhkəmə zərər çəkmiş şəxsin mənafeyini nəzərə almalı, şəxsi zaldan çıxarmalı, yaxud da zərər çəkmiş şəxsə təsiri istisna edən şəraiti təmin etmək üçün digər addımlar atmalıdır.

**Fariz Namazlı,**
**Vəkil**

Məişət zorakılığı ilə bağlı işlər üzrə risklərin qiymətləndirilməsi sistemi formalaşmasa da, məhkəmələr məişət zorakılığından zərər çəkmiş şəxslərin yenidən zorakılığa məruz qalma təhlükəsini nəzərə almağa çalışırlar. Məhkəmələrdə illər üzrə statistik təhlillər aparılır. Daha çox aktuallıq kəsb edən hallar üzrə məlumatlar ümumiləşdirilir və onların aradan qaldırılması üçün müvafiq tövsiyələr verilir.

Təqsirləndirilən şəxslər barəsində qətimkan tədbirinin seçilməsi zamanı zərər çəkmiş şəxslərin mövqeyi öyrənilir və bundan sonra müvafiq qərar qəbul edilir. Əgər məhkəmə prosesində təqsirləndirilən şəxsin zərər çəkmiş şəxsə müxtəlif vasitələrlə təsir göstərmək cəhdləri olarsa, hakim dərhal bunun qarşısını almaq üçün zəruri tədbirlər görməlidir.

**Elmar Rəhimov,**
**Bakı Apellyasiya Məhkəməsinin**
**Cinayət Kollegiyasının sədri**

Məişət zorakılığı ilə bağlı işlər üzrə məhkəmə prosesləri başa çatdıqdan sonra **zərər çəkmiş şəxsin məhkəmə binasını təhlükəsiz şəkildə tərk etməsi və zəruri hallarda binadan çöldə mühafizə heyəti ilə müşayiətinin təmin edilməsi** üçün tədbirlərin görülməsi vacibdir. Bu, həm cinayət, həm inzibat, həm də mülki işlər üzrə proseslər üçün zəruri ola bilər. Zorakılıq riski olduğu halda ilk növbədə tərəflərin zaldan çıxmaları fasilələrlə həyata keçirilməli, məhkəmə binasından kənarda isə zəruri təhlükəsizlik tədbirləri görülməlidir. Mövcud təcrübənin təhlili göstərir ki, bu tələblərə əksər hallarda əməl olunmur.

Məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəmə binalarında və oranı tərk etdikdən sonra təhlükəsizliklərinin təmin edilməsi sahəsində ciddi problemlər var. Mənim icraatımda uşaqla ünsiyyətə dair bir iş var idi. Məhkəmə iclasından sonra icra prosesində keçmiş əri qadını vurmuşdu. İcraçı heç bir tədbir görməmişdi. Sonra qadının ata-anası ünsiyyətlə bağlı iddia qaldırmışdı. Qadın anası ilə iclasa gəlmişdi, prosesdən çıxandan sonra məhkəmənin arxasına keçəndə keçmiş ər qadının və anasının üstünə maşın sürmüşdü, hər ikisi yıxılmışdı. Keçmiş ər maşından düşərək 19 bıçaq vurmuşdu.

Zorakılıq törədən keçmiş ər azadlıqdan məhrumetmə cəzasına məhkum edildikdən sonra vəsatət vermişdi ki, guya psixi problemləri var, cəzasını cəzaçəkmə müəssisəndə çəkə bilməz, stasionar müalicə müəssisəsində çəkməlidir. Hətta cəzaçəkmə müəssisəsindən davamlı olaraq zərərçəkmişə zəng edib hədələyirmiş.

Bu iş üzrə iki ekspert rəyi var idi. Vəsatət verdik ki, ekspertlər dəvət olunsun, çünki rəylərində ziddiyyətlər var. Bizim vəsatətlər təmin olunmadı. Məhkəmə qərar verdi ki, zorakılıq törədən şəxs stasionar müalicə müəssisəsinə keçirilsin.

**Rövşanə Rəhimli,**
**Vəkil**

Bəzən məhkəmələr zərər çəkmiş şəxsə qarşı təhlükə hiss etdiyi hallarda təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görür. Təəssüf ki, bunu bütün hallara şamil etmək olmaz. Bir qayda olaraq, tərəf təhlükə ehtimalı barədə məhkəməyə bildirdiyi halda məhkəmə zəruri tədbirlər görür. Digər hallarda isə məişət zorakılığından zərər çəkmiş şəxsin yenidən zorakılıqla üzləşmə riski qalır.

***Fariz Namazlı,***
***Vəkil***

Müasir məhkəmə binalarında proses iştirakçılarının təhlükəsizliyinin təmin edilməsinə imkan verən şərait mövcuddur. Köhnə məhkəmə binalarında bu işin təşkili bir qədər çətindir. Məhkəmə islahatları çərçivəsində bu problem də öz həllini tapmaqdadır.

Məişət zorakılığı törətməkdə təqsirləndirilən şəxslərin həbs edilmədiyi proseslər üzrə məhkəmə iclası başa çatdıqdan sona zərər çəkmiş şəxsin məhkəmə binasını təhlükəsiz tərk etməsinə müvafiq icra qurumları nəzarət edir. Lakin onların fəaliyyəti məhkəmə binasının ərazisi ilə məhdudlaşır. Şübhəsiz ki, məhkəmə binasından kənarda da proses iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi üzrə uyğun tədbirlər görülməlidir.

**Elmar Rəhimov,**
**Bakı Apellyasiya Məhkəməsinin**
**Cinayət Kollegiyasının sədri**

Məişət zorakılığı ilə bağlı işlər üzrə iclasların keçirildiyi **məhkəmə zalının təşkili** xüsusi əhəmiyyət kəsb edir. Xüsusi olaraq zərər çəkmiş şəxslər üçün nəzərdə tutulan təhlükəsiz və rahat otaqların, tərəflər üçün ayrıca gözləmə yerlərinin olması, uşaqlara yerində qulluq üçün tədbirlərin görülməsi müasir ədliyyə sisteminin diqqət yetirdiyi vacib məsələlərdəndir. Mövcud təcrübənin təhlili göstərir ki, yalnız yeni tikilmiş məhkəmə binalarında bu məsələlər qismən həll olunub.

## 2.3. Məhkəmə qərarlarının icrası praktikası

Məişət zorakılığı ilə bağlı işlər üzrə məhkəmə qərarlarının icrası sahəsində bir sıra problemlər mövcuddur. Daha geniş rast gəlinən problem uzunmüddətli mühafizə orderləri, aliment və uşaqla ünsiyyətlə bağlı qəbul edilmiş qərarların icrası sahəsində müşahidə olunur.

Uzunmüddətli mühafizə orderlərində zorakılıq törətmiş şəxsə bir sıra hərəkətlərin edilməsi qadağan olunsa da onun icrasına effektiv nəzarətin həyata keçirilməsi imkanları məhduddur.

Təcrübədə tətbiq olunan uzunmüddətli mühafizə orderindən götürülmüş qadağan edilən hərəkətlərin dairəsi

Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 14.07.2021-ci il
tarixli qətnaməsindən
ÇIXARIŞ

Ərizəçi T.A.-nın məişət zorakılığı törətmiş A.A.-ya qarşı “uzunmüddətli mühafizə orderinin verilməsi” tələbinə dair ərizəsi üzrə mülki işə məhkəmənin inzibati binasında, qapalı məhkəmə iclasında baxaraq...
məhkəmə
QƏT ETDİ:

Ərizə təmin edilsin.

Bakı şəhəri, Nizami rayonu .......ünvanında qeydiyyatda olmaqla, Sabunçu rayonu,,,,,, ünvanında yaşa-

yan T.A.-ya 180 gün müddətinə uzunmüddətli mühafizə orderi verilsin.

Məişət zorakılığının təkrar törədilməsi, ərizəçi T,A.-nın olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması, ərizəçiyə narahatçılıq gətirən digər hərəkətlərin edilməsi, o cümlədən məhkəmə və hüquq-mühafizə orqanlarının çağırışlarında iştirak etmək istisna olmaqla
ərizəçiyə, həmçinin onun yaşadığı Bakı şəhəri, Sabunçu rayonu Balaxanı qəsəbəsi ...... küçəsində yerləşən evə 20 metr məsafədə yaxınlaşmaq, ərizəçilə hər hansı formada, o cümlədən rabitə vasitəsi ilə əlaqə saxlamaq və ünsiyyətə girmək A.A.-ya qadağan edilsin.

Mühafizə orderinin qüvvədə olduğu müddətdə A.A. uşaqları .... təvəllüdlü L.A., .....təvəllüdlü A.A. və ... təvəllüdlü A.A. ilə ünsiyyət yaratmaq istəyi Sabunçu Rayon İcra Hakimiyyəti yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyasının nümayəndəsinin iştirakı ilə təmin edilsin.

A.A.-ya uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamənin icra edilməməsinə görə məsuliyyət izah edilsin.

Qətnamə dərhal icra edilsin.

Təhlil çərçivəsində müsahibəyə cəlb edilmiş ekspertlər uzunmüddətli mühafizə orderləri ilə bağlı məhkəmə qətnamələrinin icrasında ciddi problemlərin olduğunu bildiriblər. Onlar əsas problemlər sırasına icra məmurların iş yükünü çoxluğu, mühfizə orderləri ilə bağlı qərarlarla müqayisədə digər qərarların icrasını daha vacib hesab etmələri, icra məmurlarının qanunla müəyyənləşdirilmiş iş vaxtı ilə məhdudlaşması, iş vaxtından sonra isə mühfizə orderlərinin tələblərinə əməl edilməsinə nəzarətin olmamasını aid ediblər.

Məişət zorakılığı ilə bağlı işlər üzrə məhkəmə qərarlarının icrası, o cümlədən də uzunmüddətli mühafizə orderinin verilməsi ilə bağlı məhkəmə qətnamələrinin icrası sahəsində vəziyyət çox acınacaqlıdır. Qərarların icrası icra şöbəsinə tapşırılır. (Hələ orderlər azdır, çox olsa onlar itib-batar o işin içində). Onlar isə digər işləri daha vacib hesab edirlər. İcra məmuru deyir ki, icraatımda çox iş var, mən bütün günü gedib onu (zorakılıq törətmiş şəxsi) izləyə bilmərəm. Ona görə də Türkiyədə olduğu kimi elektron vasitələr olmalıdır, təqsirləndirilən şəxs onu gəzdirməli, zərərçəkmişə yaxınlaşanda bu barədə siqnal gəlməlidir. Əslində həqiqətən icra məmuru də 24 saat durub zərərçəkmişi qorumalı deyil ki. Bizdə də elektron vasitələrdən istifadə olunmalıdır ki, zorakılıq törədən şəxs qadağan olunan ərazilərə gələndə məlumat verilsin və bu zaman müdaxilə etmək mümkün olsun.

**Sevinc Əliyeva,**
**Vəkil**

Uzunmüddətli mühafizə orderləri ilə bağlı məhkəmə qərarlarının icrasında problemlər var. Problem əsasən onunla bağlıdır ki, icraçının iş vaxtı axşam saat 6-7-də bitir. Bu vaxtdan sonra zor törədən gəlib məni narahat edirsə mən icra məmuruna necə müraciət edim? Uzunmüddətli mühafizə orderləri ilə bağlı məhkəmə qərarlarının icrasına nəzarət polisə verilməlidir ki, dərhal tədbir görsün. Həmin qərarlar icra olunmayanda biz məcbur olun polisə zəng edirik və zəngimizin səbəbləri barədə xeyli izah verməli oluruq.

**Rövşanə Rəhimli,**
**Vəkil**

Məhkəmə qərarlarının icrası sahəsində digər problem aliment öhdəliklərinin icrası ilə bağlıdır. Müsahi-

bəyə cəlb edilmiş ekspertlər hesab edirlər ki, borclu şəxslərin hər hansı rəsmi iş yerinin olmaması və bu səbəbdən də ödəmənin yönləndirilməsi üçün hər hansı vəsaitin yoxluğu alimentlə bağlı məhkəmə qərarlarının icrasını çətinləşdirir. Xüsusilə əlilliyi olan şəxslərə münasibətdə qətnamələrin icrası çətinlik yaradır. Aliment fondunun olmaması aliment almalı olan məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquqlarının təmin edilməsi imkanlarını azaldır.

Uşaqla ünsiyyət sahəsində məhkəmə qərarlarının icrasında da problemlər var. Burada əsas problem məişət zorakılığına məruz qalmış şəxsin öz uşaqları ilə ünsiyyət saxlamasına məqsədli şəkildə müxtəlif vasitələrlə maneələrin yaradılması və icra məmurlarının həmin maneələri aradan qaldırmaq istiqamətində zəruri addımlar atması imkanlarının məhdudluğudur. Bir sıra hallarda uşaqlar zorakılığa məruz qalmış anadan zorla alınır və ata tərəfindən anaya nifrət ruhunda tərbiyə olunurlar. Davamlı psixoloji təzyiq altında olan uşaqlar ana ilə ünsiyyətdən imtina edirlər. Belə hallarda icra məmurları da ünsiyyətlə bağlı qərarların icrasında ciddi çətinliklərlə qarşılaşırlar. Bu səbəbdən də məhkəmələr bu işlərə həssaslıqla yanaşmalı, uşaqların psixoloji təsirdən azad olması və heç bir kənar təsir olmadan mövqe ifadə etməsi üçün zəruri şəraitin yaradılması istiqamətində lazımi tədbirlər görməlidirlər. Bu baxımdan məhkəmələr tərəfindən multidissiplinar yanaşmanın tətbiqi zəruridir.

# 3.Məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi sahəsində məhkəmə təcrübəsinin təkmilləşdirilməsi istiqamətləri

## 3.1.Məhkəməyəqədər icraatla bağlı təkliflər

**1. Qısamüddətli mühafizə orderlərinin daha uzun müddətə nəzərdə tutulması və qısamüddətli mühafizə orderlərinin verilməsi səlahiyyətinin polis orqanlarına həvalə edilməs**i. "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunda zərər çəkmiş şəxsə 30 gün müddətinədək qısamüddətli, 30 gündən 180 günədək isə uzunmüddətli mühafizə orderinin verilməsi nəzərəd tutulur. Məişət zorakılığına məruz qalmış, xüsusilə mühfizə orderi verilmiş şəxslərin, həmçinin ekspertlərin rəyinə görə, nəzərdə tutulan müddətlərin ən azı iki dəfə artırılmasına ehtiyac var.

"Məişət zorakılığının qarşısının alınması haqqında" qanunda qısamüddətli mühafizə orderinin verilməsi yerli icra hakimiyyəti orqanlarının səlahiyyətindədir. Lakin yerli icra hakimiyyəti orqanları polis orqanları ilə müqayisədə çevik deyil və zorakılıq hallarına dərhal reaksiya verə bilmirlər. Polis isə zorakılıq faktına dərhal reaksiya vermək və tədbirlər görmək üçün lazım olan bütün resurslara malikdir. Bu səbəbdən də qısamüddətli mühafizə orderlərinin polis orqanları tərəfindən verilməsi daha məqsədəuyğun olardı.

**2. Polis və prokurorluq orqanlarında çalışan qadın təhqiqatçıların və müstəntiqlərinin sayının artırılması, polis orqanlarında təhqiqatçı və müstəntiq vəzifələrinə qəbulun müsabiqə qaydasında həyata keçirilməsi**. İbtidai araşdırmanı həyata keçirən şəxslərin (təhqiqatçı, müstəntiq, prokuror) kişilərdən ibarət olması zorakılıq qurbanlarında narahatlıq əlamətləri yaradır. Bu, zorakılıq qurbanını yenidən qurbana çevrilmək təhlükəsi ilə üz-üzə qoyur. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyindən verilən məlumata görə, hazırda daxili işlər orqanlarında 3714 qadın xidmət edir. Onlardan 4-ü müstəntiq, 5-i təhqiqatçı vəzifəsində işləyir. Şəhər, rayon polis orqanlarında rəis və rəis müavini vəzifəsini tutan qadın əməkdaş yoxdur.[26] Bu amil bir tərəfdən məişət zorakılığına məruz qalmış qadınların zorakılıqdan şikayət etmələri üçün əlverişli mühitin yaranmasını əngəlləyir, digər tərəfdən məişət zorakılığı ilə bağlı şikayətlərin araşdırılması zamanı xüsusi həssas yanaşmanın tətbiqi imkanlarını çətinləşdirir. Təhqiqat və istintaq orqanları əməkdaşları üçün gender aspektini nəzərdə tutan vacib yanaşma ondan ibarətdir ki, onlar zərər çəkmiş şəxslə görüş zamanı onun həyəcan və narahatlıqlarının nədən ibarət olduğunu bilsinlər və zərər çəkmiş şəxsin təkrar qurbana çevrilməsinə yol verməsinlər.

**3. Təhqiqatçılar, müstəntiqlərin və prokurorların məişət zorakılığına dair işlər üzrə hazırlıq səviyyəsinin artırılması məqsədilə xüsusi təlim proqramlarının hazırlanması və tətbiqi.** Təhqiqatçılar, müstəntiqlər, prokurorlar insan hüquqlarının standartları, gender bərabərliyi, uyğun beynəlxalq konvensiyaların və milli qanunvericiliyin tələbləri barədə ətraflı məlumatlı olmalı, məişət zorakılığı cinayətlərinin digər cinayətlərdən nə ilə fərqləndiyini, zorakılıq qurbanlarının spesifik ehtiyaclarının nədən ibarət olmasını bilməlidirlər.

Mövcud təcrübənin təhlili göstərir ki, ibtidai araşdırmanı həyata keçirən təhqiqatçı və müstəntiqlərin bir çoxu gender stereotiplərindən çəkinə bilmir, bir sıra hallarda məişət zorakılığı cinayətlərinə nəinki məişət zəminində baş verən adi cinayət kimi yanaşır, hətta bəzi hallarda baş vermiş zorakılığı "ailədaxili münaqişə" kimi qiymətləndirərək zorakılıq qurbanlarını zorakılığın səbəbkarı kimi qınamaqdan belə çəkinmirlər. Təhqiqatçı və müstəntiqlərin bir çoxu məişət zorakılığı ilə bağlı işlərin digər zorakılıq hadisələrindən nə ilə fərqləndiyini,

[26] Məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəməyə çıxış imkanları: mövcud vəziyyət və onun təkmilləşdirilməsi imkanları. AQUPDK, Bakı, 2021

məişət zorakılığının xarakteri, onun zərər çəkmiş şəxslərə, onların övladlarına və ailələrinə olan təsirlərini bilmirlər.

**4. Cinayət prosessual qanunvericilikdə məişət zorakılığı işləri üzrə xüsusi qısaldılmış prosessual müddətlərin nəzərdə tutulması.** Məişət zorakılığı ilə bağlı işlər üzrə cinayət araşdırmasının bütün mərhələlərində zərər çəkmiş şəxslərin hüquqlarının qorunması, onların növbəti dəfə qurbana çevrilmək vəziyyətindən mühafizə olunması vacibdir. Məişət zorakılığı cinayətlərinin spesifikliyi tələb edir ki, istintaq araşdırması və sübut toplama mərhələlərində iş üzrə düzgün və ədalətli qərar üçün təhlükə yarada biləcək hər hansı gecikməyə yol verilməsin. Bu baxımdan məişət zorakılığı ilə bağlı işlərdə sürətləndirilmiş prosesdən istifadə mühüm əhəmiyyət kəsb edir.

**5. Məişət zorakılığından zərər çəkmiş və ya zorakılığın şahidi olan uşağın dindirilməsi zamanı multidissiplinar yanaşmanın (uşağı və onun vəziyyətini, həmçinin onun hüquqi, psixoloji, sosial, emosional, fiziki və koqnitiv[27] vəziyyətini tam başa düşmək üçün müxtəlif sahələr üzrə mütəxəssislərin sıx əməkdaşlığı) tətbiqi tələbinin prosessual qanunvericiliyə daxil edilməsi.** Zorakılığın şahidi olan uşaqların əsas narahatlıqlarının və ehtiyaclarının müəyyənləşdirilməsi, onların zorakılığın hər hansı formasına məruz qalıb-qalmamasının dəqiqləşdirilməsinə yönəlik xüsusi yanaşma tətbiq edilmir. Təhqiqat və istintaq orqanları uşaqların təcavüzkar tərəfindən birbaşa fiziki zərərə məruz qalmadıqlarını, zərər çəkmiş olmadıqlarını və ya gələcəkdə zorakılığa məruz qalmayacaqlarını müəyyənləşdirmək üçün bütün zəruri addımları atmalıdırlar. Bu məqsədlə multidissiplinar yanaşmanın tətbiqi vacibdir, çünki təkcə pedaqoqun iştirakı yuxarıda qeyd olunan halların aşkara çıxarılması üçün yetərli olmaya bilər.

6. Məişət zorakılığı ilə bağlı işlər üzrə risk qiymətləndirilməsinin aparılması tələbinin qanunvericiliyə daxil edilməsi. Risk qiymətləndirilməsinin aparılması ona görə əhəmiyyətlidir ki, onun nəticələrindən asılı olaraq məişət zorakılığından zərər çəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan tədbirləri planlaşdırmaq mümkün olsun. Bundan əlavə, risk qiymətləndirməsinin nəticələrindən asılı olaraq, polis və prokurorluq işçiləri zərər çəkmiş şəxsləri mövcud sosial xidmətlərə və yardımçı təşkilatlara istiqamətləndirməlidirlər. Hüquq mühafizə orqanları tərəfindən belə qiymətləndirilmənin aparılması tələbi "Məişət zorakılığının qarşısının alınması haqqındas" Qanunda nəzərdə tutula bilər.

Risklərin səviyyələri dinamik olduğundan və məhkəmə prosesləri zamanı dəyişilə bildiyindən risklərin qiymətləndirilməsi dövri şəkildə və zərər çəkmiş şəxslərlə əməkdaşlıq etməklə həyata keçirilməlidir. Məişət zorakılığından zərər çəkmiş şəxslərlə işləyən bütün mütəxəssislər risklərin qiymətləndirilməsi üçün ümumi meyarlar toplusundan istifadə etməlidir (qurumlararası yanaşma). [28]

## 3.2. Məhkəmə icraatı ilə bağlı təkliflər

***1. Nikahın pozulması, aliment və uşaqlarla bağlı mübahisələr üzrə hazırlıq iclasında məhkəməyə mühafizə orderi barədə qərar qəbul etmək səlahiyyətinin verilməsi.*** Həmin mübahisələr üzrə məhkəmələrə tərəflərin münasibətlərinin xarakterini nəzərə alaraq mübahisə üzrə yekun məhkəmə qərarı qəbul edilənədək olan dövr üçün mühafizə orderinin verilməsi barədə qərarın qəbul edilməsi səlahiyyətinin verilməsi ağır nəticələrə gə-

[27] Şüur, düşüncə və təfəkkürlə bağlı olan, anlayışların formalaşmasına, bilikdən nəticələrin çıxarılmasına xidmət edən dərketmə prosesi.

[28] 16809c8283 (coe.int)

tirib çıxaran məişət zorakılığı hallarının azaldılmasında böyük rol oynaya bilər. Təcrübə göstərir ki, ağır nəticələrə gətirib çıxaran zorakılıq hallarının bir çoxu nikahın pozulması ilə bağlı məhkəmə mübahisəsinin getdiyi dövrə təsadüf edir.

**2. Ailə mübahisələri və məişət zorakılığı işləri üzrə hakimlərin ixstisaslaşması.** Hazırda məhkəmə sistemində hakimlərin ailə mübahisələri və məişət zorakılığı işləri üzrə xüsusi ixtisaslaşması yoxdur. Bu, hələ də gender stereotiplərindən azad olmamış bəzi hakimlərin məişət zorakılığı ilə bağlı işlərin spesifikliyini nəzərə almadan qərarlar qəbul etməsinə gətirib çıxarır. Problemin həllinin ən optimal yolu xüsusi ixtisaslaşmış məhkəmələrin yardılmasıdır. Lakin sistem xarakterli ciddi struktur islahatlarının tələb olunduğu belə islahatın real görünmədiyi hazırkı vəziyyətdə hakimlərin ixtisaslaşması daha məqsədəuyğun görünür. Qadın hakimlərin sayının az olduğu hazırki şəraitdə bu ən səmərəli həll yolu ola bilər.

**3. Hakimlərin xüsusi hazırlığı üzrə milli tədris və təlim proqramlarının hazırlanması.** Avropa Şurası tərəfindən artıq bir sıra vəsaitlər hazırlanmışdır. Bunlara «Qadınların ədalət mühakiməsinə çıxış imkanlarının təmin edilməsi haqqında hakimlər və prokurorlar üçün təlim vəsaiti»ni (Müəlliflər: E. Duban və İ Radağiç)[29] və onun əsasında tərtib edilmiş "Qadinların ədalət mühakiməsinə çıxışı: praktik hüquqşünaslar üçün bələdçini"[30] və "Qadınların ədalət mühakiməsinə çatimlılıq mövzusunda mentorluq proqramının hazırlanmasına dair hüquqşünaslar üçün bələdçi"ni misal[31] göstərmək olar. İndiyədək hakimlər üçün həmin vəsaitlərdən də istifadə etməklə müxtəlif təşkilatlar tərəfindən bir sıra analoji təlimlər keçirilib. Lakin spesifik ehtiyaclar nəzərə alınmaqla milli tədris və təlim proqramlarının hazırlanması və tətbiqi xüsusi ixtisaslaşmış hakimlərin hazırlanması prosesində mühüm rol oynaya bilər.

***4. Məişət zorakılığı ilə bağlı işlər üzrə qərar qəbul edərkən hakimlərin risk qiymətləndirməsinin nəticələrinə əsaslanması.*** Risk qiymətləndirməsi cəzanın icrasının təxirə salınması, şərti məhkum etmə, şərti azad etmə haqqında qərarlar qəbul edilərkən həmin qərarların gələcəkdə zərərçəkmişə və ya başqalarına qarşı zorakılıq riski yarada bilmə ehtimalını nəzərə almağa imkan verə bilər, çünki risk qiymətləndirilməsi aparılmadan qəbul edilən qərarların zorakılıq riski yaratma ehtimalı heç bir halda istisna olunmamalıdır. Ris qiymətləndirməsi həbs qətimkan tədbiri ilə bağlı qərarlar qəbul edilən zaman da əhəmiyyətlidir. Bu halda hakimlər zorakılıq törətmiş şəxs tərəfindən zərər çəkmiş şəxslər və ya onların ailə üzvləri üçün gözlənilən real təhlükə ehtimalını nəzərə almaq imkanı əldə edirlər.

**5. Məhkəmə binalarında müvafiq təhlükəsizlik tədbirlərinin gücləndirilməsi.** Mövcud təsrübənin təhlili göstərir ki, yalnız yeni tikilmiş məhkəmə binalarında müvafiq təhlükəsizlik tədbirləri üçün şərait mövcuddur. Köhnə məhkəmə binalarında proses iştirakçılarının, həmçinin binada oaln digər şəxslərin təhlükəsizliyinin təmin edilməsi (məsələn, binaya daxil olan şəxsin silahlı olub-olmaması) üçün heç bir şərait yoxdur. Bu, məişət zorakılığı qurbanları və onların yaxınları üçün ciddi təhlükə yaradır. Köhnə məhkəmə binalarında təhlükəsizlik üçün zəruri şəraitin yaradılması ilə yanaşı, yeni binalarda da təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə ehtiyac var, çünki yeni binalarda belə bəzən təhlükəsizlik tədbirlərinə kifayət qədər ciddi yanaşılmır.

**6. Məişət zorakılığı ilə bağlı işlər üzrə iclasların keçirildiyi məhkəmə zalının təşkili.** Məhkəmə zalının uyğun təşkili xüsusi əhəmiyyət kəsb edir. Xüsusi olaraq zərər çəkmiş şəxslər üçün nəzərdə tutulan təhlükəsiz və rahat otaqların, tərəflər üçün ayrıca gözləmə yerlərinin olması, uşaqlara yerində qulluq üçün tədbirlərin görülməsi müasir ədliyyə sisteminin diqqət yetirdiyi vacib məsələlərdəndir. Mövcud təcrübənin təhlili göstərir

[29] 16807626a5 (coe.int)

[30] 16809c8283 (coe.int)

[31] A4_AZE_version_Methodology_16072020 (coe.int)

ki, yalnız yeni tikilmiş məhkəmə binalarında bu məsələlər qismən həll olunub.

## 3.3. Məhkəmə qərarlarının icrası ilə bağlı təkliflər

**1. Mühafizə orderlərinin icrasına davamlı nəzarət məqsədilə sutkada 24 saat fəaliyyət göstərən növbəlilik sisteminin tətbiqi.** Mühafizə orderlərinin icrası ilə bağlı problemlər sırasında ən vacib məsələlərdən biri iş vaxtı başa çatdıqdan sonra icra məmurunun orderin tələblərinə əməl olunub-olunmamasına nəzarət etməməsidir. Bu səbəbdən də mühafizə orderinin icrasına nəzarət üçün icra məmurlarının növbəlilik sisteminin tətbiqi vacibdir. Davamlı nəzarətin təmin edilməsi məqsədilə elektron nəzarət cihazlarından istifadə daha məqsədəuyğun olardı.

**2. Aliment fondunun yaradılması.** Təcrübə göstərir ki, alimentlə bağlı qərarların icrasında ciddi problemlər var.. Ona görə də aliment fondunun yaradılması vacibdir. Borclu şəxslərin hər hansı rəsmi iş yerinin olmaması və bu səbəbdən də ödəmənin yönləndirilməsi üçün hər hansı vəsaitin yoxluğu alimentlə bağlı məhkəmə qərarlarının icrasını çətinləşdirir. Xüsusilə əlilliyi olan şəxslərə münasibətdə qətnamələrin icrası çətinlik yaradır. Aliment fondunun olmaması aliment almalı olan məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquqlarının təmin edilməsi imkanlarını azaldır.

**3. Uşaqla ünsiyyət sahəsində məhkəmə qərarlarının icrası prosesində multidissiplinar yanaşmanın tətbiqi.** Təcrübə göstərir ki, bir sıra hallarda uşaqlar zorakılığa məruz qalmış anadan zorla alınır və ata tərəfindən anaya nifrət ruhunda tərbiyə olunurlar. Davamlı psixoloji təzyiq altında olan uşaqlar ana ilə ünsiyyətdən imtina edirlər. Belə hallarda icra məmurları da ünsiyyətlə bağlı qərarların icrasında ciddi çətinliklərlə qarşılaşırlar. Bu səbəbdən də ilk növbədə məhkəmələr bu işlərə həssaslıqla yanaşmalı, uşaqların psixoloji təsirdən azad olması və heç bir kənar təsir olmadan mövqe ifadə etməsi üçün zəruri şəraitin yaradılması istiqamətində lazımi tədbirlər görməlidirlər. Bu baxımdan məhkəmələr və icra qurumları tərəfindən multidissiplinar yanaşmanın tətbiqi zəruridir.

## İstinadlar


1. Compendium of International and National Legal Frameworks on Domestic Violence. FIRST EDITION, JANUARY 2019. The World Bank Group.

https://openknowledge.worldbank.org/bitstream/handle/10986/31146/CompendiumDomesticViolencePt1.pdf?sequence=2

2. Учебное руководство для судей и прокуроров по обеспечению доступа женщин к правосудию. 16807626a5 (coe.int)

3. Qadınların ədalət mühakiməsinə çıxışı: praktik hüquqşünaslar üçün bələdçi.

16809c8283 (coe.int)

4. OHCHR | Convention on the Elimination of All Forms of Discrimination against Women

5. THE 17 GOALS | Sustainable Development (un.org)

6. İstanbul Convention Action against violence against women and domestic violence/ Home (coe.int

7. CEDAW/C/GC/33, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə komitəsinin 23 iyun 2015-ci il tarixili 33 saylı tövsiyəsi

8. CETS 197 Council of Europe Convention on Action against Trafficking in Human Beings (coe.int)

9. Lanzarote Convention (coe.int)

10. Council of Europe Gender Equality Commission. 2013. Feasibility Study: Equal Access to Justice for Women

11. Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı

12. Dr Şazia Çoudri. Qadınların ədalət mühakiməsinə çıxişıı praktik hüquqşünaslar üçün bələdçi.

13. COUNCIL OF EUROPE GENDER EQUALITY STRATEGY 2018-2023. 16808b47e1 (coe.int)

14. Ədalət Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası, “Avropa məhkəmə sistemləri – Ədalət mühakiməsinin səmərəliliyi və keyfiyyəti”, Ədalət mühakimısinin səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) araşdırmaları. №23, 2016-cı il nəşri (2014-cü ilin məlumatları)

15. Стратегия ПРООН по обеспечению гендерного равенства на 2018–2021 годы. pdf (undocs.org)

16. Azərbaycanda qadınların ədalət mühakiməsinə çıxişı üçün maneələr, hüquqi müdafiə vasitələ-

ri və ən yaxşı təcrübələr. 16808e9a28 (coe.int)

17. Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin Ümumi Tövsiyələrinin Seçmə Toplusu. Microsoft Word Buklet 3 1 updated+ (un.org)

18. Qadınlara Qarşı Gender Zorakılığı Haqqında 35 saylı Ümumi Tövsiyə.Treaty bodies Download (ohchr.org)

19. Элизабет Дюбан. Исследование по вопросам предотвращения и борьбы с насилием в отношении женщин и домашним насилием, в том числе в ситуациях социального неблагополучия, в Российской Федерации.

20. Məişət zorakılığının yayılma səviyyəsinin və onu törədən səbəblərin monitorinqi çərçivəsində ailə, qadın və uşaq problemləri üzrə dövlət komitəsinə ünvanlanmış müraciətlər əsasında araşdırmaya dair hesabat. 2021.

21. Recommendation Rec(2002)5 of the Committee of Ministers to member states on the protection of women against violence. COUNCIL OF EUROPE (coe.int)

22. The role of civil society in the development of victims' rights and delivery of victims' services. Role of NGOs in providing victim support _ FINAL_27112018_clean (mdtfjss.org.rs)

23. TrainingManualAccessJustice_EN.pdf (ohchr.org)

24. Avropa Şurası (2017), Hakimlər və prokurorlar üçün qadınların ədalət mühakiməsinə çıxışının təmin edilməsi üzrə tədris vəsaiti. Ümumi hissə. 16807626a5 (coe.int)

25. Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi (2015), Qadınların ədalət mühakiməsinə çıxışına dair 35 saylı Ümumi tövsiyə

# ƏLAVƏLƏR

## Əlavə 1. Məişət zorakılığı cinayətləri ilə bağlı statistika

| 2020-ci ildə məişət zorakılığı (ailə münaqişəsi) nəticəsində baş vermiş cinayətlər | | | |
|---|---|---|---|
| | | | |
| | **Cəmi** | **onlardan törədilmişdir** | |
| | | **sərxoş vəziyyətdə** | **əvvəllər də cinayət törədənlər** |
| **Qeydə alınmış cinayətlərin sayı - cəmi** | 1 260 | 77 | 179 |
| o cümlədən: | | | |
| qəsdən adam öldürmə | 54 | 1 | 5 |
| adam öldürməyə cəhd | 21 | 2 | 4 |
| özünü öldürmə həddinə çatdırma | 1 | – | – |
| qəsdən sağlamlığa ağır zərər vurma | 44 | 5 | 13 |
| qəsdən sağlamlığa az ağır zərər vurma | 119 | 6 | 17 |
| qəsdən sağlamlığa yüngül zərər vurma | 989 | 58 | 130 |
| əzab vermə | 6 | – | 1 |
| öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə | 6 | 3 | 3 |
| digər | 20 | 2 | 6 |

| 2020-ci ildə məişət zorakılığı cinayətləri nəticəsində zərərçəkənlər | | | | |
|---|---|---|---|---|
| | **Zərərçəkənlərin sayı** | **onlardan qadınlar** | **onlardan** | |
| | | | **18 yaşadək qızlar** | **hamilə qadınlar** |
| **Cəmi** | **1 300** | **987** | 8 | **2** |
| o cümlədən: | | | | |
| qəsdən adam öldürmə | 59 | 41 | 1 | 2 |
| adam öldürməyə cəhd | 23 | 17 | – | – |
| özünü öldürmə həddinə çatdırma | 1 | 1 | – | – |
| qəsdən sağlamlığa ağır zərər vurma | 44 | 14 | – | – |
| qəsdən sağlamlığa az ağır zərər vurma | 124 | 97 | – | – |
| qəsdən sağlamlığa yüngül zərər vurma | 1 014 | 793 | 5 | – |
| əzab vermə | 8 | 7 | 2 | – |
| öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə | 8 | 6 | – | – |
| digər | 19 | 11 | – | – |

| Məişət zorakılığı ilə bağlı cinayətlər nəticəsində zərərçəkmiş şəxslər (Azərbaycan Respublikasınınşəhər və rayonları üzrə) | | | |
|---|---|---|---|
| | | **2020** | |
| | **Məişət zorakılığı ilə bağlı cinayətlər nəticəsində zərərçəkmiş şəxslər** | **onlardan** | |
| | | **qadınlar** | **yetkinlik yaşına çatmayanlar** |
| **Azərbaycan Respublikası - cəmi [1)]** | **1 300** | **987** | **15** |
| **Bakı şəhəri - cəmi [1)]** | **492** | **397** | **7** |
| o cümlədən: | | | |
| Binəqədi rayonu | 55 | 44 | 1 |
| Xətai rayonu | 43 | 34 | – |
| Xəzər rayonu | 95 | 75 | – |
| Qaradağ rayonu | 65 | 52 | 1 |
| Nərimanov rayonu | 35 | 26 | – |
| Nəsimi rayonu | 27 | 24 | – |
| Nizami rayonu | 19 | 16 | – |
| Pirallahı rayonu | 2 | 2 | – |
| Sabunçu rayonu | 68 | 57 | 3 |
| Səbail rayonu | 14 | 11 | – |
| Suraxanı rayonu | 50 | 39 | 2 |
| Yasamal rayonu | 19 | 17 | – |
| **Naxçıvan Muxtar Respublikası - cəmi [1)]** | – | – | – |
| **Abşeron-Xızı iqtisadi rayonu - cəmi** | **152** | **124** | **1** |
| o cümlədən: | | | |
| Sumqayıt şəhəri | 77 | 61 | 1 |
| Abşeron rayonu | 74 | 62 | – |
| Xızı rayonu | 1 | 1 | – |
| **Dağlıq Şirvan iqtisadi rayonu - cəmi** | **28** | **19** | – |
| o cümlədən: | | | |
| Ağsu rayonu | 10 | 7 | – |
| İsmayıllı rayonu | 13 | 8 | – |
| Qobustan rayonu | 2 | 1 | – |
| Şamaxı rayonu | 3 | 3 | – |
| **Gəncə-Daşkəsən iqtisadi rayonu - cəmi** | **91** | **71** | – |
| o cümlədən: | | | |
| Gəncə şəhəri | 52 | 40 | – |

| | | | |
|---|---|---|---|
| Naftalan şəhəri | – | – | – |
| Daşkəsən rayonu | 8 | 8 | – |
| Goranboy rayonu | 13 | 10 | – |
| Göygöl rayonu | 13 | 8 | – |
| Samux rayonu | 5 | 5 | – |
| **Qarabağ iqtisadi rayonu - cəmi** | **37** | **25** | – |
| o cümlədən: | | | |
| Xankəndi şəhəri | – | – | – |
| Ağcabədi rayonu | 4 | 2 | – |
| Ağdam rayonu | 1 | 1 | – |
| Bərdə rayonu | 21 | 14 | – |
| Füzuli rayonu | – | – | – |
| Xocalı rayonu | 1 | – | – |
| Xocavənd rayonu | – | – | – |
| Şuşa rayonu | – | – | – |
| Tərtər rayonu | 10 | 8 | – |
| **Qazax-Tovuz iqtisadi rayonu - cəmi** | **57** | **40** | **1** |
| o cümlədən: | | | |
| Ağstafa rayonu | 3 | 2 | – |
| Gədəbəy rayonu | 20 | 16 | – |
| Qazax rayonu | 4 | 4 | – |
| Şəmkir rayonu | 14 | 9 | 1 |
| Tovuz rayonu | 16 | 9 | – |
| **Quba-Xaçmaz iqtisadi rayonu - cəmi** | **62** | **45** | **2** |
| o cümlədən: | | | |
| Xaçmaz rayonu | 22 | 16 | 2 |
| Quba rayonu | 17 | 14 | – |
| Qusar rayonu | 11 | 7 | – |
| Siyəzən rayonu | 7 | 4 | – |
| Şabran rayonu | 5 | 4 | – |
| **Lənkəran-Astara iqtisadi rayonu - cəmi** | **55** | **36** | – |
| o cümlədən: | | | |
| Astara rayonu | 13 | 8 | – |
| Cəlilabad rayonu | 6 | 4 | – |
| Lerik rayonu | 4 | 2 | – |
| Lənkəran rayonu | 20 | 8 | – |

| | | | |
|---|---|---|---|
| Masallı rayonu | 8 | 5 | – |
| Yardımlı rayonu | 4 | 1 | – |
| **Mərkəzi Aran iqtisadi rayonu - cəmi** | **101** | **74** | **1** |
| o cümlədən: | | | |
| Mingəçevir şəhəri | 13 | 11 | – |
| Ağdaş rayonu | 26 | 19 | 1 |
| Göyçay rayonu | 8 | 5 | – |
| Kürdəmir rayonu | 25 | 16 | – |
| Ucar rayonu | – | – | – |
| Yevlax rayonu | 23 | 18 | – |
| Zərdab rayonu | 6 | 5 | – |
| Mil-Muğan iqtisadi rayonu - cəmi | **57** | **37** | – |
| o cümlədən: | | | |
| Beyləqan rayonu | 17 | 12 | – |
| İmişli rayonu | 8 | 4 | – |
| Saatlı rayonu | 11 | 7 | – |
| Sabirabad rayonu | 21 | 14 | – |
| **Şəki-Zaqatala iqtisadi rayonu - cəmi** | **78** | **52** | – |
| o cümlədən: | | | |
| Balakən rayonu | 22 | 17 | – |
| Qax rayonu | 10 | 6 | – |
| Qəbələ rayonu | 9 | 6 | – |
| Oğuz rayonu | 2 | 2 | – |
| Şəki rayonu | 19 | 13 | – |
| Zaqatala rayonu | 16 | 8 | – |
| **Şərqi Zəngəzur iqtisadi rayonu - cəmi** | **7** | **6** | – |
| o cümlədən: | | | |
| Cəbrayıl rayonu | 5 | 5 | – |
| Kəlbəcər rayonu | 1 | – | – |
| Qubadlı rayonu | – | – | – |
| Laçın rayonu | – | – | – |
| Zəngilan rayonu | 1 | 1 | – |
| **Şirvan-Salyan iqtisadi rayonu - cəmi** | **83** | **61** | **3** |
| o cümlədən: | | | |
| Şirvan şəhəri | 16 | 11 | 1 |
| Biləsuvar rayonu | 25 | 17 | – |
| Hacıqabul rayonu | 3 | 3 | – |
| Neftçala rayonu | 8 | 7 | 2 |

| | | | |
|---|---|---|---|
| Salyan rayonu | 31 | 23 | – |

## Əlavə 2. Avropa nsan hüquqları Məhkəməsinin məişət zorakılığı ilə bağlı işlər üzrə qərarlarından seçmələr [32]

**Durmaz Türkiyəyə qarşı**

13 noyabr 2014

Ərizəçinin qızı həyat yoldaşı tərəfindən təcili yardım məntəqəsinə aparıldıqdan sonra xəstəxanada ölüb, həkimlərə isə onun dərman preparatlarından dozadan artıq istifadə etdiyi barədə məlumat verib. O, polisə verdiyi ifadəsində bildirib ki, həmin gün onların arasında mübahisə baş verib və nəticədə onu vurduğunu bildirib. Mərhumun atası nəticədə onun qızının intihar etmədiyini və onun ölümünə görə məhz ərinin məsuliyyət daşıdığını iddia edərək prokurora şikayət ərizəsi ilə müraciət edib. Prokuror tərəfindən aparılmış istintaq nəticəsində qızın intihar etdiyi qənaətinə gəlinib. Ərizəçinin buna etirazı yerli məhkəmələr tərəfindən rədd edilib. Məhkəmə qarşısında ərizəçi qızının ölümü ilə bağlı aparılan istintaqın effektiv olmadığı iddiası ilə şikayət edib.

Məhkəmə, Türkiyənin hakimiyyət orqanları tərəfindən ərizəçinin qızının ölümü ilə bağlı istintaqın aparılmasında aşkar səriştəsizliyi (effektiv rəsmi istintaq aparmaq öhdəliyi) səbəbindən və cinayət-prosessual baxımından Konvensiyanın **2-ci maddəsinin** (yaşamaq hüququ) tələblərinin **pozulduğuna** dair qərarını qəbul edib. Opuzun Türkiyə hökumətinə qarşı işində xüsusilə qeyd edildiyi kimi,məhz daha çox qadınlar məişət zorakılığının qurbanına çevrilirlər və Türkiyədə ayrı-seçkiliyin yol verildiyi ümumi məhkəmə (ədalət mühakiməsi) passivliyi məişət zorakılığı hallarının geniş yayılması üçün əlverişli mühit yaradır.

**Yaşamaq hüququ (İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 2-ci maddəsi)**

**Kontrovà Slovakiyaya qarşı**

31 may 2007

2 noyabr 2002-ci il tarixində ərizəçi (iddiaçı) əri tərəfindən zorakılığa məruz qaldığına və elektrik kabeli ilə döyüldüyünə görə cinayət işinin qaldırılması üçün şikayət etmişdir. Daha sonra ərinin müşayiəti ilə cinayət işi ilə bağlı şikayət ərizəsini geri götürməyə çalışmışdır. Nəticə etibarı ilə o, öz şikayət ərizəsini dəyişdirərək ərinin ona qarşı iddia edilən hərəkətlərini heç bir tədbir görülməsini tələb etməyən xırda qanun pozuntusu kimi dəyərləndirildi. 31 dekabr 2002-ci ildə onun əri 1997 və 2001-ci il təvəllüdlü qızı və oğlunu odlu silahla qətlə yetirdi . Avropa İnsan Hüquqları Məhkəməsi qarşısında ərizəçi ərinin təhqiredici və təhdidedici davranışından məlumatlı olan polisin onun uşaqlarının həyatının qorunmasının təmin edilməsi üçün lazımi tədbirlərin görmədiyini iddia etdi. O, daha sonra təzminat alın masının mümkün olmadığı barədə şikayət etdi.

Avropa İnsan Hüquqları Məhkəməsi hakimiyyət orqanlarının ərizəçinin uşaqlarının həyatlarının qorunması üçün zəruri addımların atılmaması ilə bağlı İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 2-ci Maddəsinin (yaşamaq hüququ) pozulması faktını müəyyən etmişdir. Məhkəmə qeyd etmişdir ki, noyabr 2002-ci il tarixli cinayət barədə şikayət ərizəsi və dekabr 2002-ci il tarixində polisə telefon zənglərini nəzərə alaraq, ərizəçinin ailəsindəki vəziyyət barədə yerli polis məlumatlı olub. Buna cavab olaraq, qüvvədə olan qanuna əsasən, polis aşağıdakı zəruri tədbirləri görməyə borclu idi: şikayətçinin cinayət barədə müraciətini qeydə almaq; şikayətçinin əri barədə təxirəsalınmaz zəruri istintaq və cinayət-prosessual tədbirləri həyata keçirmək; fövqəladə çağırışların müvafiq qaydada qeydə alınması və növbətçi hissədə növbəni təvhil alan polis həmkarla-

[32] Məişət Zorakılığı (coe.int)

rını vəziyyət barədə məlumatlandırmaq; və şikayətçinin ərinin odlu silaha sahib olması və bu silahdan istifadə etməklə hədələmə iddiası ilə bağlı zəruri tədbirlər görmək. Buna baxmayaraq, bu işdə iştirak edən polis əməkdaşlarından biri törədilmiş cinayət hərəkətinin cinayət tərkibi olmayan və heç bir tədbir görülməsini tələb etməyən xırda qanun pozuntusu kimi xarakterizə olunması üçün hətta şikayətçiyə və ərinə 2002-ci ilin noyabrında baş vermiş cinayət barədə iddia ərizəsinin dəyişdirilməsində köməklik göstərmişdir. Nəticədə, polisin vəzifə borclarının lazımınca yerinə yetirməməsi ucbatından bilavasitə ərizəçinin uşaqlarının həyatlarının itirilməsi faktı yerli məhkəmələr tərəfindən müəyyən edilmiş və Slovakiya hökuməti tərəfindən etiraf edilmişdir. Əlavə olaraq, məhkəmə Konvensiyanın **13-cü Maddəsinin pozulduğunu** müəyyən etmişdir (effektiv hüquqi müdafiənin təmin edilməsi), belə ki, dəymiş mənəvi zərərə görə təzminatın alınması üçün ərizəçi məhkəməyə müraciət etmə imkanına malik olmalı idi, lakin bu cür hüquqi müdafiə vasitəsi şikayətçi üçün təmin edilməyib.

**<u>Talpis İtaliya hökümətinə qarşı</u>**

2 mart 2017-ci il

Bu şikayət ərizəçinin əri tərəfindən fiziki zorakılığa məruz qalması, oğlunun qətlə yetirilməsi və özünün ölümünə cəhdlə nəticələnən məişət zəminində törədilmiş zorakılıq işi ilə bağlıdır. Məhkəmə qərara alıb ki, ərizəçinin oğlunun öldürülməsi və onun özünün ölümünə cəhd edilməsi Konvensiyanın **2-ci maddəsinin** (Yaşama hüququ) **pozulması** hesab edilir. Xüsusən də İtaliyanın hakimiyyət orqanları ərizəçinin şikayətinə müvafiq qaydada baxılmaması və təxirəsalınmaz zəruri qoruma tədbirlərinin görülməməsi ərizəçinin oğlunun ölümünə və anasının ölümünə cəhdlə nəticələnən zorakılıq əməlinin baş verməsinə səbəb olmuş və bununla da cəzasızlıq mühiti yaratmışlar. Buna görə də hakimiyyət orqanları iş üzrə sözügedən şəxslərin həyatlarının qorunması ilə bağlı dövlətin rəsmi öhdəliyinin yerinə yetirilməsini təmin edə bilməyiblər. Məhkəmə həmçinin müəyyən edib ki, hakimiyyət orqanları tərəfindən ərizəçinin məişət zorakılığı aktlarından qorunmasını təmin etməklə bağlı dövlətin rəsmi öhdəliyinin yerinə yetirilməməsi nəticəsində Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın qadağan edilməsi) **pozulması** halı baş verib. Bu münasibətdə, ərizəçi öz uşaqları ilə zorakı davranış kimi xarakterizə edilə bilməsi üçün kifayət qədər ciddi hesab olunan məişət zorakılığı mühitində yaşamaq məcburiyyətində qaldığını xüsusilə vurğulayıb. Buradan da məhkəmə icraatında nümayiş etdirilən passivlik də daxil olmaqla cinayət prosesini həyata keçirən orqanların fəaliyyətinin qənaətbəxs omadığı və Konvensiyanın 3-cü maddəsinn tələblərinə cavab vermədiyi qənaətinə gəlinib. Məhkəmə yekun olaraq, ərizəçinin aidiyyati orqanları tərəfindən sözügedən zorakılığı az əhəmiyyətli hesab etmiş və sonda onu təsdiq edən dövlət orqanlarının fəaliyyətsizliyi (hərəkətsizliyi) nəticəsində bir qadın kimi ayrı-seçkilik qurbanına çevrilməsini əsas gətirərək Konvensiyanın **2-ci və 3-cü maddələri** ilə birlikdə **14-cü maddənin** (ayrı-seçkiliyin qadağan edilməsi) **pozulduğunu** müəyyən edib.

**<u>Branko Tomašić və Digərləri Xorvatiyaya qarşı</u>**

15 yanvar 2009

Ərizəçilər körpənin və onun anasının qohumları idi, qadının əri ailəsinə qarşı ölümlə hədələmə ilə bağlı cəza çəkdiyi cəzaçəkmə müəssisəsindən azad edildikdən bir ay sonra həm körpəni, həm də onun anasını qətlə yetirmiş və daha sonra özü də intihar etmişdir. İlkin olaraq, onun həbsxanada və həbsdən azad edildikdən sonra zərurət yaranarsa, məcburi psixiatrik müalicədən keçməsi barədə qərar qəbul edilmişdir, lakin apellyasiya məhkəməsi onun həbsdən azad edildikdən sonra müalicəsinin dayandırılması barədə qərar qəbul etmişdir. Ərizəçilər xüsusilə şikayət edib ki, Xorvatiya dövləti tərəfindən qətlə yetirilən uşaq və onun anasının qorunması istiqamətində adekvat tədbirlər görülməyib və onların ölümlərinə görə Dövlətin məsuliyyəti lazımi qaydada araşdırılmayıb.

Məhkəmə qərara gəlib ki, Xorvatiya hökumətinin uşağın və anasının ölümünün qarşısının alınması istiqamətində lazımi tədbirləri görməməsi səbəbindən Konvensiyanın **2-ci maddəsinin** ("Yaşamaq hüququ") **pozulması** baş verib. Xüsusilə qeyd olunub ki, yerli məhkəmələrin qənaətləri və psixiatrik müayinə nəticələrini özündə əks etdirən həkim rəyləri heç şübhəsiz ki, hakimiyyət orqanlarının ana və uşağın həyatına qarşı təhdidlərin ciddi xarakter daşıdığından və onların qorunması üçün bütün zəruri tədbirlərin görülməsinin vacibliyindən məlumatlı olduqlarını göstərib. Məhkəmə həmçinin aidiyyati orqanların işə münasibətində və davranışlarında bir sıra çatışmazlıqları da qeyd edib: baxmayaraq ki, cinayət təqibi məqsədləri üçün tərtib edilmiş həkim-psixiatrik komissiyasının rəyində cinayəti törətmiş şəxsin davamlı olaraq psixiatrik müalicə alma ehtiyacı xüsusilə vurğulanıb, Xorvatiya hökuməti belə müalicənin faktiki olaraq və düzgün təmin edildiyini sübuta yetirə bilməyib; təqdim olunan sənədlər onu göstərir ki, ərin cəza çəkmə müəssisəsində aldığı psixiatrik müalicə ixtisaslı həkim-psixiator tərəfindən deyil, həbsxana heyəti ilə şifahi danışıq seanslarından ibarət olub; nə müvafiq göstərişlərdə, nə də məcburi psixiatrik müalicəni təyin edən məhkəmə qərarında müalicənin necə aparılması və təmin edilməsi barədə kifayət qədər ətraflı məlumat verilməyib; və ən nəhayət, ərin hələ uşaq və anasının həyatına təhlükə yaradıb-yaratmadığını qiymətləndirmək üçün cəzaçəkmə müəssəsindən azad edilməzdən əvvəl həkim müayinəsindən keçməsi təmin edilməyib. Məhkəmə buna görə də belə bir qənaətə gəldi ki, müvafiq yerli orqanlar uşaq və anasının həyatlarını qorumaq üçün lazımi tədbirləri görməyib.

## Məişət zorakılığı ilə bağlı şikayətlər üzrə aparılan araşdırmaların qeyri-qənaətbəxşliyi

**D.P. Litvaya qarşı (Ərizə № 27920/08)**

22 oktyabr 2013-cü il (şikayətin siyahıdan çıxarılması barədə qərar)

Ərizəçi 1989-cu ildə evlənib və cütlük 2001-ci ildə boşanıb. Onların dörd usağı olub (1988, 1990, 1992 və müvafiq olaraq 2000-ci il təvəllüdlü). Ərizəçi xüsusən şikayət etmişdir ki, ona və onların üç böyük uşağına qarşı keçmiş əri tərəfindən qəsdən və mütəmadi olaraq döyülmə və digər fiziki zorakılıq hərəkətləri törədilməsi şikayəti əsasında başlanan cinayət işi uzadılmış və ağlabatan müddət ərzində araşdırılması təmin olunmamışdır. Nəticədə isə icraat müddətinin başa çatması ilə əlaqədar cinayət təqibinə xitam verilmiş və onun keçmiş əri məhkəmə tərəfindən layiq olduğu cəzanı almamışdır. Məsələnin sülh yolu ilə həllini təmin etmək cəhdləri uğursuzluqla nəticələndikdən sonra Litva Hökuməti 2012-ci ilin sentyabr ayında ərizədə göstərilən məişət zorakılığının qarşısının alınmaması ilə bağlı dövlətin məsuliyyət məsələsini həll etmək üçün birtərəfli bəyannamə verməyi təklif etmişdir. Məhkəmənin presedent hüququnu və işin şərtlərini nəzərə alaraq, Hökumət xüsusilə etiraf etmişdir ki, qeyd edilən iş üzrə cinayət-hüquqi mexanizmlərin həyata keçirilməsi natamam olduğu üçün dövlətin Konvensiyanın 3-cü maddəsi (işgəncələrin qadağan olunması) üzrə pozitiv öhdəliklərinin pozulmasına gətirib çıxarmışdır. Məhkəmə Hökumətin verdiyi bəyannamənin şərtlərini və orada göstərilən öhdəliklərə riayət edilməsini təmin etmək üçün rəhbər prinsipləri nəzərə alaraq, Konvensiyanın 37-ci maddəsinə (şikayətlərin siyahıdan çıxarılması) uyğun olaraq işin siyahısından çıxarılmasına dair qərar qəbul etmişdir.

**E.M. Rumıniyaya qarşı (43994/05 saylı)**

30 oktyabr 2012

Ərizəçi bir yaş yarımlıq qızının gözləri qarşısında törədilmiş məişət zorakılığı ilə bağlı cinayət işi üzrə aparılan istintaqın səmərəli olmadığını iddia edib. Rumıniya məhkəmələri ərizəçinin əri tərəfindən zorakılığa məruz qalması haqqında iddiaların sübuta yetirilmədiyini əsas gətirərək ərizəçinin şikayətlərini rədd etmişdir.

Məhkəmə qərara alıb ki, istintaqın aparılma qaydası ərizəçinin maddə 3 üzrə tələb olunan effektiv mü-

dafiəsinin təmin edilməsi üçün adekvat olmadığını nəzərə alaraq prosessual sonluq üzrə Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya alçaldıcı rəftarın qadağan edilməsi) **pozulması** baş verib. Xüsusilə də qeyd olunur ki, ərizəçi ilk şikayətini edərkən özünü və qızını ərinin aqressiv və zorakı davranışından qorumaq məqsədilə aidiyyati dövlət qurumlarına zəruri yardım və müdafiə tədbirlərinin görülməsi üçün müraciət etmişdir. Müxtəlif dövlət orqanları arasında əməkdaşlığı və məişət zorakılığına qarşı tədbirlərin müəyyən edilməsi və yerinə yetirilməsini təmin etmək üçün qeyri-məhkəmə tədbirlərini nəzərdə tutan qanunvericilik çərçivəsinin mövcud olmasına və ərizəçinin ittihamlarını təsdiq edən mötəbər sübutları (prima facie) təqdim edən tibbi arayışın olmasına baxmayaraq, iş üzrə materiallardan da göründüyü ki, bu məqsədlə hər hansı səmərəli tədbir görülməyib.

**<u>Valiulienė Litvaya qarşı</u>**

26 mart 2013

Bu şikayət məişət zorakılığı qurbanı olan qadının hakimiyyət orqanlarının onun partnyoru tərəfindən yol verilən pis rəftarın araşdırmaması və partnyorunu məsuliyyətə cəlb etməməsi iddiaları ilə bağlıdır.

Məhkəmə tərəfindən Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya alçaldıcı rəftarın qadağan olunması) **pozulmasına** dair qərar qəbul edilib və bu işdə tətbiq olunan hüquqi praktikaların və həyata keçirilən cinayət qanunu mexanizmlərinin ərizəçinin məişət zorakılığı hallarına qarşı adekvat qorunması üçün yetərli sayılmayıb. Xüsusən də, iş üzrə cinayət araşdırmasında gecikmələrin baş verdiyi və prokuror tərəfindən istintaqın dayandırılması barədə qərar qəbul edildiyi bildirilir.

**İşgəncə və qeyri-insani və ya alçaldıcı rəftarın qadağan edilməsi**

**(Konvensiyanın 3-cü maddəsi)**

**Hakimiyyət orqanları tərəfindən zərər çəkmiş şəxslərin məişə zorakılığından qorunması üçün tədbirlərin yetərsiz olması ilə bağlı iddia**

**<u>N.P. və N.I. Bolqarıstana qarşı (Ərizə № 72226/11)</u>**

3 may 2016-cı il (ərizənin qəbuledilənliyinə dair qərar)

Ərizəçilər – qadın və onun azyaşlı oğlu şikayət etmişlər ki, onlar məişət zorakılığının qurbanıdırlar və Bolqarıstanın səlahiyyətli orqanları onları qadının cinsi tərəf-müqabilinin və uşağın atasının zorakı hərəkətlərindən qorumaq üçün lazımi tədbirlər görməmişdir. Məhkəmə şikayəti açıq-aydın əsassız sayaraq ərizəni qəbuledilməz elan etmiş və bu qənaətə gəlmişdir ki, dövlətin Konvensiyanın 3-cü (işgəncələrin qadağan olunması), 13-cü (səmərəli hüquqi müdafiə vasitələri hüququ) və ya 14-cü maddəsi (ayrı-seçkiliyin qadağan olunması) üzrə pozitiv öhdəliklərini pozduğunu göstərən heç bir əlamət yoxdur. Məhkəmənin şərhinə görə, Bolqarıstanın səlahiyyətli orqanları müvafiq vaxtlarda ərizəçilərin fiziki toxunulmazlığını qorumaq üçün bir neçə növ adekvat addımlar atmışdır.

**<u>E.S. və Digərləri Slovakiyaya qarşı (8227/04 saylı iş)</u>**

15 sentyabr 2009

2001-ci ildə ilk ərizəçi öz ərini tərk etdikdən sonra ona və uşaqlarına (1986, 1988 və 1989cu il təvəllüdlü) qarşı pis rəftara, qızlarından birinə qarşı isə cinsi zorakılığa yol verdiyinə görə ərinin cinayət məsuliyyətinə cəlb olunması üçün hüquq-mühafizə orqanlarına şikayət ərizəsi ilə müraciət etmişdir. İki ildən sonra isə onun əri zorakılıq və və cinsi zorakılığa yol verdiyinə görə məhkum edilmişdir. Ərizəçinin onun həyat yoldaşının evdən çıxmasının göstəriş verilməsi üçün etdiyi müraciət təmin edilməmiş, bununla belə məhkəmə onun ərinin əmlaka (şikayətçi yalnız nikahın pozulması zamanı əmlak payına xitam verə bilərdi) girişini məhdudlaşdırmaq səlahiyyətinə malik olmadığı qənaətinə gəlmişdir. Buna görə birinci ərizəçi və onun uşaqları öz dostlarını və ailəsini tərk etmək məcburiyyətində qalmış və uşaqlardan ikisi məktəblərini dəyişdirməli olmuşlar. Onlar, dövlət orqanları tərəfindən onların məişət zorakılığından qorunması üçün zəruri tədbirlərin görülməsini təmin etmədikləri barədə şikayət ediblər.

Məhkəmə qərara alıb ki, Slovakiya dövləti birinci ərizəçininin və onun uşaqlarının həyat yoldaşının zorakı davranışından qorunması üçün adekvat tədbirlərin görülməsini təmin etməyib və bu hal Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya alçaldıcı rəftarın qadağan edilməsi) və **8-ci maddəsinin** (şəxsi və ailə həyatı hüququ) **pozulması** ilə nəticələnib. Məhkəmə həmçinin qeyd edib ki, iddiaların mahiyyətini və şiddətini nəzərə alaraq, birinci ərizəçi və uşaqlar bir və ya iki ildən sonra deyil, dərhal zəruri qoruma tədbirlərinin görülməsini tələb ediblər. Bundan başqa, birinci ərizəçi, 2002-ci ilin may ayında boşanma prosesi yekunlaşana qədər əmlak bölgüsü üçün müraciət edə və ya 2003cü ilin yanvar ayında qanuna düzəliş edildikdən sonra keçmiş ərinin birgə yaşadıqları ailə evindən çıxarılması üçün məhkəmə qarşısında vəsatət qaldıra bilməmişdir. Buna görə də o, bu müddət ərzində özünün və uşaqlarının effektiv şəkildə qorunmasına nail ola bilməmişdir.

**Ədalətli məhkəmə araşdırması hüququ**

**(Konvensiyanın 6cı maddəsi)**

**<u>Wasiewska Polşaya qarşı</u>**

2 dekabr 2014-cü il (ərizənin qəbuledilənliyinə dair qərar)

Ərizəçi və əri 1997-ci ildə boşanmışlar. Boşanmadan əvvəl ərizəçinin keçmiş əri onu birgə yaşadıqları mənzildən çıxarmış, eləcə də ərizəçinin özünə, onun qızına və qız nəvəsinə məxsus olan şəxsi əşyaları götürməsinə mane olmaq üçün mənzilin açarını dəyişdirmişdir. Ərizəçi keçmiş ərinin ona məxsus mənzildən çıxarılması ilə bağlı məhkəmənin qətnaməsinin icrasının səlahiyyətli orqanlar tərəfindən təmin edilməməsi barədə şikayət etmişdir. Bundan başqa o, bildirmişdir ki, mənzildə qalan əşyalarından və mənzilin özündən istifadə etməsinə imkan verməyən keçmiş ərinə qarşı cinayət işinin başlanması onun üçün demək olar ki, mümkünsüz və əlçatmaz olmuşdur. Məhkəmə hesab etmişdir ki, ərizəçinin onun keçmiş ərinin mənzildən çıxarılmasına dair məhkəmə qətnaməsinin aidiyyəti dövlət orqanları tərəfindən icrasının təmin edilməməsi barədə şikayəti Konvensiyanın 6-cı maddəsinə (ədalətli məhkəmə araşdırması hüququ) uyğun olaraq araşdırılmalıdır. Ərizəçinin daxili hüquqi müdafiə vasitələrindən istifadə imkanlarının tükənmədiyini nəzərə alaraq, Konvensiyanın 35-ci maddəsinə (qəbuledilənlik meyarları) uyğun olaraq şikayət ərizəsi qəbuledilməz elan edilmişdir. Məhkəmə, həmçinin ərizənin qalan hissəsinin qəbuledilməz hesab olunması (açıq-aşkar əsaslandırılmamış) barədə qərar vermişdir.

**D.M.D. Rumıniyaya qarşı (№ 23022/13)**

2 oktyabr 20172

Bu şikayət ərizəçi tərəfindən atasına qarşı verilməklə ərizəçinin atasının məişət zorakılığına yol verməsi iddiası ilə əlaqədardır. Sözügedən iş üzrə məhkəmə çəkişməsi səkkiz ildən artıq müddət ərzində davam edib və ataya öz övladına qarşı fiziki və mənəvi zorakılığa yol vermə ittihamı ilə nəticələnib. Ərizəçi şikayət edib ki, məhkəmə icraatı səmərəli olmayıb və ona dəymiş zərərin ödənilməsi təmin edilməyib. Xüsusən də zərər çəkmişə dəymiş mənəvi zərərə görə təzminatın ödənilməsi ilə bağlı müraciət etdiyi yerli son instansiya məhkəmələri tərəfindən müəyyən edilmişdir ki, onlar təzminat məsələsinin araşdırılmasına baxmalı deyillər, belə ki, nə o, nə də dövlət ittihamçısı (prokuror) daha aşağı instansiya məhkəmələri qarşısında bu tələbi qaldırmamışdır.

Məhkəmə qərara alıb ki, sui-istifadə ittihamları ilə başlanan istintaq prosesinin çox uzun çəkməsi və digər ciddi nöqsanlarla müşayiət olunması nəticəsində Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya alçaldıcı rəftarın qadağan edilməsi) **pozulması** halı baş vermişdir. Bu baxımdan, üzv Dövlətlərin uşaqların şərəf və ləyaqətinin qorunması üçün səy göstərmələrini və praktik olaraq, uşaqların məişət zorakılığı hallarına qarşı qorunması üçün adekvat hüquqi çərçivənin tələb edildiyini xüsusilə qeyd edib. Məhkəmə bu qərarında həmçinin qeyd edib ki, yerli məhkəmələr tərəfindən ərizəçinin təzminat ödənilməsi barədə şikayətinə baxılmaması nəticəsində Konvensiyanın **6-cı maddəsinin 1-ci bəndinin** (Ədalətli məhkəmə araşdırması hüququ) pozulması baş verib, yerli qanunvericilikdə açıq-aydın şəkildə ifadə olunmasına baxmayaraq, onlar hətta zərərçəkmişin rəsmi tələbi olmadan belə, azyaşlı uşaqların işi üzrə təzminat məsələsində qərar qəbul etmək öhdəliyi daşıyır.

**Şəxsi və ailə həyatına hörmət hüququ (Konvensiyanın 8-ci maddəsi)**

Uşağın zorakı davranışdan qorunması

**Y.C. Birləşmiş Krallığa qarşı (№ 4547/10)**

13 mart 2012

Bir neçə ildir bir yerdə yaşayan ərizəçi və onun partnyorunun 2001-ci ildə övladları dünyaya gəlir. 2003-cü ildə spirtli içkinin təsiri ilə partnyorlar arasında yaranan insident sosial xidmət orqanlarının diqqətini cəlb edib. Sonrakı vaxtlar ərzində məişət zorakılığı və alkoqol aludəçiliyi ilə müşayiət edilən insidentlər baş vermiş, 2007-ci ilin sonlarından bu cür insidentlərin ayı artaraq bir neçə dəfə polisin evə çağrılması ilə nəticələnmişdir. Valideynlər arasında baş verən zorakı münaqişə oğlanın xəsarət alması ilə nəticələnmiş və 2008-ci ilin iyununda yerli orqanlar təcili müdafiə orderi əldə etmişlər. Uşağa qayğı prosesinin nəticəsi olaraq uşağın övladlığa verilməsinə icazə verildi. Ərizəçi şikayət edib ki, məhkəmənin onun oğlunun yeganə baxıcısı kimi tanınması barədə qərarı qəbul etməkdən imtina etməsi və uşağın yerləşdirilməsinə dair sərəncam verildikdə bütün vacib faktları nəzərə almaması Konvensiyanın 8-ci maddəsi üzrə (şəxsi və ailə həyatı) hüquqların pozulmasına səbəb olub.

Məhkəmə, uşağın yerləşdirmə göstərişi ilə bağlı qərarın səbəblərinin məqsədəmüvafiq və yetərli olduğunu və ərizəçiyə öz işini təqdim etməsi və qərar qəbuletmə prosesində fəal iştirak etməsi üçün hər cür imkan yaradıldığını əsas gətirərək, Konvensiyanın **8-ci maddəsinin** (şəxsi və ailə həyatına hörmət hüququ) **pozulmadığına** dair qərar qəbul edib. Məhkəmə xüsusilə də iş üzrə toplanan materialları və hesabatları, habelə ərizəçinin atası ilə əlaqəsinin bərpasının uşaqın rifahı üçün təhlükə yarada biləcəyi ehtimalını nəzərə alaraq, Dairə Məhkəməsi hakiminin qəbul etdiyi qərarın əsassız olmadığı qənaətinə gəlib. Müvafiq olaraq, mümkün

olduğu halda onun və ya onun ailə əlaqələrinin uşağın ən yaxşı maraqlarına xidmət etməsi üçün saxlanılmasının vacibliyini nəzərə alaraq, buradan belə məlum olur ki, uşağın təhlükəsiz mühitdə inkişafının təmin edilməsi ehtiyacı daha vacib əhəmiyyət kəsb edir. Bu baxımdan Məhkəmə, spirtli içki aludəçiliyinə son qoymaq və valideynlik işinə yardım edilməsi istiqamətində köməklik göstərilməsi ilə ailəni yenidən bir araya gəlməsi üçün edilən cəhdləri xüsusilə qeyd etmişdir. Ərizəçi uşağın atasından ayrıldığını bildirdikdə, ona məişət zorakılığından qorunmaq üçün əlavə yardım barədə məlumat verilmişdir. Buna baxmayaraq, məlum olmuşdur ki, o, bu yardımdan istifadə etməmiş və uşağın atası ilə barışmışdır.

**Dövlətin fərdlərin fiziki və mənəvi toxunulmazlığını qorunmasını təmin etmək vəzifəsi**

**<u>Kowal Polşaya qarşı</u>**

18 sentyabr 2012-ci il (ərizənin qəbuledilənliyinə dair qərar)

Ərizəçi Konvensiyanın 8-ci maddəsinin (şəxsi həyata və ailə həyatına hörmət hüququ) pozulması ilə bağlı şikayət edərək bildirmişdir ki, atasının birgə yaşadıqları mənzili tərk etməsi ilə bağlı məhkəmənin qərardadının icrası Polşanın səlahiyyətli orqanları tərəfindən təmin edilməmiş və nəticədə onun, kiçik qardaşının və anasının məişət zorakılığından müdafiəsi üzrə dövlətin pozitiv öhdəlikləri yerinə yetirilməmişdir. Ərizəçi, eyni zamanda atasının mənzili tərk etməsi barədə məhkəmə qərarına baxmayaraq, atasının zorakı davranışına dözmək məcburiyyətində qaldıqları barədə məlumat vermişdir. Məhkəmə Konvensiyanın 35-ci maddəsinə (qəbuledilənlik meyarları) əsasən ərizəni qəbuledilməz (açıq-aşkar əsaslandırılmamış) elan etmşdir. İşin hallarını nəzərə alaraq, səlahiyyətli orqanların ərizəçinin atasının zorakı davranışına verdiyi hüquqi qiymətin sözügedən əməllərin ağırlıq dərəcəsinə görə tam olaraq qeyri-adekvat olduğunu söyləmək düzgün olmazdı. Bununla belə, iş üzrə verilən qərarlar cinayətkarın zorakı davranışına qarşı qabaqlayıcı və ya çəkindirici təsir göstərə bilməmişdir. Eyni zamanda müəyyən olunmuşdur ki, səlahiyyətli orqanlar tərəfindən ərizəçinin vəziyyəti və atasının səbəb olduğu məişət zorakılığı hadisəsi hərtərəfli araşdırılmamış və bütövlükdə yaranmış vəziyyətə adekvat reaksiya verilməmişdir (məsələn, məişət zorakılığı ilə bağlı ayrı-ayrı halların qarşısının alınması üçün çoxsaylı icraatların aparılması).

**<u>Bevacqua və S. Bolqarıstana qarşı</u>**

12 iyun 2008

Əri tərəfindən müntəzəm olaraq fiziki zorakılığa məruz qaldığını iddia edən birinci ərizəçi, üç yaşlı oğlunu (ikinci ərizəçi) özü ilə birlikdə götürərək yoldaşını tərk edib və boşanma (nikahın pozulması) üçün məhkəməyə müraciət edib. Bununla belə o, əri tərəfindən davamlı olaraq döyüldüyünü bildirirdi. O, oğlu ilə birlikdə zorakılıq qurbanı olan qadınlar üçün nəzərdə tutulan sığınacaqda dörd gün qalmış, lakin ona oğlunu oğurladığına görə cinayət məsuliyyətinə cəlb edilə bilmə ehtimalı barədə xəbərdarlıq edildiyi bildirildiyindən uşaq üzərində birgə qəyyumluq məsələsinə məhkəmə qaydasında baxılmış, lakin qadınının dediyinə görə onun əri məhkəmənin bu qərarını yerinə yetirməmişdir. Fiziki zorakılığa məruz qaldığına görə ərinə qarşı irəli sürdüyü ittihamlar sonrakı zorakılıq hallarının baş verməsinə səbəb oldu. Onun müvəqqəti qəyyumluqla bağlı müraciətləri prioritet kimi qəbul edilməmiş və yalnız bir ildən artıq müddət keçdikdən sonra ona qəyyumluq etmək hüququ verilmişdir. Növbəti ildə o, öz keçmiş əri tərəfindən yenidən döyülmüş və zərərçəkmiş şəxsin cinayət təqibinin həyata keçirilməsi ilə bağlı müraciətləri, şikayətin "şəxsi məsələ" olduğunu və yalnız məhkəmə tərəfindən xüsusi ittiham qaydasında baxılmalı olduğunu əsas gətirilərək rədd edilmişdir.

Məhkəmə, yerli məhkəmələr tərəfindən ərizəçilərə mənfi təsir edən vəziyyətlərdə müvəqqəti saxlama tədbirlərinin gecikdirilmədən qəbul edilməməsinin ümumi təsirlərini və ən başlıcası, ikinci ərizəçinin rifahını, habelə birinci ərizəçinin keçmiş ərinin davranışına reaksiya ilə bağlı hakimiyyət orqanları tərəfindən eyni dövrdə həyata keçirilən tədbirlərin yetərli olmamasını nəzərə alaraq, Konvensiyanın **8-ci maddəsinin** (ailə həyatına hörmət hüququ) **pozulması** faktını müəyyən etmişdir. Məhkəmənin fikrincə, bu, şəxsi və ailə həyatına hörmətin təmin edilməsi üçün dövlətin Konvensiya çərçivəsində nəzərdə tutulan (Konvensiyanın 8-ci maddəsi) pozitiv öhdəliklərinə və ictimai maraqlarına zidd olaraq ərizəçilərə zəruri yardımın göstərilməməsinə gətirib çıxarmışdır. Məhkəmə xüsusilə vurğulamışdır ki, mübahisənin xarakterinin "şəxsi məsələ" olması hakimiyyətin ərizəçilərin ailə həyatının qorunması öhdəliyi ilə uyğun gəlmir.

**A. Xorvatiya hökümətinə qarşı (55164/08 saylı iş)**

14 oktyabr 2010

Ərizəçinin keçmiş əri (travma sonrası stress pozğunluğu, paranoya, psixoloji narahatlıq və epilepsiya xəstəliyindən əziyyət çəkən), iddiaya görə, ona qarşı uzun illər ərzində müxtəlif dərəcəli bədən xəsarətləri ilə nəticələnən fiziki zorakılıq hərəkətləri törətmiş, ölümlə hədələmiş və azyaşlı qızlarının qarşısında daimi olaraq təhqir etmişdir. Ərizəçi gizləndikdən sonra, əri tərəfindən təqib və ya narahat edilməsinin qarşısını almaq üçün məhkəmədən qoruma tədbirlərinin görülməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir. Ərizəçinin həyatı üçün bilavasitə potensial riskin olmadığını əsas gətirərək məhkəmə bu müraciəti nəzərə almamışdır.

Məhkəmə müəyyən etmişdir ki, ərizəçinin müdafiə edilməsi və ya onun keçmiş ərinin zorakı davranışlarına səbəb olan psixi problemlərin həllinə istiqamətlənmiş bir çox məhkəmə qərarlarının Xorvatiya hakimiyyət orqanları tərəfindən yerinə yetirilməməsi Konvensiyanın **8-ci Maddəsinin** (şəxsi və ailə həyatına hörmət hüququ) **pozulmasına** səbəb olmuşdur. Onun psixi müalicə alıb almadığı da məlum deyil. Məhkəmə, ərizəçinin Konvensiyanın 14cü maddəsi üzrə (ayrı-seçkiliyin qadağan edilməsi) **şikayətini,** xüsusilə də, Xorvatiyada məişət zorakılığına qarşı qəbul edilmiş tədbirlərin və ya praktikaların və ya həmin tədbirlərin və hüququ praktikaların təsirlərinin ayrı-seçkiliyə səbəb olduğunu sübuta yetirmək üçün yetərli dəlillər (məsələn, hesabat və statistic məlumatlar) təqdim edilmədiyinə görə **qəbuledilməz** elan edib.

**M.C. Bolqarıstana qarşı**

4 dekabr 2003

292 işi üzrə ərizəçi iki kişi tərəfindən zorlanmaya məruz qaldığını iddia etmişdir, və bu ittihamı hər iki şəxs rədd etmişdir. İş araşdırıldıqda, M.C. ilə bağlı onun cinsi əlaqəyə məcbur edilməsinə dair kifayət qədər dəlil tapılmamışdır. Prokuror, güc tətbiq etmə və ya hədələmənin ağlabatan bir şübhə xaricində təsbit edilmədiyi və "ərizəçi tərəfindən heç bir müqavimət göstərilmədiyi və ya digərlərindən kömək istəməyə cəhd göstərilməməsinin təsbit edilməsinə" əsaslanaraq icraata xitam vermişdir. AİHM-nə müraciətində, ərizəçi iddia etmişdir ki, prokurorun tədbiri, hətta əgər bu cinayətin bir hissəsi olmasa da və məhkəmə hüququ tərəfindən açıq şəkildə dəstəklənməsə də, zorlama günahkarlarını yalnız "**əhəmiyyətli fiziki müqavimət**" barədə sübutların olduğu təqdirdə cinayət məsuliyyətinə cəlb etmə təcrübəsini (praktikasını) əks etdirir. AİHM müəyyən etmişdir ki, müstəntiq və prokuror zorlamanın baş verdiyini düşünmüşlər, lakin "birbaşa dəlil" (zorakılığın izləri və ya müqavimətə dair sübutlar) olmadığını nəzərə alaraq, razılığın olmaması barədə nəticə çıxarıla bilməyəcəyi fikrini qəbul etmişlər. Məhkəmə, səlahiyyətli qurumların başqa dəlilləri (məsələn, M.C.-nin aldadıldığını və məcbur edildiyini) nəzərdən keçirmədiyini və ya digər imkanları araşdırmadığını qeyd etmişdir. (məsələn, M. C.-nin "donmuş qorxu" keçirdiyi və bu səbəbdən zorlama aktına tabe olduğu və ya özündən getdiyini). AİHM bu işdə AİHK-nı pozmaqla **nəticəsiz istintaq** aparıldığını qəbul etmişdir.

M.C. Bolqarıstana qarşı işində AİHM qeyd etmişdir: “Qurbanın zorlanmanı necə yaşadığının tədricən daha aydın dərk edilməsi, cinsi zorakılıq qurbanlarının – xüsusilə yetkinlik yaşına çatmamış qızlar – müxtəlif psixoloji faktorlar səbəbindən və ya təcavüzkar tərəfindən şiddətdən qorxduqlarına görə çox hallarda fiziki müqavimət göstərmədiklərini göstərmişdir. “Bütün vəziyyətlərdə **fiziki müqavimətlə bağlı sübut** tələb etmək kimi cinsi cinayətlərin mühakimə olunmasına sərt yanaşma, bəzi zorlama növlərinin cəzasız qalması və bunun-la da fərdin cinsi sərbəstliyinin (muxtariyyətinin) effektiv çəkildə qorunmasını təhlükə altına almaq riski təşkil edir.

**Hajduovà Slovakiyaya qarşı**

30 noyabr 2010

Ərizəçi, xüsusilə də yerli hakimiyyət orqanlarının, onun keçmiş ərinin təhqir və hədədələmə ittihamı ilə cinayət mühakiməsinin ardınca psixiatriya müəssisəsində müalicəyə cəlb olun ması üçün saxlanılmasını təmin etmək üçün öz rəsmi öhdəliklərini yerinə yetirmədikləri barədə şikayət edib.

Məhkəmə qərara alıb ki, ərizəçinin keçmiş ərinin zorakı davranışına cavab olaraq görülən təd birlərin yetərsiz olduğu və xüsusən yerli məhkəmələr tərəfindən onun psixiatrik müalicəyə cəlb olunması üçün saxlanılmasına dair qərar verilməməsi dövlətin 8-ci maddə (şəxsi və ailə həyatına hörmət hüququ) üzrə pozitiv öhdəliklərinin pozulması ilə nəticələnib. Xü susilə də qeyd edilir ki, ərizəçinin keçmiş ərinin ona qarşı davamlı olaraq hədə-qoxu gəlmə si heç vaxt reallaşmasa belə, bu ərizəçinin psixoloji toxunulmazlığına və rifahına mənfi təsir göstərməsi üçün yetərli olub ki, bu da dövlətin Konvensiyanın 8-ci maddəsi üzrə pozitiv öhdəliklərinin yaranmasına səbəb olub.

**Kalucza Macarıstan hökumətinə qarşı**

24 aprel 2012

Ərizəçi öz iradəsinə zidd olaraq mənzilini vətəndaş nigahı ilə yaşadığı zorakı davranış nümayiş etdirən əri ilə bölüşmək məcburiyyətində qalmış, sözügedən mənzil üzərində isə mülkiyyət hüququ ilə bağlı çoxsaylı mülki mübahisələrə baxılmışdır. O, xüsusilə də onun öz evində mütəmadi olaraq fiziki və psixoloji zorakılıqdan müdafiə edilməsi məqsədilə Macarıstanın hakimiyyət orqanlarının tədbir görmədiyini iddia etmişdir.

Məhkəmə iş üzrə yekun olaraq Macarıstan dövlət orqanlarının Konvensiyanın **8-ci maddəsinin** (şəxsi və ailə həyatına hörmət hüququ) **pozulması** ilə nəticələn üzərlərinə düşən pozitiv öhdəlikləri yerinə yetirməməsi barədə qərar qəbul edib. Məhkəmə həmçinin qeyd edib ki, ərizəçinin öz ərinə qarşı fiziki zorakılıq ittihamları üzrə cinayət məsuliyyətinə cəlb olunması üçün şikayətlər etmiş, ona qarşı məhdudlaşdırıcı qərarların çıxarılması məqsədilə dəfələrlə müraciət etmiş və ərinin evdən çıxarılmasını mülki icraat müstəvisinə çıxartmışdır, lakin bununla belə, onun zorakılıqdan effektiv qorunması üçün aidiyyati qurumlar tərəfindən həyata keçirilən tədbirlər qeyri-qənaətbəxş hesab olunur.

**Ayrı-seçkiliyin qadağan edilməsi (Konvensiyanın 14-cü maddəsi)**

**Opuz Türkiyəyə qarşı**

9 iyun 2009

Ərizəçi və anası uzun illər ərzində, əri tərəfindən fiziki zorakılığa məruz qalmış və hədə-qorxu və təzyiq altında yaşamaq məcburiyyətində qalmışlar. Hətta bəzi hallarda onlara həyat üçün təhlükəli olan ağır bədən

xəsarətləri də yetirmişdir. Yalnız bir hal istisna olmaqla, həm ərizəçi, həm də anası ərinin onu və anasını təzyiqlərə məruz qoyduğunu və öldürməklə hədələdiyini öz izahatlarında qeyd etmələrinə baxmayaraq, hər ikisi şikayət ərizələrini geri götürüblər və nəticədə zorakılıq törədən şəxsə qarşı heç bir rəsmi ittiham irəli sürülməyib. Daha sonra o, həyat yoldaşına bıçaqla yeddi dəfə zərbə endirib və bu əməlinə görə məhkəmə tərəfindən təxminən 385 avroya bərabər məbləğdə pul cəriməsi kəsilib ki, həmin məbləğin də hissə-hissə ödənilməsinə icazə verilib. Hər iki qadın həyatlarının təhlükədə olması iddiası ilə çoxsaylı şikayət ərizələri vermişlər. Ərizəçinin əri dindirildikdən sonra sərbəst buraxılıb. Nəhayət, hər iki qadın ondan uzaqlaşmağa çalışdıqda, ərizəçinin əri mübahisə zəminində onun şərəf və ləyaqətinin alçaldığını əsas gətirərək öz qaynanasını odlu silahla qətlə yetirib. O, qətl törətməkdə təqsirli bilinərək ömürlük həbs cəzasına məhkum edilmiş, lakin ərizəçinin həyat yoldaşı tərəfindən ona qarşı təhdidlərə davam etməsi barədə iddialarına baxmayaraq, apellyasiya şikayətinə baxılmasına qədər sərbəst buraxılmışdır.

Məhkəmə qərara alıb ki, ərizəçinin anasının qətlə yetirilməsi ilə bağlı Konvensiyanın **2-ci maddəsinin** (Yaşama hüququ) və aidiyyati dövlət orqanları tərəfindən iddiaçının həyat və sağlamlığının qorunması üçün zəruri tədbirlərin görülməməsi ilə bağlı Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya alçaldıcı rəftarın qadağan edilməsi) **pozulması** baş vermişdir. Həmçinin, Türkiyə hökuməti məişət zorakılığı ilə bağlı əməllərin törədilməsinə görə cəzalandırma və qurbanların qorunması üçün hüquqi mexanizmin yaradılması və tətbiq edilməsini təmin etmədiyi müəyyən edilmişdir. Dövlət orqanları hətta mövcud müdafiə tədbirlərindən belə istifadə etməyib və şikayətlər üzrə işlərin icraatına "ailədaxili məsələ" hesab edərək və şikayətlərin hansı səbəblərdən geri götürülməsini araşdırmadan xitam verilməsinə qərar veriblər. Ərizələrin şikayətçilər tərəfindən geri götürülüb-götürülməməsindən asılı olmayaraq, cinayət işlərinin (cinayət icraatı) qaldırılmasına imkan verən hüquqi mexanizm mövcud olmalıdır.

Məhkəmə həmçinin məişət zorakılığı ilə bağlı işdə ilk dəfə olaraq Konvensiyanın **14cü maddəsinin** (ayrı-seçkiliyin qadağan edilməsi) **2-ci və 3-cü maddələri ilə birlikdə pozulduğu** qənaətinə gəlib: həmçinin qeyd edilir ki, məişət zorakılığı hallarına əsasən qadınların məruz qaldığı və Türkiyənin ədalət mühakiməsi sistemində ayrı-seçkilik yaradan passivlik məişət zorakılığı ilə bağlı halların daha çox artmasına zəmin yaradır. Ərizəçinin və anasının məruz qaldıqları zorakılıq buna görə də gender əsaslı və qadınlara qarşı ayrıseçkiliyə səbəb olan hüquq pozuntusu hesab edilə bilər. Türkiyə hökumətinin son illərdə həyata keçirdiyi islahatlara baxmayaraq, ərizəçinin işində olduğu kimi, ədalət mühakiməsi (məhkəmə) sisteminin ümumi passivliyi və təcavüzkarların cəzasızlıq mühitindən yararlanması, hakimiyyət orqanları tərəfindən məişət zorakılığına qarşı mübarizə tədbirlərinin görülməsini təmin etmək üçün yetərsiz olduğunu göstərir.

**<u>Eremia və Digərləri Moldova Respublikasına qarşı</u>**

28 may 2013

Birinci ərizəçi və iki qızı Moldova hakimiyyət orqanları tərəfindən polis əməkdaşı olan ərinin və uşaqların atasının, zorakı və təhqiramiz davranışlarından qorunmasını təmin edə bilməməsi barədə şikayət edib.

Məhkəmə birinci ərizəçiyə münasibətdə Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və alçaldıcı rəftarın qadağan edilməsi) **pozulması** halı baş verdiyini müəyyən edib, belə ki, aidiyyati dövlət orqanları onların vəziyyətindən xəbərdar olduqları halda, ərizəçini ərinin gələcək zorakı hərəkətlərindən qorumaq üçün səmərəli tədbirləri görməyiblər. Bundan əlavə, onların qızları ilə bağlı Konvensiyanın **8-ci maddəsinin** (şəxsi və ailə həyatına hörmət hüququ) **pozulması** baş verib, belə ki, ataları tərəfindən analarına qarşı birgə yaşadıqları evlərində zorakı davranışın bilavasitə şahidi olmalarının mənfi psixoloji təsirlərini nəzərə alaraq belə davranışın təkrarlanmasının qarşısını almaq üçün heç bir qabaqlayıcı tədbir görülməyib və yaxud görülən tədbirlər qeyri-qənaətbəxş hesab edilib. Ən nəhayət, Məhkəmə qərara alıb ki, hakimiyyət orqanları tərəfindən ərizəçinin

məişət zorakılığından qorunması üçün effektiv tədbirlərin görülməməsi və ya belə tədbirlərin görülməsinin gecikdirilməsindən əlavə birinci ərizəçi ilə bağlı **3-cü madd**ə ilə birlikdə Konvensiyanın **14cü maddəsinin** (ayrı-seçkiliyə qadağa qoyulması) **pozulması** baş verib, belə ki, bu cür zorakı əmələ lazımi qiymət verilməmiş və birinci ərizəçiyə qarşı bir qadın kimi ayrı seçkilik nümayiş etdirilmişdir. Məhkəmə bu mənada qeyd edib ki, BMT-nin qadınlara qarşı zorakılıq məsələləri üzrə xüsusi məruzəçisinin hesabatında qadınlara qarşı məişət zorakılığı halları, onların səbəb və nəticələri ilə bağlı gəldiyi qənaətlər yalnız Moldova Respublikası hakimiyyət orqanlarının məişət zorakılığı probleminin ciddiliyini və miqyasını, o cümlədən qadınlara qarşı ayrı-seçkilik münasibətinin təsirlərini ciddi qəbul etmədikləri barədə təəssüratın formalaşmasına xidmət etmişdir.

Həmçinin baxın: **B. Moldova Respublikasına qarşı (61382/09 saylı) və Mudric Moldova Respublikasına qarşı,** 16 iyul 2013-cü il tarixli məhkəmə qərarları; **N.A. Moldova Respublikasına qarşı (13424/06 saylı),** 24 sentyabr 2013-cü il tarixli qərar; T**.M. və C.M. Moldova Respublikasına qarşı,** 28 yanvar 2014-cü il tarixli qərar.

**Halime Kılıç Türkiyəyə qarşı**

28 iyun 2016

Bu iş ərizəçinin əri tərəfindən qətlə yetirilmiş ərizəçinin qızının ölümü ilə əlaqədardır, baxmayaraq ki, ərizəçi bununla əlaqədar dörd şikayət edib və zərərçəkmişin müdafiəsi haqqında üç məhkəmə qətnaməsinin çıxarılmasına nail olub.

Məhkəmə Konvensiyanın 2-ci maddəsinin ("Yaşama hüququ") və 2-ci maddə ilə birlikdə 14-cü maddəsinin (ayrı-seçkiliyin qadağan olunması) pozulmasını müəyyən etmişdir. Xüsusən, yerli məhkəmə icraatının ərizəçinin qızının qorunmasının təmin edilməsi ilə bağlı Konvensiyanın 2-ci maddəsinin tələblərinə cavab vermədiyi müəyyən edilmişdir. Ərizəçinin ərinə qarşı verilən qərarların icrasını təmin etməməklə, milli hakimiyyət orqanları çıxarılmış qərarların səmərəsizliyinə zəmin yaratmış, beləliklə də cəzasızlıq mühiti yaradaraq, əri heç bir məsuliyyətə cəlb etməməklə ərizəçiyə qarşı təkrarən zorakılığın yol verilməsinə şərait yaratmışdır. Ərinin zorakı davranışına məruz qaldıqda ərizəçinin qızının köməksiz qalması məhkəmə tərəfindən qəbuledilməz hal kimi müəyyən edilmiş, həmçinin, zərərçəkmişə qarşı təkrarən baş verən zorakılıq əməlləri və ölüm hədələrinə göz yummaqla hakimiyyət orqanları məişət zorakılığının baş verməsi üçün əlverişli zəmin yaradıblar.

**M.G. Türkiyəyə qarşı (№ 646/10)**

22 mart 2016

Bu iş ərizəçinin evlilik dövründə yaşadığı məişət zorakılığı, boşanma və sonrakı məhkəmə proseslərinin davam etdiyi dövrlərdə ona qarşı əri tərəfindən edilən hədə-qorxularla əlaqədardır. Xüsusən, ərizəçi onun məruz qaldığı zorakılığın qarşısının ala bilməyən yerli orqanları tənqid edib. O, həmçinin Türkiyədə mütəmadi olaraq və sistemi şəkildə qadınlara qarşı baş verən zorakılıq halları ilə bağlı ayrı-seçkilikdən şikayət edib.

Məhkəmə qərara alıb ki, Konvensiyanın **3-cü Maddəsinin** (qeyri-insani və ya alçaldıcı rəftarın qadağan olunması) **pozulması** baş verib və buradan da belə bir qənaətə gəlinir ki, Türkiyə hakimiyyətinin cinayət işi üzrə apardığı icraatın (cinayət-prosessual hərəkətlərin) Konvensiyanın 3-ci Maddəsinin tələblərinə uyğun gəlmədiyi hesab edilir. O, xüsusilə də qeyd edib ki, hakimiyyət bu işə passiv münasibət göstərib ki, belə ki, cinayət işinin açılmasının beş il altı ay gecikməsi ilə nəticələnib, hətta ərizəçi həyat yoldaşından şikayət etdikdən sonra belə, təqsirkarın cinayət məsuliyyətinə cəlb olunması üçün cinayət təqibi üzrə icraatın hələ də aparıldığı görünür. Bu halda Məhkəmə Konvensiyanın **3-cü maddəsi də daxil olmaqla** Konvensiyanın **14-cü maddəsinin**

(ayrı-seçkiliyin qadağan edilməsi) **pozulduğunu** müəyyən etmiş və boşanma (nikahın pozulması) elan edildikdən sonra (24 sentyabr 2007-ci il tarixində) və 20 mart 2012-ci il tarixində yeni qanunun (6284 saylı) qüvvəyə minmə dövrünədək, qüvvədə olan qanunverciliyin ərizəçinin (boşanma üçün ərizə ilə müraciət etmiş şəxsin) müdafiə tədbirlərindən istifadə etməsini təmin etmədiyi və uzun illər ərzində yerli məhkəmələrə müraciət etməsinə baxmayaraq, keçmiş ərinin kobud və zorakı davranışı ilə qorxu və təhdid altında yaşamağa məcbur olduğu qənaətinə gəlmişdir.

**Bălşan Rumıniyaya qarşı**

23 may 2017

Ərizəçi, verdiyi çoxsaylı şikayətlərə baxmayaraq hakimiyyətin onu həyat yoldaşı tərəfindən mütəmadi olaraq fiziki zorakılığa məruz qalmaqdan qoruya bilmədiyini, ərinin məsuliyyətə cəlb olunmasını təmin edilmədiyini iddia etmişdir. O, həmçinin hakimiyyətin ona qarşı törədilən bu cür zorakılıq əməllərinə dözümlü münasibət nümayiş etdirməsi nəticəsində özünü daha alçaldılmış, köməksiz və müdafiəsiz hiss etdiyini bildirmişdir.

Məhkəmə müəyyən etmişdir ki, ərizəçinin əri tərəfindən zorakılığa məruz qalması faktı ilə bağlı hakimiyyətin lazımi müdafiə tədbirləri görməməsi səbəbindən Konvensiyanın 3**-cü maddəsinin** (qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın qadağan edilməsi) və Konvensiyanın **14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan edilməsi) **pozulması** baş vermişdir və bu halda zorakılığın gender əsaslı olması Konvensiyanın **3-cü maddəsi ilə əlaqədar** baxılmalıdır. Məhkəmə ərizəçinin əri tərəfindən döyüldüyünü və zorakılığa məruz qaldığını, habelə zərərçəkmişin həm polisə, həm də məhkəmə orqanlarına yardım üçün dəfələrlə etdiyi çağırışları nəzərə alaraq, aidiyyati dövlət orqanlarının bu hadisədən xəbərdar olmalı olduğunu xüsusilə qeyd edib. Bundan başqa, Rumıniyada məişət zorakılığından şikayət etmək və zərərçəkmişin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri müdafiə tədbirlərinin görülməsi ilə bağlı səlahiyyətli orqanlara müraciət etmək (hansı ki, şikayətçi bu hüquqi müdafiə vasitələrindən tam istifadə etmişdir) üçün mövcud qanunvericilik bazasının olmasına baxmayaraq, hakimiyyət orqanları onun işi ilə bağlı qanunverciliyin müvafiq müddəalarını tətbiq etməmişlər. Hakimiyyət orqanları hətta ərizəçinin ona qarşı törədilən əməllərə özünün səbəb olduğunu və törədilən əməllərin cinayət qanunvericiliyinin təsir dairəsində az əhəmiyyətli hüquq pozuntusu olduğu qənaətində olmuşlar. Belə bir yanaşma milli qanunvericilik bazasını onun ali məqsədlərindən uzaqlaşdırıb və qadınlara qarşı zorakılığa dair müvafiq beynəlxalq standartlara və prosedurlara zidd olub. Həqiqətən də hakimiyyətin sözügedən işdə nümayiş etdirdiyi passivliyi ərizəçiyə bir qadın kimi ayrı-seçkilik münasibətini əks etdirmiş və ümumilikdə Rumıniyada məişət zorakılığının qarşısının alınması ilə bağlı hökumətin cəmiyyət qarşısında öhdəliyinin mövcud olmadığını göstərmişdir

**Yazışmaların konfidensiallığı və kibertəhdid**

**Buturugă Rumıniyaya qarşı**

11 fevral 2020-ci il

Bu iş ərizəçinin keçmiş əri tərəfindən məişət zorakılığına məruz qalmasına və elektron yazışmalarının konfidensiallığının onun tərəfindən pozulmasına aid iddialarla əlaqədar idi ki, ərizəçi bu növ zorakılıq qurbanlarını qorumaq üçün nəzərdə tutulan sistemdəki çatışmazlıqlardan şikayət etmişdir. Ərizəçi konkret olaraq məruz qaldığını iddia etdiyi məişət zorakılığına dair cinayət istintaqının səmərəsizliyindən şikayət etmişdir. O, həmçinin bildirmişdir ki, şəxsi təhlükəsizliyi lazımi səviyyədə təmin olunmamış və dövlət orqanları onun yazışmalarının konfidensiallığının keçmiş əri tərəfindən pozulması ilə bağlı şikayətinə baxmaqdan imtina etmiş-

lər. Məhkəmə qərara almışdır ki, dövlət öz pozitiv öhdəliklərini yerinə yetirmədiyi üçün Konvensiyanın 3-cü (işgəncələrin qadağan olunması) və 8-ci maddəsi (şəxsi həyata və ailə həyatına hörmət hüququ) pozulmuşdur. Məhkəmənin gəldiyi qənaətə görə, milli dövlət orqanları konkret məişət zorakılığı məsələsi ilə bağlı cinayət mühakimə icraatını aparmamış və ərizəçinin şikayət etdiyi faktların ciddiliyinə lazımi reaksiya göstərməmişlər. Zorakılıq əməlləri barədə istintaq isə qüsurlu olmuş və zorakılıq barədə şikayətlə sıx əlaqəli olan yazışmaların konfidensiallığının pozulmasına dair şikayətə mahiyyəti üzrə baxılmamışdır. Bu məsələ ilə bağlı Məhkəmə sonda qeyd etmişdir ki, kibertəhdid hazırda qadınlara və qızlara qarşı zorakılığın bir aspekti kimi qəbul edilir və müxtəlif formalarda təzahür edə, o cümlədən şəxsi həyatın toxunulmazlığına qarşı kiberpozuntular, qurbanın kompüterinə müdaxilə etmə və fərdi məlumatları da daxil olmaqla məlumatlarını ələ keçirmə, məlumatlarını ötürmə, yayma və onlarla manipulyasiya etmə formalarını ala bilər.

**Əlavə 3**

## Ədliyyə Nazirliyi tərəfindən rəsmi məktublar əsəasında mühafizə orderləri ilə bağlı alınan

## STATİSTİK MƏLUMAT

| **Məişət zorakılığı ilə əlaqədar mühafizə orderinin verilməsi üzrə statistik göstəricilər** | **2018-ci il** | **2019-cu il** | **2020-ci il** | **2021-ci ilin 9 ayı** |
|---|---|---|---|---|
| icraatda olmuş sənədlərin ümumi sayı: | – | 40 | 32 | – |
| **uzunmüddətli mühafizə orderi** | **3** | **2** | **0** | **4** |
| **qısamüddətli mühafizə orderi** | **–** | **38** | **36** | **69** |
| İcrası təmin edilmişdir | | 26 | 16 | |

2020-ci ildə icra və probasiya qurumlarının icraatında olan məişət zorakılığı ilə əlaqədar 53 icra sənədinin 2-si uzunmüddətli, 51-i isə qısamüddətli mühafizə orderləri olmuşdur. Həmin icra sənədlərindən 28-nin icrası təmin olunmuş, 6-sı “İcra haqqında” Qanunun 7-ci maddəsinin tələblərinə cavab vermədiyindən, 3-ü “İcra haqqında” Qanunun 23-cü maddəsinin tələblərinə əsasən qaytarılmış, 16-sı isə növbəti hesabat dövrünə keçmişdir.

2021-ci ilin I rübü üzrə məişət zorakılığı ilə əlaqədar 24 icra sənədinin 2-si uzunmüddətli, 22-si isə qısamüddətli mühafizə orderləri olmuşdur. Həmin icra sənədlərindən 14-nün icrası təmin olunmuş, 1-i “İcra haqqında” Qanunun 7-ci maddəsinin tələblərinə cavab vermədiyindən, 1-i “İcra haqqında” Qanunun 23-cü maddəsinin tələblərinə əsasən qaytarılmış, 8-i isə növbəti hesabat dövrünə keçmişdir.

## QEYD

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

Ünvan: AZ 1000,Bakı şəhəri,Ü.Hacıbəyli 80, Hökümət Evi,IV Qapı

Tel: (+994 12) 498 00 92

Faks: (+994 12) 493 58 72

E–mail: ffice@scfwca.gov.az

https://twitter.com/AileQadinUsaq

https://www.instagram.com/aileqadinusaq/

https://www.facebook.com/ AileQadinUsaqProblemleriUzreDovletKomitesi/

Tədqiqat işi Azərbaycan Resbuplikası Ailə, Qadın və Uşaq Problemləri üzrə

Dövlət Komitəsinin sifarişi əsasında ekspert Abil Bayramov tərəfindən hazırlanmışdır.

Format 64x90 1/8 Fiziki Çap Vərəqi 8.
64 səhifə. Tiraj 150 ədəd.
Jurnal “TUNA QSC” Mətbəəsində çap olunmuşdur.